**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Azərbaycan Kooperasiya Universiteti

# “MUZEY KOLLEKSİYALARININ KOMPLEKTLƏŞDİRİLMƏSİ, UÇOTU VƏ MÜHAFİZƏSİ”

(Ali məktəblər üçün dərs vəsaiti)

**Dərs vəsaiti Azərbaycan Kooperasiya Universitetinin Elmi Şurasının 23.05.2025 tarixli qərarı ilə təsdiq edilmişdir. Protokol №: 5**

**Bakı-2025**

Müəllif: **Aybəniz Səədi qızı Əhədova**
elmi işçi, AKU-nin baş müəllimi
Elmi redaktor: **Sevinc Akif qızı Nəsirova**
tarix üzrə fəlsəfə doktoru, dosent,
AKU-nin baş müəllimi
Rəyçilər: **Aynur Ramiz qızı Əliyeva**
tarix üzrə fəlsəfə doktoru, dosent,
AKU "Humanitar fənlər" kafedrasının müdiri
**Aida Zahid qızı İsmayılova**
tarix üzrə fəlsəfə doktoru,
Milli Az. Tarixi Muzeyinin böyük elmi işçisi

*"Muzey kolleksiyalarının komplektləşdirilməsi, uçotu və mühafizəsi" fənni muzeylərdə mühafizə olunan əşyaların və gələcəkdə muzeyə daxil olması nəzərdə tutulan əşyaların atribusiyasını, komplektləşdirməsini, interpretasiyasını, əşyaların elektron sistemləşdirilməsini, saxta nümunələrin orijinaldan elmi, radiokimyəvi, mikroanalitik, texniki üsullarla fərqləndirilməsini, kolleksiyaların ümumi mühafizəsini və bu sahələrdə müvafiq qanunları və normativ sənədlərin tərtibi qaydalarını öyrənir. Dərs vəsaiti ali məktəblərdə "Muzey kolleksiyalarının komplektləşdirilməsi, uçotu və mühafizəsi" fənninin tədrisi üçün hazırlanmış və tələbələrin muzey işini müasir texnologiyalar əsasında, dövrün tələblərinə uyğun şəkildə hərtərəfli öyrənməsinə kömək məqsədi daşıyır. Həmçinin, dərs vəsaitindən "Muzey, arxiv işi, abidələrin qorunması", "Tarix", "Tarix müəllimliyi", "Muzeyşünaslıq", "Arxiv işi" ixtisası üzrə təhsil alan bakalavr və magistr tələbələr də istifadə edə bilərlər.*

**İSBN 978-9952-37-500-8**

# GİRİŞ

**“Muzey kolleksiyalarının komplektləşdirilməsi, uçotu və mühafizəsi” fənni tədqiqat predmeti kimi.** “Muzey kolleksiyalarının komplektləşdirilməsi, uçotu və mühafizəsi” fənni Azərbaycan və dünya muzeylərində mühafizə olunan maddi-mədəniyyət nümunələrinin tarixi, qorunma yolları, müasir laboratoriyaların muzey strukturlarına inteqrasiyasının strateji əhəmiyyətini nəzərə alaraq müasir texnologiyalarla analizi və mühafizəsi üsulları haqqında biliklərə yiyələnmək; muzey əşyasının spesifikasını bilmək, muzey əşyasını kompleks araşdırmağı bacarmaq, kursun mənbə və muzeyşünaslıq bazası ilə işləmək bacarığına malik olmaq; muzey əşyasının radioloji-təhlükəsizliyinə yönələn tərtibat qaydalarını, maddi mədəniyyət nümunələrinin muzeyə daxilolma prinsipini, onların qeydiyyata alınmasının mahiyyətini bilmək; muzey əşyasının müasir standartlara uyğun modelləşməsini, rəqəmsal bazalara daxil edilməsini, hüquqi-normativ əsaslarını, fərqli cəhətlərini, o cümlədən üstünlüklərini, müasir durumunu və inkişaf perspektivlərini mənimsəmək; mühafiz və mühafizə funksiyalarını yerinə yetirən əməkdaşların hüquq və vəzifələrini bilmək; muzeyə daxil olan əşyaların növlərinə, materiallarına, radioloji-təhlükəliliyinə, saxta və ya orijinallılığına görə ayırıb komplektləşdirməyi bilmək kimi xüsusiyyətləri özündə birləşdirir.

Muzey əşyasının öyrənilməsi prosesi atribusiya və ekspertizanın da daxil olduğu bir neçə mərhələdə həyata keçirilir. Komplektləşdirilmə və uçot nəinki muzey əşyası haqqında məlumat almaq, həmçinin daha öncə verilmiş məlumatın təsdiq və inkar edilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Fənn komplektləşdirilmə metodları, maddi mədəniyyət nümunələrinin ümumi mühafizəsi, eyni zamanda radiasiya təhlükəsizliyi qaydalarını, uçotu üsullarını və bununla bağlı olan digər məsələləri öyrənir. Muzey əşyalarının elmi komplektləşdirilməsi vasitəsilə onun muzey üçün tarixi, bədii, mədəni baxımdan əhəmiyyətlilik dərəcəsi təyin olunur.

"Muzey kolleksiyalarının komplektləşdirilməsi, uçotu və mühafizəsi" fənninə aid edilən mühazirə mövzularında muzey işi, muzey əşyasının ümumi mühafizəsinə və radioloji-təhlükəsizliyinə yönələn tərtibat qaydaları, maddi-mədəniyyət nümunələrinin muzeyə daxilolma prinsipi, onların qeydiyyata alınmasının mahiyyəti, əşyaların müasir standartlara uyğun modelləşməsi, rəqəmsal bazalara daxil edilməsi, mühafiz və mühafizə funksiyalarını yerinə yetirən əməkdaşların hüquq və vəzifələri, hüquqi-normativ əsasların fərqli cəhətləri, o cümlədən üstünlükləri, müasir durumu və inkişaf perspektivləri vurğulanır.

Fənnin tədrisinin hədəfləri təliminin sonunda tələbələr "Muzey kolleksiyalarının komplektləşdirilməsi, uçotu və

mühafizəsi"nə aid materialları mənimsəməklə, ondan istifadənin yolları və tədrisi üsulları ilə tanış olmaqla, gələcək fəaliyyətində məharətlə istifadə edə biləcəklər.

Fənn "Azərbaycan tarixi", "Qədim dünya tarixi", "Orta əsrlər tarixi", "Muzey işi", "Muzeyşünaslıq", "Etnoqrafiya", "Arxeologiya", "Radiasiya materialşünaslığı və radiasiya təhlükəsizliyi" və s. sahələrlə sıx əlaqədə öyrənilir.

**Fənnin məqsədi.** "Muzey kolleksiyalarının komplektləşdirilməsi, uçotu və mühafizəsi"" fənninin məqsədi tələbələrə Azərbaycan xalqının maddi–mənəvi mədəniyyət sərvətlərini özündə əks etdirən muzeylərdə mühafizə olunan eksponatların, eləcə də muzey əşyası kimi dəyərləndirilə bilən nümunələrin qeydiyyatı pirinsiplərini və metodlarını, uçot-mühafizəsinin müasir elmi əsaslar üzərində qurulmasını öyrətməkdir. Fənnin məqsədlərindən biri zamanın tələbinə uyğun olaraq artıq müasir texnologiyadan istifadə etməklə həm uçotun, həm də mühafizə işinin öyrənilməsi və gələcəkdə bu sahə üzrə inkişaf etmək istəyən tələbələrin elmi biliklərinin bu istiqamətdə artırılmasına yönəlib. Tədris prosesində muzey əşyasının yalnız komplektləşdirilməsi deyil, eləcə də uçot və mühafizəsinə yönələn tərtibat qaydaları da öyrədilir. Fənnin məqsədi muzey əşyalarının komplektləşdirilməsi, mühafizəsinin təşkili, tamlığı, qüsurluluğu, bərpaya ehtiyacı

olmasını anlamağın və bu prosesə müdaxilə etməyin yollarını öyrətməkdir. Fənnin vəzifələrindən biri də Azərbaycanda inkişaf etmiş sənətkarlıq sahələri, etnoqrafik, arxeoloji nümunələr, onlara qayğı və digər aktual məsələləri öyrətməkdir. Tələbələr dünya və Azərbaycanın qədim və zəngin tarixi ilə tanış olur, onların dünyagörüşləri formalaşır və mahiyyəti dərk edilir. Müasir standartlara və tələblərə uyğun olaraq muzey əşyalarının 3D modellərinin, rəqəmsal eskizlərinin hazırlanması, onların rəqəmsal bazaya daxil edilməsinin vacibliyi fənnin tədrisi prosesində tələbələrə izah edilir.

Dərslikdə qeyd olunan mövzuların tədrisi və tələbələr tərəfindən mənimsənilməsi nəticəsində tələbələrin Azərbaycan Respublikası Qanunvericiliyində nəzərdə tutulan qaydalara uyğun işləməyi; Müasir dövrdə müasir konsepsiyalardan istifadə etməklə maddi-mədəniyyət nümunələrinin düzgün mühafizə və uçota alınmasının əhəmiyyətini; Muzey əşyasının kompleks araşdırılması yollarını; Əşyalar ilə düzgün işləmək bacarığını; Muzey əşyasının elmi təsvirini verməklə və uçot - qeydiyyatının necə aparıldığını bilməklə komplektləşdirməni; Muzey fondlarının radioaktiv mənbələrdən qorunması, təmizlənməsi yollarını; Akt nümunələri hazırlamağı; Muzey əşyalarının, fondun, sərgi zallarının mühafizəsinə yönələn işçilərin məsul olduğu funksiyalar və öhdəlikləri; Arxeoloji qazıntılar zamanı muzey əhəmiyyətli əşyalarla davranış

qaydalarını; Təhvil alma, uçot-qeydiyyat zamanı saxta və orijinal eksponat arasında fərqli və oxşar xüsusiyyətləri müəyyən etməyi; Üslub, texnika və bacarıqları istifadə edərək, eksponat haqda plan həyata keçirilməsi qaydalarını aparmağı; Muzey əşyalarının filiallar üzrə tərtibatı qaydalarını; Əşyaların 3D modellərinin, rəqəmsal eskizlərinin hazırlanması zamanı lazım olan proqramların və prosedurların həyata keçirilməsini; Muzey sərvətləri üçün nəzərdə tutulan qablaşdırma və transfer texnologiyasını düzgün şəkildə mənimsəyib bu biliklərə yiyələnməkləri gözlənilir.

## 1. UÇOT-MÜHAFİZƏ İŞİNİN ÜMUMİ QAYDALARI. MUZEYDƏ MÜASİR TƏHLÜKƏSİZLİK SİSTEMLƏRİ

Muzey "maddi və mənəvi mədəniyyətin daşıyıcısı olan obyektlərin elmi əsaslarla toplanması və saxlanması üçün yaradılan ictimai müəssisə" kimi xarakterizə edilir. Muzey fəaliyyətinin əsas funksiyaları aşağıdakılardır:

Toplama – mədəni dəyəri olan obyektlərin elmi seçim prinsipləri əsasında əldə edilməsi;

Saxlanma və mühafizə – əşyaların fiziki, kimyəvi və bioloji təhlükələrdən qorunması;

Tədqiqat – kolleksiyaların elmi işlənməsi, kataloqlaşdırılması və sistemləşdirilməsi;

Maarifləndirmə və sərgi fəaliyyəti – muzeyin ictimai funksiyasını təmin edən əsas istiqamətdir.

Bu funksiyalar bir-biri ilə qarşılıqlı əlaqədədir və birlikdə muzeyin elmi və sosial mahiyyətini müəyyən edir. Muzey kolleksiyalarının ümumi uçotu və mühafizəsi mədəni irsin qorunması, onun gələcək nəsillərə ötürülməsi və elmi araşdırmalar üçün əlçatanlığının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Kolleksiyalar muzeylərin bütün fəaliyyətinin mərkəzində dayanır və onların nail ola biləcəyi hər şeyin əsasını təşkil edir. Muzey və qalereya kolleksiyaları insanlara zövq verir, onlarda heyranlıq və təəccüb hissi oyadır, insanlara dünyanı kəşf etməyə imkan yaradır və fərqli təcrübələri real və əlçatan edir. Kolleksiyalar insanlara sübut təqdim edir və tədqiqatlar üçün imkanlar yaradır. Onlar əhəmiyyətli iqtisadi təsirə malik olmaqla bərabər müasir elmi, yaradıcılığı və s. stimullaşdırır. Hazırda bir çox muzeylərin düzgün istiqamətdə lazımi kolleksiya toplama fəaliyyəti ciddi şəkildə zəifdir. Bu sahədə olan resurs çatışmazlığı bu prosesə mane olan əsas amillərdən biri olsa da, ayrı-ayrı muzeylər daha iddialı, daha təhlükəsiz və məqsədyönlü şəkildə kolleksiya toplayıb sərgiləməlidir. Muzey icması bütövlükdə kolleksiya toplamanın miqyasını və effektivliyini artırmaq yollarını tapmalıdır. Hazırda insanlar dünyada mövcud muzey kolleksiyalarının tam spektri ilə yetərincə tanış olmaq imkanına malik deyillər. Çoxlu sayda lazımsız kolleksiya hazırda istifadəsiz qalır və ya demək olar ki, istifadə olunmaz haldadır: onlar nə sərgilənir, nə

araşdırılır, nə də əlçatan şəkildə sənədləşdirilir və başa düşülür. Əgər muzeylər bu vəziyyəti dəyişmək üçün (təsadüfi obyekt yığımının qarşısını almaq və kolleksiyanın dəyərini artırmaq) təcili tədbirlər görməsələr, dünya muzeylərinin böyük və getdikcə artan eyniləşmiş kolleksiyaları gələcək muzeylər üçün yük olacaq və muzey ziyarətçilərinin təxəyyülünü qidalandırmadan resursları tükədəcək.

Hazırkı muzey xidmətləri bərabər paylanmayıb və planlaşdırmadan çox, təsadüf nəticəsində formalaşıb. İnsanların muzey kolleksiyaları ilə tanışlıq imkanları yaşadıqları yerə və nə qədər hərəkət edə bildiklərinə həddindən artıq bağlıdır. Beynəlxalq Muzeylər Assosiasiyası (BMA) hesab edir ki, insanlar muzey kolleksiyalarından zövq almaq hüququna malikdirlər və hökumət investisiya planlaşdırmasında bu hüququ ciddi şəkildə nəzərə almalıdır. Muzeylər bu prinsipin sektorun ümumi inkişafı üçün nə demək olduğunu daha aydın şəkildə müəyyənləşdirməlidirlər. Eyni zamanda, ayrı-ayrı muzeylər öz fəaliyyətlərini yenidən nəzərdən keçirməli və ilk növbədə hər kəsin onların qoruduğu kolleksiyalarla maksimum səviyyədə tanış olmaq imkanına malik olması prinsipindən çıxış etməlidirlər və bu prinsiplərin həyata keçirilməsi üçün müəyyən qaydalar tərtib etməlidirlər.

Bu qaydalar muzeylərin fəaliyyətində əvəzsiz əhəmiyyətə malikdir və onların məqsədi kolleksiyaların düzgün idarə olunması, təsnifatı və qorunmasını təmin etməkdir. Azərbaycan Respublikasının dövlət muzeyləri, respublika muzey fondunun tərkibinə daxil olan mədəni və təbiət tarixi abidələrinin əsas qoruyucuları kimi fəaliyyət göstərir. Bu abidələrin tam mühafizəsini təmin etmək və uçotunu aparmaq onların əsas vəzifəsidir. Muzeyin, bərpa və ya sərgi müəssisəsinin rəhbərliyi muzey sərvətlərinin qorunması, uçotu və bərpası ilə bağlı effektiv idarəetmə üçün daxili qaydalar hazırlamalıdır. Bu qaydalar normativ sənədlərə əsaslanaraq muzeydə saxlanılan əşyaların təhlükəsizliyini və düzgün idarə edilməsini təmin edir. Daxili qaydaların hazırlanması zamanı muzey sərvətlərinin qeydiyyatı, inventarizasiyası və saxlanılması ilə bağlı prosedurlar, bərpa işlərinin icra müddəti, metodikası və məsul şəxslərin müəyyənləşdirilməsi, muzey obyektlərinin təhlükəsizliyini təmin etmək üçün siqnalizasiya, video nəzarət və gözətçi xidmətlərinin təşkili planlı şəkildə həyata keçirilməlidir. Daxili qaydalar hazırlanarkən sadalanan əsas istiqamətlər nəzərə alınmalıdır: a) Muzey Sərvətlərinin Qeydiyyatı və İnventarizasiyası ; b) Muzey Sərvətlərinin Saxlanılması və Mühafizəsi ; c) Bərpa İşlərinin İcra Müddəti və Metodikası ; d) Muzeyin Təhlükəsizlik Sisteminin Təkmilləşdirilməsi ; e) Muzey Sərvətlərinin Daşınması və Qablaşdırılması ; d) Sənədləşmə və Normativ Sənədlər.

Bunlarla yanaşı, xüsusi prinsiplər də nəzərə alınmalıdır. Belə ki, əşyaların ehtiyat yerlərdə, daimi ekspozisiyalarda və sərgilərdə saxlanma qaydaları, daimi və müvəqqəti istifadə üçün əşyaların qəbul edilməsi və verilməsi prosedurları, muzey binasının otaqlarının möhürlənməsi və plombalanması prosesi, açarların saxlanması və giriş-çıxış icazələrinin idarə edilməsi də daxili qaydaların tərtibi zamanı nəzərdə tutulmalıdır. Muhafizə işinin təşkili zamanı isə, muzeydə yanğın təhlükəsizliyini təmin etmək üçün xüsusi prosedurlar hazırlanmalı, yanğın təhlükəsizliyinə məsul şəxslər mütəmadi təlim keçməli və fövqəladə hallara hazır olmalıdır. Həmçinin, gözətçilər müntəzəm olaraq binanın mühafizəsini təmin etməli, giriş-çıxış nəzarətini həyata keçirməli və qeyri-qanuni fəaliyyətlərə qarşı tədbirlər görməli və muzey obyektlərinin olduğu zonalarda əlavə təhlükəsizlik tədbirləri tətbiq etməlidirlər. Muzeyin mühafizəsində elmi işçilərin, bərpaçıların, zal nəzarətçilərinin və mühafizlərin məsul olduğu öhdəliklər vardır. Muzeyin, bərpa və ya sərgi müəssisəsinin direktoru muzey sərvətlərinin qorunması üçün lazımi şəraitin yaradılmasına görə məsuliyyət daşıyır. Bu şəraitə fiziki mühafizə və texniki təchizat daxil edilə bilər. Fiziki mühafizə dedikdə, muzey obyektlərinin saxlanıldığı yerlərdə iqlim nəzarəti (temperatur və rütubət) sistemlərinin quraşdırılması, muzey sərvətlərinin saxlanması üçün müasir standartlara uyğun şəraitin təmin olunması nəzərdə tutulur.

Texniki təchizata əsasən, onların zədəsiz qorunub saxlanmasına, uçotun vəziyyətinə, elmi inventarlaşmasına, bərpa və konservasiyasına, gecə və gündüz mühafizəsinin təmin olunmasına, eləcə də muzeyin (müəssisənin) yanğından mühafizəsinə məsuliyyət daşıyır. Muzey direktoru muzey sərvətlərinin qorunması ilə bağlı beynəlxalq (UNESCO-nun 1970-ci il Konvensiyası, Haaqa Konvensiyası-1954, ICOM-un etik qaydaları və digər beynəlxalq sənədlər) və milli qanunvericiliyə uyğun hərəkət etməli, bütün muzey işçilərinin (elmi işçilər, mühafizə heyəti, bərpaçılar və s.) öz vəzifələrini dəqiq və vicdanla yerinə yetirmələrinə nəzarət etməli, müvafiq dövlət və ya beynəlxalq qurumlara muzey sərvətlərinin vəziyyəti haqqında vaxtaşırı hesabat təqdim etməlidir.

Direktorun məsuliyyəti muzey sərvətlərinin yalnız fiziki mühafizəsi ilə məhdudlaşmır, həm də onların elmi və mədəni dəyərinin qorunmasını, gələcək nəsillərə çatdırılmasını və ictimaiyyətə düzgün təqdim olunmasını əhatə edir. Direktorun muzey sərvətlərinin qorunmasına yönələn məsuliyyətini bəzi məqamlarla izah etmək olar: Buraya muzeydə saxlanılan eksponatların tarixi, mədəni və elmi dəyərinin tədqiq olunması, sənədləşdirilməsi və məlumatların düzgün şəkildə saxlanılması; Müxtəlif sahələr üzrə mütəxəssislərlə əməkdaşlıq edərək, sərvətlərin elmi dəyərinin artırılması və qorunması strategiyalarının hazırlanması; Eksponatların təbii təsirlərdən qorunması,

ehtiyac olduqda restavrasiya işlərinin həyata keçirilməsi; Muzey sərvətlərinin rəqəmsal mühitdə arxivləşdirilməsi və gələcək nəsillər üçün məlumatın saxlanılması; Muzeyin təhsil və maarifləndirmə fəaliyyətlərinin təşkil olunması, eksponatların ictimaiyyətə maraqlı və anlaşılan formada təqdim edilməsi; Müasir texnologiyalardan istifadə edərək sərgilərin interaktiv və estetik tələblərə cavab verməsini təmin etmək; Muzeyin cəmiyyətin mədəni həyatında aktiv iştirakını təmin etmək, fərqli mədəniyyətlərin nümayişini təşviq etmək; Muzeyin maliyyə və insan resurslarının düzgün idarə olunmasını təşkil etmək; Muzeyin fiziki mühafizəsi, təhlükəsizlik sistemləri və texniki infrastrukturun işlək vəziyyətdə saxlanılması aiddir.

Ümumi uçot qaydalarının tərtibi zamanı üç əsas prosedur nəzərə alınmalıdır: ilkin (primitiv) qeydiyyat, fərdi (müfəssəl) qeydiyyat və sistemləşdirmə. Muzeyə daxil olan hər bir obyekt əvvəlcə ibtidai qeydiyyat kitabında obyektin adı, mənşəyi, alınma tarixi, ölçüləri, materialı və vəziyyəti haqqında ətraflı məlumat daxil edilməklə qeydə alınır. Daha sonra hər bir obyekt üçün fərdi uçot kartı tərtib edilir. Uçot kartında eksponatın texniki təsviri, fotoşəkilləri, tarixi dəyəri və mühafizə tədbirləri ilə bağlı məlumatlar qeyd olunaraq rəqəmsal bazaya daxil edilir və arxivləşdirilir. Sonuncu mərhələdə isə, kolleksiyalar sistemləşdirilmiş formada arxeologiya, etnoqrafiya, sənət, təbiət elmləri və s. kimi kateqoriyalara bölünür .

Hüquqi aspekt baxımından onu qeyd etmək lazımdır ki, muzey kolleksiyaları dövlət qanunvericiliyinə əsasən qorunur və muzeyə aid obyektlərin qeyri-qanuni çıxarılması və ya satışı qəti qadağandır. Muzeylərdə saxlanılan sərvətlərin yalnız müəyyən şəraitlərdə və məqsədlərlə müvəqqəti olaraq yeri dəyişdirilə bilər. Lakin, kolleksiyaların qeyri-qanuni çıxarılması, satılması və ya özəlləşdirilməsi qəti şəkildə qadağandır və bu, çox ciddi hüquqi nəticələrə səbəb ola bilər. Muzeyə aid mədəni əşyaların və ya kolleksiyaların mülkiyyət hüququ dövlətə məxsus olduğundan, bu əşyaların daha yüksək qiymətə satılmaq məqsədilə qanunsuz şəkildə alqı-satqısı muzey və dövlətin mədəni irsinin qorunması və inkişafı prinsiplərinə ziddir. Dövlət qanunvericiliyinə əsasən, muzeylərə aid mədəni irs obyektlərinin mülkiyyət hüququ qorunur və onların hər hansı bir şəraitdə satılması və ya bazara çıxarılması qanunla cəzalandırılır. Cinayət Məcəlləsi və İqtisadi Cinayətlərə qarşı mübarizə ilə bağlı normativ aktlar, muzeylərdə saxlanılan kolleksiyaların oğurluğu və qeyri-qanuni satışına qarşı sərt cəzalar nəzərdə tutur. Belə halların qarşısını almaq məqsədilə, müvafiq dövlət orqanları, xüsusən Mədəniyyət Nazirliyi, yerli hüquq-mühafizə orqanları və UNESCO kimi beynəlxalq təşkilatlar muzeylərdəki obyektlərin qorunması və qeyri-qanuni tranzaksiyaların qarşısının alınması üçün mütəmadi olaraq yoxlamalar aparır. Qanunvericilik muzeylərin

kolleksiyalarının qorunması və təhlili sahəsində əsas rol oynayır. Muzeylər öz fəaliyyətlərini həyata keçirərkən yalnız elmi, təhsil və mədəni vəzifələrini yerinə yetirməkdən əlavə, həmin kolleksiyaların qorunmasını təmin etməli və hər hansı bir qeyri-qanuni əməlin qarşısını almağa məsuliyyət daşımalıdırlar.

Müasir zamanın tələblərinə uyğun olaraq avtomatlaşdırılmış müxtəlif **müasir texnologiyalar**, idarəetmə sistemləri eksponatların mühafizə və uçot proseslərini olduqca asanlaşdırır. Bununla yanaşı, rəqəmsallaşdırma prosesi obyektlərin virtual sərgilərdə nümayiş etdirilməsinə və onların daha geniş auditoriyaya çatdırılmasına imkan yaradır. Bu baxımdan həm rəqəmsal uçot, həm də rəqəmsal mühafizə sistemləri müasir yanaşmalar kimi muzeylərdə son dövrlərdə daha geniş şəkildə tətbiq edilir. Kameralar, sensorlar, həyəcan siqnalları və digər ağıllı cihazlar eksponatların oğurluqdan və zərərdən qorunmasına yardım edir. Videomüşahidə sistemləri yüksək dəqiqlikli kameralar vasitəsilə eksponatları 24/7 izləyir və qeydə alınan görüntülər analiz üçün saxlanılır. Hər hansı qanunsuz müdaxilə zamanı həyəcan siqnalları və ağıllı təhlükəsizlik sistemləri yüksək səsli siqnallar və bildirişlər vasitəsilə mühafizə xidməti ilə əlaqə qurur.




*Muzeylərdə təhlükəsizlik məqsədilə tətbiq olunan müasir texnologiyalar*

Bu sistemlər real vaxt rejimində monitorinq və müdaxilə imkanı verir. Belə cihazlar eyni zamanda həm mühafizin, həm də muzey əşyalarının qorunmasından məsul olan digər əməkdaşların işini asanlaşdırır. Yüksək dəqiqlikli görüntü təmin edən və internetlə bağlantılı olan kameralar (IP kameralar), görüntü sahəsini fırlada və yaxınlaşdıra bilən kameralar (PTZ Kameralar-“Pan-Tilt-

Zoom"), hərəkət və istilik deteksiyası üçün istifadə olunan kameralar (Termal kamera), hərəkət sensorları, obyektlərə toxunma və yaxınlaşma zamanı işə düşən infraqırmızı sensorlar, eksponatların və ya divarların titrəməsini aşkarlayan vibrasiya (titrəmə) sensorları , ultrasəs sensorları, ağıllı siqnalizasiya sistemləri, şüşə qırılma sensoru, giriş sensoru, barmaq izi skayneri, üz tanıma sistemləri, göz tanıma detektorları, yanğın detektorları, hidrometrik sensorlar (rütubət və temperatur dəyişikliklərini izləyir), su sızması sensorları, ağıllı kilidlər (yalnız icazəli şəxslərin müəyyən sahələrə girişinə icazə verir) və hər bir əşyanın üzərində olan kiçik bir çip vasitəsilə nişanların izlənməsini və məlumatların mühafizəsini asanlaşdıran RFID (Radio Frequency Identification) texnologiyası bu gün muzeylərdə tətbiq olunan və tətbiqi vacib hesab olunan sistemlərdir.

İqlim nəzarət sistemləri və enerji effektivliyi texnologiyaları muzey əşyalarının qorunması baxımından mühüm rol oynayır. Temperatur və rütubət səviyyələrinin dəqiq izlənməsi eksponatların zədələnməsinin qarşısını alır. Bu cür sistemlər həmçinin muzeylərə uzunmüddətli saxlanma mühiti yaratmağa imkan verir, çünki müvafiq şəraitdə əşyaların fiziki və kimyəvi zədələnməsi minimuma endirilir.

Bundan əlavə, videonəzarət və təhlükəsizlik sistemləri də muzeylərin qorunmasında mühüm rol oynayır.

İnteraktiv videonəzarət sistemləri eksponatların yerləşdiyi sahələrdə istənilən hərəkətləri izləyərək təhlükəsizlik qaydalarının pozulmasını dərhal aşkar edir və rəhbərliyə məlumat verir. Siqnalizasiya sistemləri isə potensial təhlükələrə qarşı tez bir şəkildə reaksiya verməyə imkan tanıyır.

Bərpa və konservasiya proseslərində isə müasir texnologiyalar eksponatların qorunmasını və bərpasını daha mükəmməl həyata keçirməyə imkan verir. 3D skanerlər və rəqəmsal analiz metodları müasir bərpaçılara eksponatları daha az müdaxilə ilə və yüksək dəqiqliklə bərpa etməyə kömək edir. Bəzi hallarda eksponatların fiziki vəziyyəti haqqında məlumatlar kompyuter modelləməsi vasitəsilə toplanır və ən uyğun bərpa metodları müəyyən edilir.

## 2.MUZEY FONDLARININ KOMPLEKTLƏŞDİRİLMƏSİ

Komplektləşdirmə muzey, kitabxana, arxiv və digər mədəni-tarixi institutların kolleksiyalarını məqsədyönlü şəkildə formalaşdırmaq prosesidir. Bu, müəyyən bir konsepsiyaya əsaslanaraq yeni materialların toplanması, seçilməsi və mövcud kolleksiyanın inkişaf etdirilməsini əhatə edir. Komplektləşdirmənin əsas məqsədi təsadüfi obyekt yığımının qarşısını almaq və kolleksiyanın dəyərini artırmaqdır.

Komplektləşdirmənin vacibliyi bir neçə əsas amillə bağlıdır. İlk növbədə, düzgün komplektləşdirmə iş proseslərini sürətləndirir, səhvləri və itkiləri minimuma endirir. Düzgün komplektləşdirmə sayəsində artıq və lazımsız xərclərin qarşısı alınır. Hər bir yeni obyekt yalnız fiziki əşya kimi deyil, onun tarixi, mədəni və elmi dəyəri nəzərə alınaraq kolleksiyaya daxil edilməlidir. Bu, gələcək nəsillər üçün mühüm tarixi və mədəni materialların qorunmasını təmin edir. Digər tərəfdən, komplektləşdirmə prosesində obyektlərin yalnız toplanması deyil, həm də onların sənədləşdirilməsi, konteksti və mənasının qeyd edilməsi vacibdir. Bir obyektin kolleksiyaya daxil edilməsi onun tarixi dəyərini qoruyub saxlamaq üçün kifayət deyil; onunla bağlı məlumatlar, keçmiş sahibləri, istifadə məqsədi və istehsal texnologiyası kimi detallar da sənədləşdirilməlidir. Bu, obyektin dəyərinin tam başa düşülməsinə və gələcəkdə araşdırmalara töhfə verməsinə kömək edir.

Bundan əlavə, komplektləşdirmə yalnız kolleksiyanın genişlənməsi deyil, onun keyfiyyətinin artırılması baxımından vacibdir. Kolleksiya zamanla məqsədəuyğun olaraq yenidən qiymətləndirilməli, dəyərini itirən və ya artıq aktual olmayan materiallar kolleksiyadan çıxarılmalıdır. Beləliklə, kolleksiya nizama salınır və daha dəyərli obyektlər üçün yer açılır. Nəticə etibarilə, komplektləşdirmə muzeyin və ya hər hansı bir müəssisənin missiyasını və fəaliyyət

istiqamətini müəyyən edən əsas strategiyalardan biridir. Düzgün və sistemli komplektləşdirmə olmadan muzey və ya arxivlər dəyərsiz material yığınına çevrilə bilər. Buna görə də, hər bir müəssisə öz komplektləşdirmə strategiyasını müəyyən etməli və gələcək nəsillər üçün mədəni-tarixi irsi sistemli şəkildə qorumağa çalışmalıdır.

Muzeylər müxtəlif obyektləri kolleksiyalar şəklində toplayır və saxlayır. Bu kolleksiyalar bir cəmiyyətin və ya qurumun tarix və mədəniyyətə baxışını əks etdirir. Hər muzey və ya müəssisə öz qaydalarına əsasən, hansı obyektlərin kolleksiyaya daxil edilib-edilməyəcəyinə qərar verir. Bir obyektin kolleksiyaya daxil edilməsi üçün onun təkcə fiziki görünüşü yox, həm də tarixi məlumatları çox önəmlidir. Bu məlumatlar obyektin kimə məxsus olduğu, necə hazırlandığı, hansı məqsədlə istifadə edildiyi və zamanla hansı dəyişikliklərə məruz qaldığını ehtiva edir. Kolleksiya mütləq böyümək və ya genişləndirilmək məcburiyyətində deyil. Əksinə, məqsəd, onun daha yaxşı və sistemli olmasıdır. Əgər muzeylər plansız şəkildə çox sayda əşyanı saxlayarlarsa, bu, onları nizamsız və faydasız bir saxlama yerinə çevirə bilər. Buna görə də, kolleksiya davamlı olaraq nəzərdən keçirilməli və lazımsız əşyalar ayırd edilməlidir. Muzeylər müəyyən dövr və cəmiyyət haqqında məlumat saxlamaq üçün obyektləri düzgün seçib toplamalıdır. Necə ki, arxivlər müəyyən sənədləri qoruyur, muzeylər də tarix və mədəniyyətin mühüm elementlərini

saxlamalıdır. Bunun üçün kolleksiyalar zaman-zaman yenidən qiymətləndirilməli, əhəmiyyətsiz və ya təkrarlanan əşyalar çıxarılmalıdır. Muzeylərin məkanı, işçi heyəti və maliyyə imkanları məhduddur. Ona görə də, muzey rəhbərləri kolleksiyaya daxil edilən hər bir obyekti diqqətlə seçməli və gələcək üçün dəyərini nəzərə almalıdırlar. Yüz il sonra belə cəmiyyətə faydalı olacaq materialların qorunması üçün ağıllı seçimlər edilməlidir. Gələcək nəsillər üçün bir obyektin niyə seçildiyini və onun hansı dəyərə malik olduğunu başa düşmək vacibdir. Buna görə də, muzeylər hər obyektin kolleksiyaya niyə daxil edildiyini və onu toplayanların hansı məqsədlə seçdiyini qeyd etməlidir. Beləliklə, muzeylərin məqsədi sadəcə obyektləri toplamaq deyil, onları düşünülmüş şəkildə seçmək, qorumaq və gələcək nəsillər üçün əhəmiyyətli olanları saxlamaqdır.

Muzey fondlarının komplektləşdirilməsi, mədəni və tarixi əhəmiyyət daşıyan obyektlərin toplanması, sistemləşdirilməsi və saxlanması üzrə həyata keçirilən fəaliyyətlər kompleksidir. Bu proses muzey kolleksiyalarının keyfiyyətini artırmaq və onların elmi, tədris və mədəni məqsədlər üçün istifadəsini təmin etmək məqsədini güdür. Muzey fondlarının komplektləşdirilməsi zamanı məqsədyönlülük , elmi əsaslandırma və hüquqi məsuliyyət kimi prinsiplərə əməl olunur. Komplektləşdirilmə zamanı məqsədyönlülük dedikdə, muzeyin fəaliyyət profili ilə uyğunluğu, həmçinin də

obyektlərin toplanmasının muzeyin tarixi, mədəni və elmi tələblərinə uyğun şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Hər bir obyektin muzey üçün əhəmiyyətinin və dəyərinin əvvəlcədən müəyyənləşdirilməsi, komplektləşdirmə zamanı arxeoloji, etnoqrafik, sənət, təbiət elmləri və digər sahələrə aid obyektlərin elmi ekspertizadan keçirilməsi onların elmi əsaslandırılmasını xarakterizə edir. Bundan başqa, muzey fonduna daxil edilən obyektlərin qanuni mənşəyi təsdiq edildikdən sonra, milli və beynəlxalq qanunlara uyğun olaraq əldə olunmuş obyektlərin muzey fonduna qəbul olunması təmin edilməlidir.

Muzey fondlarının komplektləşdirilməsinin 3 növü vardır: tematik,sistematik və kompleks.




Tematik komplektləşdirilmə muzey fondlarının müəyyən bir mövzu, konsept, dövr, region və ya spesifik bir elmi istiqamət üzrə planlı şəkildə zənginləşdirilməsini əhatə edir. Bu yanaşma muzeyin elmi, mədəni və tədris fəaliyyətinə uyğun olaraq, eksponatların sistemli şəkildə toplanmasını və təşkil edilməsini təmin edir. Məsələn:

Tarix muzeyində – Azərbaycan Xalq Cümhuriyyəti dövrü sənədləri və eksponatları;

Etnoqrafiya muzeyində – Azərbaycan kənd məişətinin XIX əsr nümunələri;

İncəsənət muzeyində – Azərbaycan realist rəssamlığının 1950–1980-ci illər dövrü əsərləri tematik komplektləşdirməyə nümunə ola bilər.

Tematik komplektləşdirmə muzeyin fəaliyyətinə xidmət edən məqsədlərə- mədəni irsin qorunmasına, tədqiqatlara dəstəyə və seçilmiş mövzu üzrə məlumatın cəmiyyətə təqdim edilməsinə nail olmağa yönəldilir. Tematik komplektləşdirilmənin əsas prinsiplərindən biri mövzunun seçimidir. Mövzular muzeyin ixtisasına və profilinə uyğun seçilir. Kolleksiyaların müəyyən mövzu və ya sahə əsasında seçimi dedikdə nəzərdə tutulan nüanslara tarixi dövrlər, mədəniyyətlər, sənət sahələri, arxeologiya, etnoqrafiya və ya elm və texnika kimi sahələr üzrə kolleksiyaların yaradılması; Müəyyən coğrafi bölgə və ya xalqın mədəni irsinin toplandığı kolleksiyalar (məsələn, Qafqaz xalqlarının etnoqrafik sərvətləri); Tematik sərgilər üçün əlaqəli eksponatların toplanması, məsələn, "Qədim keramika sənəti" mövzusu üçün müxtəlif dövrlərə aid nümunələrin seçilməsi daxildir. Seçim zamanı milli və ya regional tarix üçün əhəmiyyət daşıyan mövzular əsas götürülür. Eyni zamanda beynəlxalq əhəmiyyətli mövzular da diqqətə alınır. Qeyd olunmalıdır ki, toplanan materiallar

bir-birilə əlaqəli olmalı və müəyyən elmi məntiqə əsaslanmalıdır və eksponatlar elmi ekspertiza yolu ilə qiymətləndirilməlidir. Tematik komplektləşdirmə, həmçinin bir mövzu ətrafında fərqli növ əşyaların, məsələn, sənət əsərləri, sənətkarlıq nümunələri, etnoqrafik əşyalar və ya müharibə zamanı istifadə olunan əşyaların toplanmasını əhatə edə bilər. Bunun üçün komplektləşdirmə prosesi strateji şəkildə planlaşdırılmalı və muzeyin uzunmüddətli inkişaf hədəflərinə uyğun olmalıdır.

Tematik komplektləşdirmə zamanı müəyyən çətinliklər də meydana çıxa bilər: Maliyyə resurslarının məhdudluğu; Nadir eksponatların əldə olunmasında çətinliklər; Saxta materialların aşkar edilməsi üçün texniki və elmi resursların çatışmazlığı və s. Bu halların minimuma endirilməsi üçün muzey əməkdaşları vaxtaşırı kompleks tədbirlər təşkil edib həyata keçirməlidirlər.

Tematik və ya sistematik materiallar arxeoloji qazıntılar, bağışlanmış əşyalar və ya hədiyyələr, mübadilə və əməkdaşlıq, tarixi arxivlər kimi müxtəlif mənbələrdən toplana bilər. Fərdi şəxslər, kolleksiyaçılar və təşkilatlar tərəfindən təqdim olunan materiallar əsasən hədiyyə kimi qəbul edilib komplektləşdirilir və sonra lazımi normativ sənədlər əsasında aktlaşdırılaraq muzeyin balansında saxlanılır.

Komplektləşdirmənin ikinci növü olan sistemli komplektləşdirmə mütəmadi olaraq muzey kolleksiyalarını eyni tipli muzey əşyaları ilə doldurmaqla izah oluna bilər, başqa sözlə, sistemli kolleksiyaların formalaşdırılmasına və artırılmasına yönəlib. Sistematik komplektləşdirmə muzey kolleksiyalarının elmi əsaslarla, planlı şəkildə və məqsədli olaraq genişləndirilməsi prosesidir. Bu komplektləşdirmə növü, obyektlərin müəyyən bir elmi və ya texnoloji sistem əsasında təşkil edilməsini nəzərdə tutur. Sistemi təşkil edən əsas meyarlar arasında əşyaların növü (məsələn, bədii əsərlər, məişət əşyaları, silahlar, paltarlar) və ya istifadə olunan materiallar (taxta, metal, daş, keramika və s.) ola bilər. Sistemli formalaşdırma proseduru dedikdə, muzeydəki mövcud kolleksiyaların təhlil edilməsi və boşluqların müəyyən edilməsi, eksponatların tarixi dəyər, mənşə və vəziyyət baxımından sistemli şəkildə seçilməsi, toplanmış eksponatların müəyyən kriteriyalara (dövrlər, üslublar, materiallar və funksiyalar) əsaslanaraq təsnif edilməsi və inventarizasiyası, zamanla kolleksiyaların yenilənməsi və zənginləşdirilməsi üçün strategiyalar nəzərdə tutulur. Sistemi təşkil edən əsas meyarlar arasında əşyaların növü (məsələn, bədii əsərlər, məişət əşyaları, silahlar, paltarlar) və ya istifadə olunan materiallar (taxta, metal, daş, keramika və s.) ola bilər. Başqa sözlə desək, sistematik komplektləşdirmə eksponatların elmi təsnifata uyğun şəkildə toplanması ilə xarakterizə olunur. Məsələn,

tarix, arxeologiya, etnoqrafiya və ya digər elmi sahələr üzrə materiallar qruplaşdırılır; muzey kolleksiyaları müəyyən bir dövrə, regiona və ya mədəniyyətə uyğun sistemləşdirilir; hər bir obyekt elmi baxımdan dəyərləndirilir və sənədləşdirilir. Bu komplektləşdirmə muzey fondlarının elmi dəyərini artırır.

Sistemli və tematik komplektləşdirməni isə əsasən kiçik muzeylərdə geniş rast gəlinən kompleks komplektləşdirmə birləşdirir. Kompleks komplektləşdirmə müxtəlif sahələrə aid eksponatların bir arada toplanmasını və hərtərəfli yanaşmanı əhatə edir. Bu komplektləşdirmə növü müxtəlif tip və mənşəli eksponatların bir-birini tamamlayacaq şəkildə toplanması və əlaqələndirilməsini nəzərdə tutur. Tarix, arxeologiya, incəsənət, təbiət və texnologiya sahələrini əhatə edən eksponatların vahid kontekstdə təqdim edilməsi; Əşyalarla yanaşı, rəqəmsal resurslardan (holoqramlar, multimedia proqramları) istifadə edərək sərgilərin daha geniş auditoriya üçün cəlbedici hala gətirilməsi; Toplanmış eksponatların cəmiyyətin müxtəlif təbəqələrinin maraqlarını və ehtiyaclarını qarşılaması kompleks komplektləşdirmə zamanı tətbiq olunur. Bu kompleks yanaşma sərgilərin interdisiplinar xarakterini gücləndirir, bir çox elm sahələrinin birlikdə tədqiqatları üçün zəmin yaradır və müxtəlif sahələr üzrə məlumatların inteqrasiyasını təmin edir. Bu, daha çox arxeologiya, tarix, etnoqrafiya və mədəniyyətşünaslıq kimi sahələrdə istifadə

olunur. Kompleks komplektləşdirmədə muzey sərgiləri daha çox dərinlik və müxtəliflik əldə edir, tədqiqatçılar geniş və əhatəli məlumat bazası ilə təmin olunurlar. Kompleks komplektləşdirmənin əsas xüsusiyyətlərindən biri hadisə və ya mövzunun müxtəlif tərəflərini işıqlandıraraq tam mənzərə yaratmasıdır. Muzey fondlarının komplektləşdirilməsinin tematik, sistematik və kompleks növləri muzeylərin ixtisaslaşmasına, kolleksiyalarının inkişafına və maarifləndirici funksiyalarının yerinə yetirilməsinə xidmət edir. Bu yanaşmaların hər biri muzeylərin məqsədlərindən və prioritetlərindən asılı olaraq seçilə bilər.

## 3.ƏSAS VƏ ELMİ-KÖMƏKÇİ FONDLAR. FONDLARIN TƏRKİBİ

Muzey fondları muzeylərin kolleksiya idarəetməsi və sərgilərinin təşkilində əsas rol oynayır. Onlar əsas fondlar və elmi-köməkçi fondlar olmaqla iki əsas kateqoriyaya bölünür. Hər iki fond muzey kolleksiyasının strukturunun və fəaliyyətinin təşkilində mühüm əhəmiyyət daşıyır. Təbiyyat tarixi muzeylərində bunlardan əlavə “Xammal materialları” fondu da olur. Digər tərəfdən, vurğulamaq lazımdır ki, əsas fonddan mübadilə fondu ayrıla bilər. Lakin istisna deyil ki, bəzi hallarda elmi-köməkçi fonddan da mubadilə fondu ayrıla bilər.

**Əsas fondlar** muzeyin əsas kolleksiyalarını, yəni tarixi, mədəni və elmi baxımdan böyük dəyərə malik olan eksponatları əhatə edir. Bu fondlar muzeyin elmi, mədəni və maarifçilik missiyasının təməlini təşkil edir. Adətən əsas fondların obyektləri unikal və bənzərsiz olurlar və eksponatlar uzunmüddətli mühafizə və sərgiləmə üçün nəzərdə tutulur. Əsas fondlar muzeyin kolleksiya siyasətinin mərkəzində dayanır. Bu fondlar muzeyin statusunun və elmi dəyərinin müəyyənləşdirilməsində əsas göstəricidir. Muzeylərdə əsas fondlar adətən incəsənət əsərləri, qədim artefaktlar, nadir kitablar, tarixi geyimlər və sənədlər kimi əşyaları əhatə edir.

Əsas fondların tərkibinə arxeoloji materiallar (tarixi dövrlərə aid əşyalar), etnoqrafik əşyalar (mədəniyyətə aid obyektlər), sənət əsərləri (rəsm, heykəl, dekorativ sənət nümunələri) və tarixi sənədlər və materiallar (mətnlər, xəritələr, fotoşəkillər) daxildir. Yerləşmə profillərinə uyğun olaraq əsas fondun tərkibinə daxil olan muzey əşyaları fərqli ola bilir. Belə ki, *təbiyyat tarixi muzeylərində* təbiətin və təbiətşünaslığın inkişaf xronologiyasını əks etdirən muzey obyektləri sərgilənir. Bu obyektlərə canlı və cansız təbiətin nadir obyektləri, o cümlədən, heyvan və bitkilərin nadir növlərini, qeyri-adi formalı kristalları, meteoritləri, görkəmli təbiətşünasların elmi və xatirə əhəmiyyətli kolleksiyalarını, təbiyyat elmləri tarixini əks etdirən yazılı, təsviri, maddi abidələri  və s. göstərmək olar. Xəritələr, fotoşəkillər və

təsviri sənət əsərləri kimi təbii şəraiti xarakterizə edən orijinal təsvir materialları, həmçinin muzey tərəfindən öyrənilmiş torpaq sahəsinin təbii şəraitini elmi dəqiqliklə əks etdirən və elmi-orijinallıq cəhətdən işlənib hazırlanmış materiallara əsaslanan bioloji qruplar, elmi taksidermiya nümunələri də təbiyyat tarixi profilli şöbələrdə və ya muzeylərdə yer alır. *Tarix profilli muzeylər* insan cəmiyyətinin inkişafını əks etdirən əşyaların toplanması, mühafizəsi və nümayişi ilə məşğul olan xüsusi müəssisələrdir. Bu profilli şöbələrə aid olan muzey əşyalarından bəzilərini misal çəkmək olar: Maddi abidələrdən - qədim yaşayış məskənlərindən, qəbiristanlıqlardan və digər arxeoloji sahələrdən tapılmış materialları, daş, metal, gil, sümük və digər materiallardan hazırlanmış əmək alətlərini, məişət əşyalarını, silahları və bəzək əşyalarını, təsadüfən tapılmış əşyaları; müxtəlif dövrlərin iqtisadiyyatını, ictimai münasibətlərini, daxili və xarici siyasətini və mədəniyyətini xarakterizə edən əmək alətlərini, məhsul nümunələrini (taxıl, qablar və s.) , silahlar və hərbi atributları (qılınc, nizə, qalxan, bayraqlar) , o dövrlərin gündəlik həyatını əks etdirən qab-qacaq, geyim və bəzək əşyalarını , sənətkarların hazırladığı xalq yaradıcılığı nümunələrini, görkəmli şəxsiyyətlərlə bağlı şəxsi əşyaları; numizmatika (sikkələr, ticarət medalları və digər pul formaları), bonistika (kağız pullar), sfragistika (tarixi möhürlər və onların təsvirləri) , heraldika (şəxsi və ya dövlət

nişanları, gerblər və bayraqlar) nümunələrini və ordenləri (tarixi şəxslərin mükafatları və dövlət təltifləri) qeyd etmək olar. Tarix profilli muzeylərdə yer alan təsviri abidələr isə, xüsusilə tarixi dövrlər, mədəniyyətlər və sosial inkişafları əks etdirən sənət əsərləri, fotoqrafik materiallar və digər vizual sənət nümunələrindən ibarət olur. Bu abidələr muzeylərin zəngin kolleksiyalarının ayrılmaz hissəsidir və onların təhlili, keçmiş cəmiyyətlərin həyatını, təfəkkürünü və irsini anlamağa imkan verir. Memorial və bədii əhəmiyyətli təsviri və dekorativ-tətbiqi sənət əsərlərinə boyakarlıq nümunələrini aid etmək olar. Tarix profilli muzeylərdə boyakarlıq əsərləri, müəyyən dövrlərin incəsənət üslublarını, məsələn, rəssamların çəkdiyi müharibə mənzərələri, dövrün əlamətdar şəxsiyyətləri və mühüm hadisələri, həmçinin sosial və mədəni həyatın müxtəlif aspektlərini əks etdirir. Bundan başqa heykəltəraşlıq nümunələrini, qrafika və plakatları misal çəkmək olar. Heykəltəraşlıq tarixi şəxsiyyətlərin, qədim mədəniyyətlərin, müharibələrin və əhəmiyyətli sosial hadisələrin təsvirini üç ölçüdə göstərir. Muzeylərdə bu növ əsərlər, xüsusilə xatirə və memorial məqsədlər üçün hazırlanan heykəllər olaraq geniş yayılır. Heykəltəraşlıq, həmçinin mədəniyyətlərarası əlaqələri, dövrün sosial strukturlarını və insanlıq tarixini nümayiş etdirir. Qrafika isə cizgi və çap texnikalarını əhatə edən sənət növüdür. Bu sənət növü, xüsusilə müasir dövrdə müxtəlif sosial

hadisələrin, siyasi fəaliyyətlərin və ictimai müzakirələrin təsvirində istifadə olunur. Tarix profilli muzeylərdə, məsələn, dövrün sosial, mədəni və siyasi mühiti haqqında məlumat verən plakatlar, posterlər və illüstrasiyalar da nümayiş olunur. Muzey kolleksiyalarında, həmçinin xalçalar, zərgərlik, keramika və digər dekorativ sənət nümunələri də yer alır. Bu əsərlər keçmiş cəmiyyətlərin gündəlik həyatını və mədəniyyətini əks etdirir. Müxtəlif dövrlərdən olan tətbiqi sənət nümunələri həm də tarixi funksiyaları, istehsalatı və mədəni əlaqələri izah etməyə kömək edir. Dagerrotiplər və naturadan çəkilmiş neqativlər və pozitivlər memorial və bədii əhəmiyyətli fotoqrafik materiallara aid edilir. Dagerrotiplər XIX əsrdə ixtira edilmiş ilk fotoqrafiya texnologiyasının bir növüdür. Bu şəkillər dövrün həyatını, müharibə hadisələrini, tarixi şəxsiyyətləri və mühüm ictimai təsvirləri sənədləşdirir. Tarix profilli muzeylərdə bu növ şəkillər keçmişin vizual izlərini təqdim edir. Naturadan çəkilmiş fotoşəkillər tarix boyu çəkilən görüntülərdən biri olaraq, dövrün sosial və mədəni həyatını təsvir edir. Muzeylərdə bu şəkillər, xüsusilə tarixi hadisələri, əhəmiyyətli şəxsiyyətləri, gündəlik həyatı və ictimai mühitləri təhlil etməyə kömək edir. Tarix profilli muzeylərdə xəritələr və atlaslar dövrün ərazi sərhədlərini, müharibə zonasını, coğrafi kəşfləri və ticarət yollarını təsvir edir. Müxtəlif coğrafi bölgələrə aid xəritələr, həmçinin dövrün sosial və siyasi strukturlarını göstərir. Qlobuslar və

şəhər planları isə tədqiq edilən dövrün coğrafiyasını və urbanizasiya proseslərini əks etdirir. Bu materiallar, xüsusilə şəhərsalma və infrastruktur inkişafını izah etmək üçün mühüm əhəmiyyət daşıyır. Tarixi hadisələrlə bağlı şəhər planları, tikililərin və sosial məkanın necə inkişaf etdiyini göstərir. Digər tərəfdən, çertyojlar da dövrün mühəndislik nailiyyətlərini, tarixi tikililəri və infrastrukturu izah edən mühüm sənəd materiallarıdır. Bunlar, həmçinin bir çox mühüm abidənin tikinti mərhələlərini nümayiş etdirir. Tarix profilli muzeylərdə yer alan yazılı abidələrə aid olan əlyazmalar və çap sənədləri keçmiş dövrlərin sosial, siyasi, mədəni və iqtisadi mühitlərini birbaşa əks etdirən dəyərli mənbələrdir. Əlyazmalara müqavilələr, fərmanlar, məktublar, sülh müqavilələri, qanun kodeksləri, şeir, dastan, povest və digər bədii əsərlər, astronomiya, tibb, riyaziyyat, coğrafiya və digər sahələrdə yazılmış traktatlar, müqəddəs kitablar, dua kitabları və dini maarifləndirici ədəbiyyatlar aiddir. Çap sənədləri, xüsusilə XV əsrdən sonra mətbəənin yaranması ilə geniş yayılmağa başlamışdır. Kitablar, qəzet və jurnal nəşrləri, protokollar və hesabatlar, xəritə və kataloqlar bu sənədlərə aid edilir. Tarix profilli muzeylərdə yer alan kinomateriallara sənədli və bədii filmləri, fonoyazılara isə memorial və bədii əhəmiyyətli nitq və musiqi yazılarını aid etmək olar. *Ədəbiyyat, teatr və musiqi profilli muzeylərdə* sərgilənən əşyalar müvafiq sahələrin tarixi, inkişaf mərhələləri və dəyərli şəxsiyyətlərinin irsini əks

etdirir. Yazıçılar, şairlər və ədəbiyyat xadimlərinin şəxsi əşyaları, ədəbiyyat xadimlərinin xatirə əşyaları (şəxsi məktublar, gündəliklər, qələm, mücrü və s.), ilk nəşrlər, müəllifin imzası olan çap məhsulları, nadir kitablar və mükafatlar (məsələn, diplomlar, medallar), ədəbiyyat hadisələrinə dair fotoşəkillər və sənədlər, yaşadığı dövrü xarakterizə edən təsviri sənət əsərləri, teatr tamaşalarının afişaları, proqramlar və broşürlər, rejissorların və aktyorların şəxsi əşyaları, tamaşalarda istifadə olunmuş dekorasiya və kostyum nümunələri, ssenarilər, rejissor qeydləri və tamaşa eskizləri, fotoşəkillər və video yazılar, nadir musiqi alətləri, əlyazma partituralar, notlar və musiqi albomları, ifaçıların və bəstəkarların həyat və yaradıcılığını əks etdirən fotoşəkillər və sənədlər bu profilli muzeylərdə sərgilənir. Bundan əlavə, xüsusi dəyər kəsb edən muzey əşyalarından böyük şəxsiyyətlərin yaşadığı və ya yaratdığı mühitdən qalan əşyalar (məsələn, işlədiyi masa, oturduğu kreslo və ya istifadə etdiyi musiqi aləti), köhnə audio yazılar və s. bu tip muzey əşyalarına aid edilir. *Texnika muzeylərində* yer alan muzey əşyaları insanlığın texnoloji irəliləyişlərini nümayiş etdirir, müxtəlif dövrlərə aid texniki nailiyyətləri, sənaye və mühəndislik yeniliklərini əks etdirir. Bu profilli muzeylərdə, şöbələrdə, yaxud sərgi zallarında sərgilənən muzey əşyalarına tarixi mexanizmlər və maşınlar, ilk sənaye inqilabı dövründən qalan dəzgahlar, elmi-texniki avadanlıqlar (mikroskoplar, teleskoplar, ölçmə cihazları, ilk

generatorlar, transformatorlar), müxtəlif dövrlərə aid silahlar və hərbi texnika nümunələri (toplar, tanklar, aviasiya modelləri, radarlar, radio rabitə avadanlıqları), ilk kompüterlər, elektron cihazlar, kosmos tədqiqatlarında istifadə olunan raketlər, peyk modelləri, astronavt avadanlıqları, sənaye və nəqliyyat texnologiyaları, (ilk təyyarələr, yerin ilk kosmik kəşflərini əks etdirən texniki vasitələr, tarixi enerji mənbələri (kömürdən istifadə edən buxar mühərrikləri, günəş panellərinin ilkin modelləri) aid edilir. Belə muzeylər ziyarətçilərdə elmə və texnologiyaya maraq oyadır. Bu muzeylər cəmiyyəti keçmiş texnologiyaları anlamağa və gələcəkdə daha böyük nailiyyətlərə ilhamlanmağa sövq edir. *Xatirə (memorial) muzeylərində* yer alan muzey əşyaları da günümüzdə çox maraqla qarşılanır. Memorial şəxsə və ya hadisəyə aid şəxsi əşyalar (paltarlar, saatlar, zərgərlik məmulatları), tarixi hadisəyə aid obyektlər və materiallar (dövrə aid alətlər, silahlar, istifadə edilmiş mebel), memorial şəxsin iş masası, yazı alətləri, şəxs və ya hadisə ilə bağlı təsviri sənət əsərləri (portretlər, heykəllər, şəkillər), memorial şəxs tərəfindən yazılmış əlyazmalar, məktublar, şəxsi qeydlər, gündəliklər, Memorial şəxs və ya hadisə ilə bağlı səs yazıları və sənədli filmlər xatirə muzeylərində sərgilənərək ziyarətçilərə həmin dövrün ruhunu hiss etdirmək imkanı verir. *Bədii muzeylər* hər bir muzeyin profilinə uyğun olaraq geniş spektrdə sənət nümunələri və tarixi kolleksiyaları nümayiş etdirir. Bədii

muzeylərdə sərgilənən əşyalara təsviri sənət əsərləri, dekorativ-tətbiqi sənət əsərləri, monumental sənət nümunələri, arxeologiya kolleksiyaları, numizmatika kolleksiyaları, tarixi sənət kolleksiyaları daxildir. Bədii muzeylərdə sərgilənən əşyalar yüksək bədii dəyəri ilə seçilir və estetik təcrübə yaşadır.

Muzeylərin təsnifat və idarəetmə sistemində mühüm rol oynayan bir mexanizm kimi əsas fonddan ayrılan **mübadilə fondunu** qeyd etmək olar. Bu fond muzeyin fəaliyyətini optimallaşdırmaq, resurslardan daha səmərəli istifadə etmək və mədəni irsin daha geniş auditoriyaya çatdırılmasını təmin etmək məqsədini güdür və muzeyin kolleksiyasının genişlənərək elmi, mədəni mübadilə proseslərinə inteqrasiya olunması baxımından əvəzolunmaz rol oynayır. Mübadilə fondu, muzeyin öz əsas fondunu qorumaqla yanaşı, digər mədəniyyət müəssisələri və elmi tədqiqatlar üçün əşyaların mübadiləsi və istifadəsi imkanlarını təmin edən xüsusi bir fond kateqoriyasıdır. Muzeyin əsas fəaliyyət sahəsinə və profilinə uyğun gəlməyən əşyalar, 5-dən artıq təkrar nüsxələrdən ibarət olan nümunələri təşkil edən muzey əşyaları mübadilə fondunda yer alır. Bu zaman təkrar nüsxələr əvvəlcədən müvafiq qaydada müəyyən edilir və ayrılır. Mübadilə fondu vasitəsilə muzeylər daha az əhəmiyyət kəsb edən və ya müvəqqəti sərgilənməyə uyğun olan obyektləri əsl fonddan müvəqqəti çıxara bilər. Bu, əsas kolleksiyanın qorunmasına

şərait yaradır və əşyaların zədələnməsini minimuma endirir. Mübadilə fondundakı muzey əşyaları Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin icazəsi ilə idarə olunur. Fondun idarə olunması zamanı şəffaflıq, qanunvericiliyə riayət və mədəni irsin qorunması prinsipləri əsas götürülür.

Muzeylərdə **elmi-köməkçi fond**, əsas fondla birlikdə muzey fəaliyyətinin ayrılmaz bir hissəsini təşkil edir. Bu fond muzey kolleksiyalarının araşdırılması, təsnif edilməsi və nümayiş etdirilməsi üçün vacib olan yardımçı materiallardan ibarətdir. Elmi-köməkçi fondlar muzey əşyalarının və əsərlərinin tarixçəsinin, mənşəyinin və vəziyyətinin sənədləşdirilməsi üçün məlumat bazası kimi fəaliyyət göstərir. Bu məlumatlar muzeyin müxtəlif elmi şöbələri tərəfindən toplanır, təhlil edilir və sərgilənən əsərlərlə əlaqələndirilir. Muzey kolleksiyalarının sənədləşdirilməsi və təqdimatı üçün müxtəlif fotoşəkillər, muzey əşyalarının tədqiqi prosesində əldə edilən və ya hazırlanan şəkillər, fotosurətlər, əsli ilə eyni ölçüdə və ya miqyaslı surətlər (kopyalar), orijinal materialın qorunması məqsədilə hazırlanan əvəzedicilər, modellər və maketlər, arxeoloji tapıntıların və digər materialların formalarını əks etdirən qəliblər, tarixi obyektlərin və ya hadisələrin yenidən təsvir edilməsi üçün yaradılan təsvirlər, eskizlər və digər yenidənqurma işləri, tarixi hadisələrin baş verdiyi coğrafi məkanların xəritələri, arxeoloji qazıntı yerlərinin, memarlıq

abidələrinin və digər sahələrin planları, diaqramlar, qrafiklər, muzey əşyalarının tədqiqi nəticəsində əldə edilən məlumatların vizual təsviri və digər bu tip kateqoriyalara aid edilən əşyalar elmi-köməkçi fonda daxildir. Elmi-köməkçi fond muzeylərin elmi, mədəni və maarifləndirici fəaliyyətlərini dəstəkləyən əsas vasitələrdən biridir. Bu fondun düzgün təşkil və idarə olunması muzeylərin funksionallığını artırır və onların tədqiqat, təhsil və nümayiş sahələrində daha uğurlu olmasına imkan yaradır. Elmi-köməkçi fond yalnız muzey fəaliyyətini dəstəkləmək üçün hazırlanmış surətlər, modellər və digər texniki materialları deyil, həm də müəyyən xarakteristikaya malik olan təbiət obyektlərini də əhatə edir. Bu obyektlər muzeyin təbiət tarixi, kənd təsərrüfatı və ekoloji mövzular üzrə fəaliyyəti üçün vacib hesab olunur. Kənd təsərrüfatı muzeylərində və ya təbiət tarixinə aid ekspozisiyalarda istifadə olunan, lakin saxlanma müddəti məhdud olan bitki materialları (meyvə, tərəvəz, çiçəklər və toxumlar) da bu kateqoriyaya daxildir. Həmçinin xarab olmağa meyilli materiallar qısa müddət ərzində keyfiyyətini itirə bilir və mütəmadi olaraq dəyişdirilməsi zəruri hesab olunur. Buna misal olaraq, bəzi təbiət obyektlərinin orijinal nümunələri (balıq, həşərat və ya heyvan nümunələri) göstərilə bilər. Bu obyektlər də həmçinin elmi-köməkçi fonda daxil edilən kateqoriyalar sırasında yer alır. Lakin belə obyektlərin elmi-köməkçi fondun tərkibinə daxil edilməsinin əhəmiyyəti olaraq qeyd

etmək lazımdır ki, bu növ materiallar muzey ekspozisiyalarına dinamiklik və müxtəliflik qatır, həmçinin ziyarətçilərə təbiət və kənd təsərrüfatı mövzusunda daha əyani məlumatlar təqdim edir. Xüsusilə təhsil proqramları üçün də bu materiallar mühüm əhəmiyyət daşıyır, çünki təbiət fenomenlərini vizual və praktiki şəkildə izah etməyə imkan yaradır.

Bəzi məqamlarda elmi-köməkçi fonda daxil olan materialların xüsusi əhəmiyyəti nəzərə alınaraq, onların muzeyin əsas fonduna keçirilməsi mümkün ola bilər. Bu, xüsusilə nadir, itirilmiş və ya bərpa edilməsi mümkün olmayan muzey əşyalarının dəqiq surətləri üçün tətbiq edilir.

**"Xammal" elmi materialları fondu** muzeylərin tədqiqat və hazırlıq işlərində mühüm rol oynayan xüsusi kateqoriyadır. Bu fonda muzeylərin elmi fəaliyyətləri üçün vacib olan, hələ konservasiya və bərpa olunmamış, ilkin vəziyyətdə olan maddi-mədəniyyət nümunələri, həmçinin müvafiq tədqiqatlar aparılmaq üçün istifadə edilən xammallar toplanır. Bu cür materiallar muzeylərin gələcək sərgiləri, araşdırma layihələri və elmi tədqiqatlarının əsasını təşkil edir. Belə materiallar müxtəlif sahələrdə – təbiət elmləri, arxeologiya, antropologiya, tarix və digər elmi istiqamətlərdə fundamental tədqiqatların aparılması üçün ilkin mənbə rolunu oynayır. Məsələn, arxeoloji qazıntılardan tapılmış ilkin xammal nümunələri (daş, sümük, gil və digər

təbii materiallar) tarixən insan cəmiyyətlərinin texnoloji inkişafını, sənətkarlıq bacarıqlarını və gündəlik həyat tərzini anlamağa imkan verir. Bu fonda, həmçinin, əsasən təbiət obyektləri aid edilir və onlar laboratoriya tədqiqatları, preparatlaşdırma və digər elmi məqsədlər üçün istifadə olunur. Bu fonda daxil edilən materiallar sırasına qeyri-üzvi təbiət obyektlərindən mineralları, daş nümunələrini, geoloji və paleontoloji tapıntıları misal çəkmək olar. Fondun tərkibinə daxil edilən üzvi təbiət obyektləri kimi heyvan dəriləri və skeletlərini, bitki nümunələrini və həşərat kolleksiyalarını göstərmək olar. Eyni zamanda ekspedisiyalardan toplanmış materiallar və uzunmüddətli mühafizə üçün hazırlanmış materiallar da bu fondun tərkibinə daxildir.

## 4.AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNDƏ MUZEYLƏRİN UÇOTU VƏ MÜHAFİZƏSİ QAYDALARI

Azərbaycan Respublikasında muzeylərin fəaliyyəti, onların uçotu və mühafizəsi ilə bağlı qaydalar milli qanunvericilik aktları, normativ-hüquqi sənədlər və beynəlxalq standartlara uyğun olaraq tənzimlənir. Bu qaydalar muzeylərin mədəni irsi qorumaq, sistemləşdirmək, tədqiq etmək və ictimaiyyətə çatdırmaq funksiyalarını təmin edir. Muzeylərin uçotu və mühafizəsi haqda əsas qanunvericilik sənədlərinə Azərbaycan Respublikasının Konstitusiyası, "Mədəniyyət haqqında" Azərbaycan

Respublikasının Qanunu, "Milli Muzey Fondu haqqında" Qanun və digər normativ aktlar və qərarlar daxildir. Azərbaycan Respublikasının Konstitusiyasında deyilir: "Mədəni irsin qorunması və inkişafı dövlətin prioritet istiqamətləri kimi müəyyən edilmişdir". "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu muzeylərin təşkili, fəaliyyət prinsipləri, hüquqları və öhdəlikləri, eləcə də muzey əşyalarının mühafizəsi üzrə tələbləri müəyyən edir. "Milli Muzey Fondu haqqında" Qanun muzey əşyalarının və kolleksiyalarının dövlət mülkiyyətinə aidiyyatı, onların mühafizəsi və uçotunun aparılması qaydalarını tənzimləyir. Muzeylərin hüquqi statusu, maliyyələşməsi, inventarizasiyası və idarəetməsi ilə bağlı tələbləri əks etdirən sənədlər isə digər normativ aktlar və qərarlarda öz əksini tapır. Bu qaydalar muzeylərin milli və beynəlxalq səviyyədə səmərəli fəaliyyətini təmin etməklə yanaşı, Azərbaycanın mədəni irsinin qorunmasına da xidmət edir. Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu Azərbaycanda olan bütün muzeylərin fəaliyyət və istiqamətlərinin hüquqi, iqtisadi və təşkilati əsaslarla bağlı olan münasibətlərini tənzimləyir. Qanun "Ümumi müddəalar", "Muzeylər və muzey fəaliyyəti", "Muzey fondları, onların uçotu və mühafizəsi", "Dövlət muzeylərinin maliyyələşdirilməsi və dövlət muzeyləri işçilərinin sosial müdafiəsi" və "Yekun müddəalar" daxil olmaqla, ümumilikdə beş fəsildən

ibarətdir. Birinci fəsildə 3 maddə (1-3 maddələr), ikinci fəsildə 11 maddə (4-14 maddələr), üçüncü fəsildə 9 maddə (15-23 maddələr), dördüncü fəsildə 3 maddə (24-26 maddələr) və sonuncu-beşinci fəsildə 2 maddə (27-28 maddələr) olaraq cəmi 28 maddə var.

1-ci maddədə yer alan əsas anlayışlara muzey, muzey fondu , dövlət muzey fondu, mədəniyyət sərvətləri, muzey əşyası, muzey kolleksiyası, muzey fəaliyyəti, muzey əşyalarının və kolleksiyalarının mühafizəsi, muzey saxlancları anlayışları daxildir. Bu maddə muzey fəaliyyəti və mədəni irsin qorunması ilə bağlı dəqiq hüquqi çərçivəni müəyyənləşdirir. Maddədəki anlayışlar gələcəkdə muzey işinin digər aspektlərini tənzimləyən bölmələr üçün də əsasdır. Bu maddə muzey fəaliyyəti və mədəni irsin qorunması ilə bağlı dəqiq hüquqi çərçivəni müəyyənləşdirir. Burada yer alan əsas anlayışlar muzey işinin təşkilati, hüquqi və inzibati əsaslarını tənzimləyən digər maddələr üçün də baza rolunu oynayır. Maddədə qeyd olunan terminlərin geniş izahı aşağıdakı kimidir:

❖ Muzey – mədəni və tarixi əhəmiyyət daşıyan maddi və qeyri-maddi sərvətlərin toplanması, öyrənilməsi, qorunması və nümayiş etdirilməsi məqsədilə yaradılan elmi, mədəni və maarifçilik müəssisəsidir. Muzeylər bəşəriyyətin tarixi, incəsənəti, etnoqrafiyası, təbiəti və

digər sahələrə aid dəyərli eksponatları ictimaiyyətə təqdim edir.

- ❖ Muzey fondu – Muzeylərdə saxlanılan və dövlət mülkiyyətinə və ya digər hüquqi şəxslərin, təşkilatların və şəxslərin kolleksiyalarına daxil olan eksponatların məcmusudur. Muzey fondu bir neçə kateqoriyadan ibarət ola bilər, məsələn, əsas fond və köməkçi fond.

- ❖ Dövlət Muzey Fondu – Milli əhəmiyyət kəsb edən mədəni irs nümunələrinin qorunduğu fond sistemidir. Dövlət muzey fonduna daxil olan eksponatlar xüsusi hüquqi rejimlə qorunur və onların mühafizəsi, istifadəsi və bərpası dövlətin nəzarəti altındadır.

- ❖ Mədəniyyət sərvətləri – Tarixi, bədii, elmi və mədəni dəyəri olan hər cür maddi və qeyri-maddi obyektlər bu anlayışa daxildir. Mədəniyyət sərvətləri muzeylərdə, arxivlərdə, kitabxanalarda və digər mədəniyyət müəssisələrində saxlanılır. Onlar milli və beynəlxalq səviyyədə qorunan dəyərlər hesab edilir.

- ❖ Muzey əşyası – Muzey kolleksiyalarının əsasını təşkil edən, elmi, tarixi, bədii və mədəni əhəmiyyətə malik olan maddi obyektlərdir. Bunlar tək-tək və ya kolleksiya şəklində muzeylərdə saxlanılaraq tədqiqat və nümayiş məqsədilə istifadə olunur.

- ❖ Muzey kolleksiyası – Ümumi mövzu, tarixi dövr, mədəni və elmi əhəmiyyət baxımından bir-biri ilə əlaqəli muzey əşyalarının məcmusudur. Kolleksiyalar xüsusi konsepsiya əsasında formalaşdırılır və müvafiq qaydada saxlanılır.

- ❖ Muzey fəaliyyəti – Muzeylərin elmi-tədqiqat, toplanma, qoruma, bərpa, ekspozisiya, maarifləndirmə və digər istiqamətlərdə həyata keçirdiyi tədbirlərin məcmusudur. Muzey fəaliyyəti həm dövlət, həm də qeyri-dövlət muzeylərinin əsas funksiyalarını əhatə edir.

- ❖ Muzey əşyalarının və kolleksiyalarının mühafizəsi – Muzey eksponatlarının fiziki, kimyəvi və bioloji amillərdən qorunması üçün həyata keçirilən tədbirləri əhatə edir. Bu, xüsusi şəraitin yaradılması, iqlim nəzarəti, konservasiya və bərpa işlərini özündə birləşdirir.

- ❖ Muzey saxlancları – Muzey əşyalarının və kolleksiyalarının qorunduğu xüsusi fondlardır. Bu saxlanclar iqlim və təhlükəsizlik tələblərinə uyğun şəkildə təşkil edilir və eksponatların uzunmüddətli mühafizəsinə xidmət edir.

Bu anlayışlar muzey fəaliyyətinin bütün aspektlərini tənzimləyən qanunvericiliyin əsasını təşkil edir və muzeylərin idarə olunması, onların fondunda saxlanılan

mədəni sərvətlərin qorunması və istifadə qaydalarını müəyyənləşdirir.

2-ci maddə muzey fəaliyyəti sahəsində dövlət siyasətinin əsas prinsiplərini və dövlətin üzərinə düşən vəzifələri müəyyən edir. Burada vurğulanan prinsiplər və vəzifələr mədəni irsin qorunması və inkişafı üçün dövlətin məsuliyyətini ifadə edir. Bu maddə dövlətin muzey fəaliyyəti sahəsindəki öhdəliklərini və prioritetlərini göstərir. Dövlət siyasətinin əsas prinsiplərindən biri muzeylərdə saxlanılan mədəniyyət sərvətlərinin və tarixi əşyaların cəmiyyətin bütün təbəqələri üçün əlçatan olmasını təmin etməkdir. Regional və yerli muzeylərin dəstəklənməsi üçün dövlət müxtəlif proqramlar həyata keçirir, onların modernləşdirilməsi və fəaliyyətlərinin genişləndirilməsi üçün infrastruktur layihələri icra edir. Dövlətin bu sahədə olan vəzifələrindən biri, mədəni irsin qorunması və tədqiqi məqsədilə yeni muzeylərin açılmasına təşviq etməkdir. Dövlət muzeylərin fəaliyyəti ilə bağlı qanunvericiliyin hazırlanması və icrasına nəzarət edir. Muzeylərin müasir standartlara cavab verən binalarla təmin olunması dövlətin öhdəliyidir. Muzey fondlarının zənginləşdirilməsi məqsədilə yeni əşyaların və kolleksiyaların satın alınması üçün dövlət tərəfindən maliyyə ayrılır. Azərbaycan xalqına məxsus olan, lakin müxtəlif tarixi səbəblərdən xarici muzeylərdə saxlanılan mədəni irs nümunələrinin öyrənilməsi və geri qaytarılması üçün vaxtaşırı bir sıra

tədbirlər görülür. Dövlət bu istiqamətdə beynəlxalq təşkilatlar və xarici ölkələrin muzeyləri ilə əməkdaşlıq edərək, müvafiq hüquqi və diplomatik addımlar atır. Müharibə, yanğın və digər risklər zamanı muzey əşyalarının evakuasiyası və qorunması üçün dövlət tərəfindən lazımi tədbirlər planı işlənib hazırlanır və mütəmadi olaraq tətbiq edilir. Muzeylərin maddi-texniki bazasının gücləndirilməsi üçün müasir avadanlıqlar alınır və yeni texnologiyaların tətbiqi dövlət tərəfindən dəstəklənir. Muzey sahəsində ixtisaslı kadrların hazırlanması üçün dövlət proqramları həyata keçirilir, yerli və beynəlxalq təlimlər təşkil edilir.

3-cü maddə Azərbaycan Respublikasında muzeylərə dair hüquqi bazanın ümumi strukturunu və hüquqi üstünlük qaydasını müəyyən edir. Bu maddə muzeylərin fəaliyyəti sahəsində vahid hüquqi çərçivə yaradır və Azərbaycanın beynəlxalq müqavilələrdə qəbul etdiyi öhdəlikləri milli qanunvericiliklə uyğunlaşdırır. Xüsusilə, muzeylərlə bağlı beynəlxalq əməkdaşlıq və mədəni sərvətlərin qorunması sahəsində beynəlxalq standartların tətbiqinə zəmanət verir. Azərbaycan Respublikasında muzeylərin fəaliyyəti qanunvericilik əsasında tənzimlənir və mədəni irsin qorunmasını təmin edən hüquqi çərçivə müəyyən edilir. Bu hüquqi çərçivə muzey fəaliyyətinin tənzimlənməsində həm milli, həm də beynəlxalq hüquq normalarına əsaslanaraq, mədəni irsin qorunmasını və inkişafını təmin edir.

4-cü maddə muzeylərin yaradılması qaydasını və fəaliyyət məqsədlərini müəyyənləşdirir. Muzeylərin yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının mədəni irsinin qorunması və geniş ictimaiyyətə çatdırılmasını təmin etmək məqsədi daşıyır. Bu maddədə həmçinin qeyd olunub ki, muzeylərin yaradılması "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş hüquqi prosedurlara əsaslanır.

5-ci maddə muzeylərin yenidən təşkili və ləğv olunması ilə bağlı hüquqi və praktiki prosedurları müəyyən edir. Yenidən təşkil olunma zamanı əsas prinsip budur ki, Muzey fəaliyyətinin məqsədinin dəyişdirilməsinə yol verilməməlidir. Bu maddə muzeylərin fəaliyyətinin dayanıqlığını təmin edən hüquqi çərçivəni təsbit edir. Yenidən təşkil və ləğv olunma zamanı tətbiq olunan prosedurlar, muzeylərin yalnız qanunvericiliyə uyğun şəkildə idarə edilməsini və milli sərvətlərin qorunmasını hədəfləyir.

6-cı maddə muzey əşyalarının və kolleksiyalarının Azərbaycan Respublikasının sərhədlərindən kənara çıxarılması ilə bağlı prosedurları və əsas hüquqi çərçivəni müəyyən edir. Muzey əşyalarının və kolleksiyalarının Azərbaycan hüdudlarından müvəqqəti çıxarılması xüsusi hüquqi qaydalara əsaslanır və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Bu

proses dövlətin mədəni irsinin qorunmasını təmin etmək üçün müəyyən olunmuş hüquqi və prosedur normalarına uyğun şəkildə həyata keçirilir. Müvəqqəti çıxarılmanın əsas məqsədləri beynəlxalq sərgilərdə iştirak, elmi-tədqiqatlar və bərpa işləri və mədəniyyətlərarası əməkdaşlıq ola bilər.

7-ci maddə muzeylərin və onların fondlarının təcili hallarda köçürülməsi ilə bağlı hüquqi çərçivəni və prosedurları müəyyən edir. Muzeylərin və onların fondlarında saxlanılan mədəniyyət nümunələrinin qorunması dövlətin prioritet vəzifələrindən biridir. Təbii fəlakət, yanğın, silahlı münaqişə, müharibə və digər təhlükələr yarandıqda, muzeylərin və onların eksponatlarının zərər görməsinin qarşısını almaq üçün xüsusi köçürülmə tədbirləri həyata keçirilir.

8-ci maddə Azərbaycan Respublikasında muzey fəaliyyətinin əhatə dairəsini və əsas növlərini müəyyən edir. Muzey fəaliyyətinin məqsədi, muzeylərin funksiyalarını genişləndirərək onların mədəni, elmi, təhsil və maarifləndirmə sahələrində rolunu artırmaqdır. Muzey fondlarının zənginləşdirilməsi məqsədilə yeni eksponatların əldə edilməsi, toplanması və sistemləşdirilməsi prosesi hədiyyələr, satınalmalar, arxeoloji qazıntılar və digər vasitələrlə həyata keçirilir. Muzey kolleksiyalarına daxil olan hər bir əşyanın rəsmi qeydiyyata alınması, inventarlaşdırılması və qorunması üçün müvafiq şəraitin

yaradılması eksponatların zədələnməsinin və ya itirilməsinin qarşısını almaq üçün vacibdir. Muzeylərdə saxlanılan materialların elmi dəyərinin öyrənilməsi, onların tarixi, mədəni və sənətkarlıq xüsusiyyətlərinin tədqiq edilməsi akademik nəşrlər, konfranslar və digər elmi tədbirlər vasitəsilə yayımlanır. Muzeylərdə nümayiş etdirilən eksponatların tematik prinsiplər əsasında düzülməsi, müasir sərgilərin keçirilməsi və tamaşaçıların marağını cəlb etmək üçün interaktiv ekspozisiyaların hazırlanması təşkil olunur. Muzey ekspozisiyalarının estetik və funksional tərtibatı, informasiya stendlərinin, multimedia vasitələrinin və digər köməkçi elementlərin dizayn edilməsi, tarixi və mədəni əhəmiyyətə malik eksponatların fiziki aşınmadan qorunması və onların orijinal görünüşünün saxlanılması üçün konservasiya və bərpa işlərinin aparılması (bu proses kimyəvi, fiziki və bioloji metodlarla həyata keçirilə bilər), muzey fondlarının sistemləşdirilməsi və ictimaiyyətə təqdim edilməsi məqsədilə onların kataloqlar şəklində çap edilməsi, maarifləndirici tədbirlərin keçirilməsi, media və internet üzərindən eksponatların təqdim edilməsi, məktəblər və digər qurumlarla əməkdaşlıq edilməsi bu maddədə yer almaqdadır.

9-cu maddə milli statusa malik muzeylərin hüquqi statusunu, onların əhəmiyyətini və dövlətin həmin muzeylərə münasibətini müəyyən edir.

10-cu maddə respublika səviyyəsində əhəmiyyətli olan muzeylərin hüquqi statusunu, təsnifatını və fəaliyyət qaydalarını müəyyən edir.

11-ci maddə bələdiyyə mülkiyyətində və xüsusi mülkiyyətdə olan muzeylərin yaradılması, qeydiyyata alınması, fəaliyyət göstərmə prinsipləri və dövlətin həmin muzeylərə olan münasibətini müəyyən edir.

12-ci maddə muzeylərin hüquqlarını, elmi, mədəni, iqtisadi və hüquqi fəaliyyətlərini tənzimləyən hüquqi bir çərçivə təqdim edir.

13-cü maddə muzey əşyalarının və kolleksiyalarının qorunması, təmir və bərpa işlərinin həyata keçirilməsi zamanı nümayişin məhdudlaşdırılması şərtlərini və muzey saxlanclarında yerləşdirilməsi prosedurlarını tənzimləyir.

14-cü maddə muzeylərin öz kolleksiyalarını ictimaiyyətə təqdim etmə və kommersiya məqsədilə istifadəsini, həmçinin ilk publikasiya hüququnu tənzimləyir.

15-ci maddə muzey fondlarının zənginliyini, tərkibini və geniş spektrini göstərir. Tarixi, mədəni, təbiət və elmi əşyalar ilə yanaşı, hərb, incəsənət və digər mühüm mövzulara aid kolleksiyaların da muzeylərin tərkibinə daxil olması bu maddədə vurğulanır.

16-cı maddə muzey fondlarının mühafizəsi, uçotu və qorunması ilə əlaqədar dövlətin və müvafiq icra hakimiyyəti orqanlarının vəzifələrini müəyyən edir. Maddədə qeyd olunur ki, muzeylərin təhlükəsizliyi və mühafizəsi hər zaman daimi şəkildə təmin edilməlidir və dayandırılmamalıdır.

17-ci maddə muzey əşyalarının və kolleksiyalarının muzey fondlarına daxil edilməsi və çıxarılması prosedurunu müəyyən edir.

18-ci maddə muzey fondlarının uçotu və mühafizəsi ilə bağlı istifadə olunan əsas sənədləri, uçot - mühafizə kitablarını, kataloqları , əsasnaməni müəyyən edir.

19-cu maddə muzey fondlarına daxil olan muzey əşyalarının, kolleksiyaların dövriyyəsi, yeni muzeylərə əlavə edilməsi və mədəni mübadiləsi ilə bağlı əsas prinsipləri və prosedurları müəyyən edir.

20-ci maddədə dövlət muzeylərinin fondlarının tərkibi və fondlarda, yaxud saxlanc yerlərində yer alan muzey əşyalarının yalnız fövqəladə hallar və dəyişikliklər vəziyyətində kənarlaşdırılmasının mümkün olduğu vurğulanır.

21-ci maddə muzeylərin fəaliyyətinə dövlət nəzarətinin necə həyata keçirildiyini, maliyyə nəzarətini və

dövlət nəzarətinin digər hansı sahələrdə tətbiq olunduğunu müəyyən edir.

22-ci maddə dövlətin muzeylərə olan qayğısını və muzey fondlarının qorunmasını təmin etmək üçün görülən tədbirləri müəyyən edir.

23-cü maddə, muzeylərin öz fəaliyyətini və material bazasını səmərəli şəkildə idarə edə bilməsi üçün binalar və sahələr üzərində hüquqlarını təmin edir.

24-cü maddə dövlət muzeylərinin maliyyə dayanıqlığını təmin edir, çünki onlar həm dövlət büdcəsindən, həm də müxtəlif digər qanuni mənbələrdən maliyyə alaraq fəaliyyətlərini davam etdirə bilərlər.

25-ci maddə muzeylərin təsərrüfat fəaliyyəti və onun nəticələrindən əldə olunan gəlirin necə istifadə olunacağını tənzimləyir, muzeylərə maliyyə müstəqilliyi qazandırır və onların öz resurslarını artırmalarına şərait yaradır.

26-cı maddə dövlət muzeyləri işçilərinin sosial hüquqlarını qoruyur və onların peşə fəaliyyətinə maraqlarını artırır.

27-ci maddə Azərbaycan muzeylərinə beynəlxalq aləmdə daha fəal rol oynamaq, mədəniyyətlərarası dialoq və beynəlxalq sərgilərə qatılmaq imkanı verir.

28-ci maddə Azərbaycan Respublikasının muzeylərlə bağlı qanunvericiliyinin pozulmasına görə yaranan hüquqi məsuliyyəti tənzimləyir. Belə ki, həm hüquqi, həm də fiziki şəxslər üçün məsuliyyət və cəza mexanizmlərinin mövcudluğu qanunun effektiv icrasını təmin edir.

Muzeylərin uçotu və mühafizəsi həm milli qanunvericiliyə, həm də beynəlxalq tələblərə uyğun olaraq həyata keçirilməlidir. Bu çərçivədə qanunvericilik, normativ sənədlər, beynəlxalq razılaşmalar və s. muzeylərin davamlı fəaliyyət göstərməsini, mədəni və mədəniyyət nümunələrinin mühafizəsini və milli sərvətlərin gələcək nəsillərə ötürülməsini təmin edən hüquqi əsasları təmin edir.

## 5.KOLLEKSİYALARIN AYRI-AYRILIQDA RADİASİYA TƏHLÜKƏSİZLİYİ

Radiasiya, xüsusən ionlaşdırıcı şüalar şəklində olan alfa, beta, qamma və rentgen şüaları, uzunmüddətli və davamlı təsirləri ilə həm canlı orqanizmlərə, həm də qeyri-canlı maddələrə mənfi təsir göstərə bilər. Kolleksiyalar müxtəlif materiallardan – kağız, dəri, metal, taxta, boyalar və sairə – ibarət ola bilər. Bunlar hər biri özünəməxsus şəkildə radiasiyaya qarşı həssasdır. Muzeylərdə və sərgi zallarında, fondlarda kolleksiyaların ayrı-ayrılıqda radiasiya təhlükəsizliyi, radiasiyanın müxtəlif kolleksiya obyektlərinə və bu obyektlərin yerləşdiyi mühitə təsiri ilə bağlı olan

təhlükəsizlik məsələlərini əhatə edən bir sahədir. Bu təhlükəsizlik, əsasən radiasiya mənbələrinin yaydığı şüaların insan sağlamlığına və kolleksiya obyektlərinin qorunmasına təsirini azaltmaq məqsədini güdür. Radiasiya təhlükəsizliyinin təmin edilməsi üçün əsas metodlardan biri, kolleksiyaların saxlanma şəraitinin düzgün qurulmasıdır. Kolleksiyaların ayrı-ayrılıqda qorunması, hər bir obyektin spesifik xüsusiyyətlərinə əsaslanaraq uyğun təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini tələb edir. Məsələn, arxeoloji tapıntılar və ya nadir kitablar kimi materiallar, xüsusilə zərif və köhnəlmiş olduğu üçün radiasiyaya məruz qalması onların strukturunda və üzərindəki yazılarda, şəkillərdə ciddi zədələrə yol aça bilər. Bu cür zədələr, həmçinin tarixi və mədəni dəyərin itirilməsinə səbəb ola bilər. Bu sahədə həyata keçirilən tədbirlərdən biri, radiasiya səviyyəsinin mütəmadi olaraq monitorinq edilməsi və obyektlərin radiasiya səviyyəsinə məruz qalmasının minimuma endirilməsidir. Həmçinin, müasir texnologiyalarla təchiz edilmiş mühafizə sistemlərinin tətbiqi də çox vacibdir. Bu sistemlər, radiasiyanın kolleksiya obyektlərinə təsirini azaldaraq, onların uzunmüddətli qorunmasını təmin edə bilər. Radiasiya təhlükəsizliyi tədbirləri həmçinin kolleksiya obyektlərinin bərpası və konservasiyasını da əhatə edir. Zədələnmiş və radiasiyaya məruz qalmış əşyaların bərpası zamanı, hər hansı bir radiasiya izinin qalmaması və obyektin təbii strukturunun

qorunması əsas məqsəd olmalıdır. Bu məqsədlə, radiasiyaya məruz qalmış əşyaların müalicəsi və təmiri mütəxəssislər tərəfindən diqqətlə aparılmalıdır.

Muzeylərdə radiasiya təhlükəsizliyi diqqətlə izlənməli, kolleksiyaların qorunmasına və təhlükəsiz istifadəyə verilməsinə önəm verilməlidir. Muzey kolleksiyalarının ayrı-ayrı radiasiya təhlükəsizliyi, xüsusilə muzeylərin qoruduğu və nümayiş etdirdiyi eksponatların və kolleksiyaların radiasiya təhlükəsizliyinin təmin edilməsi ilə əlaqəlidir. Bu, muzeylərdə radioaktiv materiallar, nadir əşyalar, hərbi əşyalar və ya geoloji və paleontoloji nümunələr kimi potensial təhlükəli materialların saxlanılmasına və ya nümayişinə dair xüsusi qaydaların tətbiqini nəzərdə tutur. Radiasiya təhlükəsizliyi muzeylərin əşyalarını qorumaqla yanaşı, həm də ziyarətçilərin və işçilərin sağlamlığını təmin etmək məqsədini güdür. Əşyaların qorunması yalnız fiziki zədələnmədən deyil, həm də onların radiasiya emissiyası səbəbindən yaranan təhlükələrdən də qorunmasını əhatə edir. Bu, o cümlədən radiasiya səviyyələrini ölçmək, təhlükəli materialları aşkar etmək və onlara uyğun xüsusi qoruyucu tədbirlər tətbiq etmək kimi praktikaları tələb edir.

Məsələn "Muzeylər və Qalereyalar üçün Radiasiya İdarəetmə Planı" sənədi Avstraliya muzeyləri üçün hazırlanmış metodoloji çərçivədir və məqsədi radioaktiv

materiallarla bağlı risklərin sistematik qiymətləndirilməsi, idarə olunması və nəzarət mexanizminin qurulmasıdır. Sənədin əsas funksiyası muzey və qalereya rəhbərlərinə radiasiya təhlükəsizliyi ilə bağlı praktik və hüquqi yönümlü bələdçi təqdim etməkdir. Sənəd radioaktiv əşyaları təhlükə səviyyəsinə görə üç əsas qrupa bölür:

-Aşağı riskli obyektlər – zəif təbii radiasiya yayan minerallar və qədim optik cihazlar;

-Orta riskli obyektlər – radium və uran izotopları ehtiva edən elmi avadanlıqlar;

-Yüksək riskli obyektlər – rentgen mənbələri, sənaye ölçü cihazları və sızdırma riski olan nümunələr.

Plan çərçivəsində muzeylərdə aşağıdakı əməliyyat qaydaları tətbiq edilir:

-Radiasiya səviyyələrinin mütəmadi ölçülməsi üçün Geiger sayğaclarından istifadə;

-Fərdi dozimetrlərin işçi heyətinə paylanması;

-Saxlama otaqlarında ventilyasiya sisteminin qurulması və qurğuşun izolyasiyası;

-Hər obyekt üçün uçot kartı və risk pasportu hazırlanması.

Sənədə əsasən, hər muzeydə Radiation Safety Officer (RSO) təyin edilməlidir. Bu şəxs radiasiya ilə bağlı bütün əməliyyatların koordinasiyasına, sənədləşməyə və təlimlərin təşkili prosesinə cavabdeh olur. Plan həmçinin Avstraliya Radiasiya Mühafizəsi və Nüvə Təhlükəsizliyi Agentliyi (ARPANSA) tərəfindən müəyyən edilmiş milli qaydalara

istinad edir və bu normaların mədəni qurumlara tətbiq mexanizmini izah edir.

Muzey kolleksiyalarının radiasiya təhlükəsizliyi ilə bağlı vacib tədbirlər planına aşağıdakı məsələlər daxildir: radioaktiv materialların aşkarlanması və təhlükəsizliyi; kolleksiyaların uçotu və izlənməsi; muzey personalının təlimi və təhlükəsizlik protokolları; radiasiya qoruma avadanlığı və infrastruktur; ziyarətçilər üçün təhlükəsizlik; radiasiyanın azaldılması mexanizmləri. Muzeylərdə radiasiya təhlükəsizliyi məsələsinin əsas aspektlərindən biri, radiasiya mənbələri ilə bağlı düzgün identifikasiya və qiymətləndirmə prosesinin aparılmasıdır. Radiasiyaya məruz qalan əşyaların təhlükəsizlik çərçivəsində müvafiq şəkildə izolyasiya edilməsi, qoruyucu qablaşdırma ilə saxlanılması və daşınması tələb olunur. Bununla yanaşı, radioloji monitorinq sistemlərinin qurulması və radiasiya təhlükəsinin minimal səviyyəyə endirilməsi üçün müxtəlif tədbirlər görülməlidir.

Kolleksiyalarda radiasiya necə yarana bilər? Muzey kolleksiyalarında radiasiyanın mövcudluğu müxtəlif mənbələrdən və səbəblərdən qaynaqlana bilər. Bu məsələ xüsusilə arxeoloji, paleontoloji, antropoloji və geoloji kolleksiyalar üçün aktualdır. Bir çox muzey kolleksiyalarında radioaktivlik "gizli təhlükə" kimi qalır. Bəzi kolleksiyaların, məsələn saxsı və ya keramika, ağacdan

və ya taxtadan hazırlanan antik bəzək əşyaları nümunələrinin, tekstil nümunələrinin tərkibindəki bəzi materiallar, uzun müddət təbii geoloji şəraitdə qalmış və ya insan fəaliyyəti nəticəsində çirklənmiş hallarda, radiasiya səviyyəsini artıraraq təhlükə yarada bilər. Təbii geoloji şəraitdə torpaqda və süxurlarda olan təbii izotoplar (uran-238, torium-232 və kalium-40) radiasiyanın əsas yaranma mənbəyidir. Bu izotoplar materialların tərkibində ionlaşdırıcı şüalanma (alfa, beta, qamma) yaradır. Günəşdən gələn kosmik şüalar da materiallarda radiasiya səviyyəsinin artmasına səbəb ola bilər. Əgər tarixən təbiət hadisələri (məsələn, vulkan püskürmələri, nüvə partlayışları, uzun sürən müharibə şəraiti zamanı havanın və torpağın radionuklidlərlə çirklənməsi və s.) baş vermişsə, bu zaman torpaq və onun daxilindəki "gələcəyin muzey əhəmiyyətli əşyaları", həmçinin də tarixi abidələr həmin müddət ərzində radionuklidlərlə çirklənmiş olur və radioaktiv minerallar (uranit, torit, monazit) kolleksiyalarda rast gəlinə bilir. Qədim tibbi avadanlıqlar və hərbi cihazlar da radioaktiv materiallardan ibarət ola bilər. Tarixi və arxeoloji tapıntılar uzun müddət sonra muzeylərə təhvil verildikdə, onların radioloji təhlükəsizliyi nəzərə alınmadan və ya radiasiya dozası gücü analiz olunmadan qəbul edilərsə, onların radiasiya səviyyələri və təhlükə potensialı yoxlanılmadığından, bəzi tapıntılar, xüsusilə radioaktiv materiallar ehtiva edənlər, muzeylərdə saxlanıldığı

müddətdə risk yarada bilər. Muzeylərdə saxlanılan bu cür əşyalarda zamanla radiasiya dozası yığıla bilər. Buna görə də, bu materialların uzun müddət saxlanması və ya müntəzəm sərgilənməsi halında, radiasiya səviyyələrinin mütəmadi təhlili və monitorinqi aparılmalıdır. Muzeylərdə əşyalar müntəzəm olaraq təhlil edilməli, radiasiya səviyyələri monitorinq edilməli və potensial təhlükələrə qarşı müvafiq tədbirlər görülməlidir. Radiasiya dozasının ölçü vahidi canlılarda µSv/saat (mikroZivert/saniyə), cansızlarda Gy (Qrey) kimi qəbul olunur.

Muzey işçiləri radioaktiv təhlükəsizlik qaydaları barədə məlumatlandırılmalı və zərərli radiasiya ilə qarşılaşmaq ehtimalı olan kolleksiyalarla işləmək üçün xüsusi təlimlərdən keçməlidirlər. Misal üçün qeyd etmək olar ki, 2000-2018-ci illər arasında uran zəngin arxeoloji artefaktların saxlanıldığı bir məkanda 1000-dən çox işçi və ziyarətçinin NRC-10CFR tərəfindən müəyyən edilmiş təhlükəsizlik səviyyələrini aşan radioaktiv təsirə məruz qaldığı müəyyən edilmişdir. Bu hal saxlanılan materialların radioloji təhlükəsizlik baxımından ciddi risklər daşıdığını göstərir. Belə artefaktların tərkibindəki yüksək səviyyəli radioaktivlik həm işçilərin, həm də ziyarətçilərin sağlamlığına mənfi təsir göstərə biləcəyi üçün muzeylərdə və saxlanclarında xüsusi nəzarət tədbirlərinin həyata keçirilməsini tələb edir. Radioaktiv artefaktlarla işləyərkən mütləq şəkildə ehtiyat tədbirləri görülməlidir. Çünki belə

maddələr orqanizmə daxil olduqda, onlar müxtəlif orqan və sistemlərə ciddi zərər verə bilər. İlk növbədə, sinir sisteminin funksiyası pozulur, qalxanabənzər vəzinin fəaliyyətinə mənfi təsir göstərir, ağ ciyərlər və mədə-bağırsaq sisteminin selikli qişaları zədələnir. Bu, hüceyrələrin sıradan çıxmasına və bədənin normal fəaliyyətinin pozulmasına səbəb olur. Çox hallarda hüceyrələrin bərpası orqanizmin öz gücü ilə mümkün olmur, bu da daxili orqanların işləməməsinə, immun sisteminin zəifləməsinə və infeksion xəstəliklərə qarşı müdafiə qabiliyyətinin azalmasına yol açır. Nəticədə, ciddi xəstəliklər və həyati təhlükələr yaranır. Radium tərkibli və ya radioaktiv olduğu şübhə doğuran artefaktlarla işləyərkən ciddi təhlükəsizlik tədbirləri tətbiq olunmalıdır. İşçilər bu artefaktlarla təmasda olmadan əvvəl birdəfəlik rezin və ya lateks əlcəklər geyməli, toz maskası taxmalı və yemək, içmək, siqaret çəkməkdən çəkinməlidirlər. Artefaktlarla işləmə müddəti minimuma endirilməli və artefaktlar şəffaf plastik torbalara yerləşdirilməli, hər biri "radiasiya xəbərdarlığı etiketi" ilə işarələnməlidir. Etiketləmə kateqoriyaları aşkarlanan radiasiya səviyyəsinə görə təsnif olunur:

-Aşağı radiasiyalı (0.1 - 0.5 μSv/saat) – Xüsusi şərtlərlə saxlanıla bilər.

-Orta radiasiyalı (0.5 - 2 μSv/saat) – Qoruyucu maneələr tələb edir.

-Yüksək radiasiyalı (>2 µSv/saat) – Xüsusi qurğularda və ya ekranlanmış qutularda saxlanmalıdır.

Etiket rəng kodları da öz növbəsində yaşıl etiket, sarı etiket və qırmızı etiket olaraq təsnifləşdirilir. Yaşıl etiket minimal radiasiya təhlükəsi zamanı tətbiq olunur və məsafəni qorumaq şərtilə artefaktlara yaxınlaşmağa icazə verilir. Sarı etiket orta səviyyəli radiasiya zamanı tətbiq olunur və artefaktın yerləşdiyi məkana məhdud giriş tələb olunur. Qırmızı etiket yüksək radiasiya zamanı tətbiq olunur və xüsusi təhlükəsizlik tədbirləri tələb olunur. Məsələn, bir muzeyə daxil edilən tarixi bir saatın əqrəblərində və ya bir kompasda 20-ci əsrin əvvəllərində istifadə edilən radium əsaslı boya ola bilər. Belə olan halda, radiumla boyanmış bir kompas aşkar edildikdən sonra onun radiasiya səviyyəsi ölçülür və nəticələrə əsasən seçilmiş etiketlə işarələnir. Etiketdə onun təhlükəsiz məsafədə saxlanılmalı olduğu və uzunmüddətli istifadədən qaçınılması tövsiyə edilən bildiriş də yazılır. Digər bir misal, muzey kolleksiyasında 19-cu və 20-ci əsrlərə aid uran şüşəsindən hazırlanmış və radiasiya səviyyəsi 0.7 µSv/saat olan bir dekorativ vaza aşkar edilərsə, onun qurğuşun örtüklü qutuda saxlanması tövsiyə edilir. Əşya xüsusi sarı etiket ilə işarələnməli və daşınma zamanı radiasiya detektorları ilə monitorinq edilməlidir. Hər bir muzeydə "Radiasiya təhlükəsizliyi üçün yerli qaydalar" adlı daxili

təlimat sənədi tərtib edilməli və işçilərin imzası ilə təsdiqlənməlidir.

Artefaktlar işçilər və könüllülərdən uzaq, təhlükəsiz şəraitdə saxlanılmalı, maska və əlcəklər adi tullantılarla birlikdə atılmalı, əllər isə mütləq yuyulmalıdır. Ən vacib qayda, çılpaq əllərlə radioaktiv olduğu şübhə doğuran artefaktlarla təmas etməməkdir.








*Radioaktiv artiefaktların aşkarlanması və xüsusi etiketlə işarələnib qablaşdırılması*

Radiasiya şüalarından mühafizənin tətbiq olunduğu müəssisələrdə işçilərin sağlamlığını qorumaq məqsədilə ildən-ilə daha təkmil qoruyucu tədbirlər hazırlanır. Bu inkişaf, texnikanın tərəqqisi ilə əlaqədar olaraq dəqiq və həssas dozimetrlərin, yeni ölçü cihazlarının yaradılması ilə

müşayiət olunur. Muzey əşyalarının mikroanalizi və aktlaşdırılması proseslərində, xüsusilə radioloji müayinə zamanı zərərli təsirin azaldılması üçün bir çox qoruyucu tədbirlər görülür. Şüalardan qorunma üçün əsasən üç tədbir tətbiq olunur: 1)şüaların səpələnməsinin qarşısını almaq, 2)məsafənin qorunması və 3)vaxta qənaət etmək. Bundan əlavə, eksponatların analitik prosedurları zamanı otaqların divarlarına şüanı keçirməyən maddələr, məsələn, qurğuşun və ya bor tətbiq edilir. Müasir elektron detektorlar şüaların kənara səpələnməsinin qarşısını almaq üçün qurğuşun lövhələrlə əhatə olunur. Şüaların zərərli təsirinin azaldılması üçün qoruyucu arakəsmələr, qurğuşunlu rezin əlcəklər və qoruyucu önlüklər də istifadə edilir. Bu qoruyucu tədbirlər yalnız radioloji ölçmələr aparan işçilərin deyil, həmçinin qonşu otaqlarda çalışanların sağlamlığını da qorumağa yönəlmişdir. Radiodiaqnostik və analitik kabinetlərin divarları şüa keçirməyən maddələrlə örtülür ki, bu da radiasiyanın yayılmasının qarşısını alır.

Muzeylər və incəsənət qalereyaları mədəniyyət nümunələrinin qorunmasına və nümayişinə cavabdehdir və bu məqsədlə, incəsənət əsərlərinin və artefaktların keyfiyyətini və uzunömürlülüyünü təmin etmək üçün işıqlandırma şəraitini düzgün seçməlidirlər. Ənənəvi işıqlandırma mənbələri, xüsusilə közərmə lampaları, istilik və ultrabənövşəyi (UV) radiasiya yayaraq həssas materiallara zərər verə bilər. Bu səbəbdən, LED(Light

Emitting Diode) işıqlandırma texnologiyası muzeylər və qalereyalar üçün daha effektiv və dayanıqlı bir həll təqdim edir. Bu, həmçinin nümayişin və mühafizənin keyfiyyətini də artırır. LED işıqları həm enerji baxımından daha qənaətlidir, həm də əsərlərin uzunömürlülüyünü qorumağa kömək edir.



*Muzeylərdə LED işıqlandırma texnologiyası*

Ənənəvi lampalar işıq yayarkən yüksək səviyyədə istilik və infraqırmızı (IR) şüalanma buraxır. Bu amil kağız, tekstil, rəsm əsərləri və digər həssas materiallardan ibarət eksponatlara mənfi təsir göstərərək onların vaxtından əvvəl deqradasiyasına səbəb ola bilər. LED lampalar isə minimal istilik emissiyası ilə fərqlənir, beləliklə, eksponatların fiziki və kimyəvi stabilliyini qoruyaraq onların daha uzun müddət ərzində orijinal vəziyyətində saxlanmasına şərait yaradır. Məsələn, Vaşinqtondakı Milli İncəsənət Qalereyasının Şərq binası, Fransadakı Louvre Muzeyi, ABŞ-dakı Metropolitan İncəsənət Muzeyi rəsm əsərləri və qədim tekstillərin nümayiş olunduğu zallarda LED işıqlandırmaya keçid

edərək nadir tarixi rəsmlərin və sənət əsərlərinin ultrabənövşəyi və infraqırmızı şüalanmadan qorunmasını təmin etmişdir. Muzeylərdə nümayiş etdirilən obyektlərin böyük bir hissəsi orqanik materiallardan ibarət olduğuna görə UV və IR şüalanmaya qarşı xüsusilə həssasdır. LED texnologiyası UV və IR spektrində, demək olar ki, heç bir şüalanma yaymır, bu da qədim sənədlərin, fotoşəkillərin və incəsənət əsərlərinin deqradasiya riskini əhəmiyyətli dərəcədə azaldır. LED lampalar ənənəvi işıq mənbələri ilə müqayisədə 80%-ə qədər daha az enerji sərfiyyatına malikdir. Məsələn, Böyük Britaniya Muzeyi enerji səmərəliliyini artırmaq üçün LED işıqlandırmaya keçid edərək muzeyin işıqlandırma xərclərini 40% azaltdığını bildirmişdir. Bundan başqa, muzeylərdə istifadə edilən LED işıqlar fərqli rəng temperaturlarına uyğun tənzimlənə bilər. Məsələn, isti ağ işıq (2700K-3000K), neytral ağ işıq (4000K-4500K) və soyuq ağ işıq (5000K-6000K) müxtəlif ekspozisiyalar üçün xüsusi effektlər yaratmaq üçün istifadə edilə bilər. Yağlı boya əsərləri üçün isti ağ işıq daha uyğun hesab edilir, çünki bu, rəsmlərin orijinal rəng tonlarını qorumağa kömək edir. Arxeoloji və elmi eksponatlar üçün neytral və ya soyuq ağ işıq obyektlərin detallı görünüşünü təmin edir. Məsələn, Vatikandakı Sistine Kapellası LED işıqlandırmadan istifadə etməklə "Michelangelo"nun freskalarının parlaqlığını və rəng dəqiqliyini artırmışdır. Bundan başqa, LED işıqlandırmaya keçid nəticəsində yalnız

işıqlandırma keyfiyyətinin yaxşılaşması deyil, həm də enerji istehlakı və texniki xidmət xərclərində də əhəmiyyətli azalma baş vermişdir.

LED texnologiyasının davamlı olaraq inkişaf etməsi ilə yaranan və müasir tendensiyalara cavab verən ağıllı LED sistemləri, tənzimlənən spektrli LED işıqlar hazırda muzeylərdə quraşdırılır. Belə ki, sensor əsaslı işıqlandırma sistemləri ziyarətçilərin olduğu sahələrdə avtomatik işıqlandırmanı təmin edir və boş otaqlarda enerjiyə qənaət edir. LED işıqlandırma muzeylər və qalereyalar üçün daha davamlı və səmərəli həll təklif edərək, həm sənət əsərlərinin qorunmasını, həm də ziyarətçilər üçün immersiv təcrübə yaratmağı təmin edir. LED işıqlandırmanın fərdiləşdirilə bilən rəng temperaturları və işıqlandırma texnikaları vasitəsilə gələcək nəsillər üçün mədəni irsin qorunması məqsədilə ideal bir vasitə təqdim edilir. Bu vasitə ilə ən yaxşı dünya təcrübələrinə uyğun olaraq, bütün muzeylər və qalereyalar işıqlandırma sistemlərinin yüksək keyfiyyət və səmərəlilik standartlarına cavab verə bilər.

## 6.BAŞ MÜHAFİZİN, MÜHAFİZ VƏ MÜHAFİZƏ FUNKSİYALARINI YERİNƏ YETİRƏN ƏMƏKDAŞLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

Muzeylərdə baş mühafizin, mühafiz və mühafizə funksiyalarını yerinə yetirən əməkdaşların hüquq və vəzifələri müəssisənin təhlükəsizlik, qoruma və idarəetmə

proseslərinin düzgün həyata keçirilməsi üçün əsas rol oynayır. Baş mühafizənin vəzifələri muzeyin ümumi təhlükəsizlik sistemlərinin idarə edilməsi, işçilərin və ziyarətçilərin təhlükəsizliyinin təmin edilməsi, muzey əşyalarının qorunması və mühafizəsinin yüksək səviyyədə təşkil olunmasıdır. O, həmçinin mühafizəçilərin işini koordinasiya edir, təhlükəsizlik qaydalarına riayət olunmasını təmin edir və hər hansı bir fövqəladə vəziyyətə qarşı hazırlıqlı olmağını izləyir. Mühafizəçilər muzeydə fəaliyyət göstərən hərəkətləri izləyir, icazə verilməmiş şəxslərin daxil olmasına mane olur, təhlükəsizlik kameralarından istifadə edir və hər hansı bir qeyri-adi hadisəni dərhal müvafiq qurumlara bildirirlər. Mühafizəçilər həmçinin, muzeydəki eksponatları qorumaq, ziyarətçilərin davranışlarını nəzarət altında saxlamaq və əşyaların itirilməsinin qarşısını almaq məqsədilə müntəzəm olaraq ərazini yoxlayırlar. Onların əsas funksiyası muzeyin əşyalarını və ziyarətçiləri hər hansı təhlükə və zərərdən qorumaqdır. Müvafiq mühafizə tədbirlərinin görülməsi, muzey əşyalarının, xüsusən də qiymətli və həssas eksponatların zərər görməməsini təmin edir. Həmçinin mühafizə əməkdaşları musiqi və ya digər səslərin təhlükəsizlik prosedurlarını pozmamasını, ziyarətçilərin təlimatlara əməl etmələrini izləməli, həmçinin təcili hallarda ilk yardım göstərmə və ya təcili xidməti çağırma funksiyalarını da yerinə yetirirlər. Mühafizəçilərin, baş

mühafizəçi tərəfindən verilən təlimatlar əsasında işləməsi təhlükəsizlik protokollarının düzgün icrası və hər hansı bir qəza vəziyyətinin dərhal həll edilməsi üçün əhəmiyyətlidir.

Muzeylərdə **baş mühafizin** əsas vəzifəsi müəssisənin ümumi təhlükəsizlik protokollarının idarə edilməsidir. Bu şəxs həmçinin, mühafizəçilərin fəaliyyətini koordinasiya edir, onların təlimatlarını verir və təhlükəsizliyin ən yüksək səviyyədə təmin edilməsini nəzarət altında saxlayır. Baş mühafizəçi muzeyin əşyalarının və ziyarətçilərinin təhlükəsizliyini təmin etməli, hər hansı bir fövqəladə vəziyyətə qarşı hazırlıqlı olmalıdır. Baş mühafizin hüquqları arasına təhlükəsizlik məsələləri ilə bağlı qərar qəbul etmək, mühafizəçilərə təlimat vermək, onların fəaliyyətlərini izləmək və lazımi tədbirləri görmək daxildir. O, muzeyin təhlükəsizlik sisteminin effektiv işləməsi üçün lazım olan texniki dəstəyi təmin etməli və hər hansı bir təhlükə ilə qarşılaşdıqda müvafiq tədbirləri görməlidir. Baş mühafiz həmçinin, mühafizəçilərin işlərini düzgün şəkildə yerinə yetirdiklərindən və təhlükəsizlik qaydalarına riayət etdiklərindən əmin olmaq məqsədilə müntəzəm olaraq yoxlamalar aparır. O, həmçinin, muzeyin sərgi salonlarında, kolleksiyalarında və arxivlərində olan əşyaların qorunmasını təmin edir. Bundan başqa o, eksponatların təhlükəsizliyini təmin etmək məqsədilə mühafizəçiləri təyin edir və ziyarətçilərə qarşı təhlükəsizlik tədbirlərinin yerinə yetirilməsinə nəzarət edir. Hər hansı bir zədələnmə və ya

quruluşunu araşdırmağa kömək edir. Bu analizlər eksponatın iç strukturunu və element tərkibini yoxlayır və bununla da yenidənqurma və ya saxta əlavə hissələr aşkar edilir. X-ray flüoresensiyası (XRF) materialların kimyəvi tərkibini analiz etməyə kömək edən radiokimyəvi metoddan biridir. Bu metodda əşya X-ray şüalarına məruz qoyulur və bu, əşyaların kimyəvi elementlərinin təhlilini təmin edir. XRF, orijinal və saxta əşyaların ayırd edilməsi zamanı materialların tərkibindəki fərqləri aşkar etməyə kömək edir. XRF metodunun üstünlüyü ondadır ki, bu proses qeyri-destruktivdir və əşyaya zərər vermədən onun təhlilini aparmağa imkan verir; *Ümumi kimyəvi analizlər* əşyaların tərkibindəki metalların və ya digər materialların kimyəvi xüsusiyyətlərini təyin edərək onların orijinallığını müəyyən etməyə kömək edir; *İzotop analizləri* əşyaların yaşını və mənşəyini dəqiq şəkildə müəyyən etməyə imkan verən və saxta nümunələrin aşkarlanmasında mühüm əhəmiyyət kəsb edən elmi metodlardan biridir. Bu analizlər materialların kimyəvi və atomik xüsusiyyətlərini tədqiq etməklə, onların istehsal dövrünü və mənbəyini müəyyən edir. Xüsusilə radiokarbon (C14) analizi üzvi materialların, o cümlədən ağac, sümük, parça və digər üzvi mənşəli əşyaların yaşını təyin etmək üçün geniş şəkildə istifadə olunur. Radiokarbon metodu karbon-14 izotopunun təbii yarımparçalanma dövrünə əsaslanaraq, analiz edilən obyektin hansı dövrdə mövcud olduğunu və dəqiq yaşını

müəyyən edir. Bu metodla yaşı təxminən 55 min ilə qədər olan tarixi artefaktların mütləq yaşları müəyyən edilə bilir. Bu metod təkcə obyektin yaşını dəqiqləşdirməklə kifayətlənmir, həm də onun orijinallığını qiymətləndirmək üçün əsaslı elmi məlumatlar təqdim edir. İzotop analizlərinin nəticələri obyektin dövrə uyğunluğunu yoxlamaq və onun materialında müasir müdaxilələrin olub-olmamasını müəyyən etmək baxımından da əvəzolunmazdır. Beləliklə, izotop analizləri həm arxeoloji, həm də sənət əsərlərinin xarakteristikasının elmi əsaslarla təsdiqlənməsi prosesində etibarlı vasitə rolunu oynayır; *Termolüminisent (TL) analizi* keramika və ya yanmış torpaq materiallarından hazırlanan eksponatların yaşını təyin etmək üçün istifadə olunur və saxta əşyaların müasir dövrdə hazırlanıb-hazırlanmadığını aşkarlamaq üçün effektiv üsuldur. Termolüminisent tarixləndirmənin üç diqqət çəkən üstünlüyü var : (1) arxeoloji cəhətdən geniş yayılmış materialların, xüsusən keramika və saxsı qabların yaş təyinini təmin edir, (2) arxeoloji və geoloji cəhətdən əhəmiyyətli yaş diapazonunu əhatə edir (çox yaxın keçmişdən milyon illər əvvələ qədər: $10^2$-$10^8$ il) və bir neçə başqa üsulla uyğunlaşdırıla bilər  və nəhayət  (3) o, digər geniş istifadə olunan metodlara müraciət etmədən arxeoloji əhəmiyyətli hadisələrə birbaşa tarix verir; *Mikroskopik analiz* vasitəsilə səthin və materialın detalları araşdırılır. Belə ki, əşyadakı aşınma, eroziya və təbii köhnəlmə izləri saxta

əşyalarda mövcud olmaya bilər. Muzey və arxeoloji eksponatların orijinallığının yoxlanılması və elmi təhlili üçün mikroskopik analiz mühüm metodlardan biri sayılır. Bir neçə fərqli mikroskopik analiz metodunu qruplaşdırmaq olar: a) optik mikroskopiya b) elektron mikroskopiya c) x-ray mikrotomoqrafiya d) flüoresens mikroskopiya. Optik mikroskopiya eksponatların səth quruluşunu, boya qatlarını və teksturasını öyrənmək üçün tətbiq edilir. Bu üsul, əsasən kağız, parça, rəsm əsərləri və keramika nümunələrinin ilkin təhlilində faydalıdır. Elektron mikroskopiya (SEM – Skanedici Elektron Mikroskopiya) eksponatların nanosəviyyədə strukturunu araşdırmağa imkan verir. Metallurgiya, daş, şüşə və digər qeyri-üzvi materialların analizində geniş istifadə olunur. X-Ray mikrotomoqrafiya (XRM) texnologiyası eksponatın daxili strukturu və gizli qatlarını zədələmədən analiz etməyə imkan yaradır. Bu metod qədim heykəllər, mumiya qalıqları və mürəkkəb incəsənət nümunələrinin öyrənilməsində istifadə edilir. Flüoresens Mikroskopiya eksponatlarda istifadə olunan rəngli piqmentlərin və materialların kimyəvi xüsusiyyətlərini müəyyən edir. Xüsusilə rəsm əsərləri və qədim əlyazmaların orijinallığını yoxlamaq üçün tətbiq edilir. Tarixi artefaktların orijinal və ya saxta olduğu onların hazırlanmasında istifadə olunan materialların bu üsullarla təhlili əsasında müəyyən edilə bilir. Məsələn, orta əsr əlyazmalarında istifadə olunan mürəkkəb və kağızın tərkibi

analiz edilərək, həmin dövrə aid olub-olmadığı yoxlanılır. Bundan əlavə, bu analiz metodları bərpa və konservasiya işlərinin planlaşdırılması üçün də vacibdir. Eksponatın fiziki və kimyəvi vəziyyəti təhlil edilərək, onun saxlanması və bərpası üçün ən uyğun texnologiyalar seçilir; *3D skan və model analizi* vasitəsilə eksponatın skan olunaraq üçölçülü modeli hazırlanır. Modeldə dövrün digər oxşar əsərləri ilə müqayisə edilərək orijinallıq təsdiqlənir. Bu texnologiya sayəsində əşyaların orijinal və saxta versiyalarını müqayisə etmək asanlaşır. Həmçinin, 3D skanlaşdırma əşyaların tam strukturlarını təhlil etməyə və onlara əlavə müdaxilə edilib-edilmədiyini izləməyə kömək edir; *EPR(Elektron Paramaqnit Rezonans) analizi* materialların molekulyar və atom səviyyəsində maqnit xüsusiyyətlərini araşdırmağa imkan verən çox həssas bir elmi metoddur. Bu üsul əsasən tərkibində paramaqnit hissəciklər (məsələn, sərbəst elektronlar və ya radikallar) olan materiallarda istifadə olunur. Arxeologiyada və muzey işlərində EPR analizi artefaktların (əsasən diş materiallarının) qədimilik göstəricisinin aşkar edilməsində xüsusilə faydalıdır; *Neytron aktivasiya analizi* qədim metallarda və ya mineral əsaslı eksponatlarda iz elementlərin miqdarını təyin edir və yüksək həssaslıqla elementlərin qeyri-müəyyən tərkibini üzə çıxarır; *İnfraqırmızı (IR) spektroskopiya metodu* ilə kolleksiyaların üzərində olan boyalar, laklar və digər üzvi materialların kimyəvi tərkibi araşdırılır. İnfraqırmızı (IR)

spektroskopiya — maddələrin molekulyar quruluşunu və kimyəvi tərkibini təyin etmək üçün istifadə edilən qeyri-destruktiv (zədələməyən) analitik metoddur. Muzey və konservasiya laboratoriyalarında IR spektroskopiya geniş şəkildə istifadə olunur. IR spektroskopiyanın ən böyük üstünlüyü onun nümunəni zədələmədən təhlil etmə qabiliyyətidir.



*Eksponatların orijinallıq testlərinin fiziki-kimyəvi üsullarla yoxlanması*

**Fiziki zərbələr və sərtlik testləri** əşyaların autentikliyinin müəyyən edilməsi məqsədilə onların mexaniki və struktur xüsusiyyətlərini təhlil edir. Bu testlər obyektlərin dayanıqlığını, səth toxumasını, sərtliyini və ümumi struktur bütövlüyünü qiymətləndirməyə imkan verir. Metal əşyalar üçün istilik və sərtlik testləri tətbiq edilməklə materialın fiziki xüsusiyyətləri və dövrün texnologiyasına uyğunluğu müəyyən edilir. Bundan əlavə, rentgen flüoresens analizi (XRF) və atom-emissiya

spektroskopiyası kimi texnikalar istifadə olunaraq metalın tərkibi, onun istehsal üsulu və mənşəyi haqqında məlumat əldə edilir. Kağız və tekstil materiallarından hazırlanan əşyalar üzərində isə köhnəlmə testləri aparılaraq materialın aşınma dərəcəsi və elastikliyi tədqiq edilir. Bu yanaşma əşyaların orijinal və ya saxta olub-olmadığını obyektiv şəkildə müəyyən etmək üçün etibarlı və elmi əsaslı bir metod kimi istifadə olunur.

**Vizual müqayisə və təsvirlər** vasitəsilə ekspertlər eksponatın dizaynı, işləmə texnikası və tətbiq olunan sənət formalarını təhlil edərək orijinal və saxta nümunələr arasındakı fərqləri müəyyən edirlər. İşləmə texnikasına dair təhlillər materialın emalında istifadə edilən üsulların dövrün texnoloji imkanlarına uyğunluğunu müəyyən etməyə kömək edir. Bu yanaşma, xüsusilə qədim dövrlərə aid əl işlərinin autentikliyinin təsdiqlənməsi və saxta əsərlərin aşkarlanmasında mühüm rol oynayır. Əsərin hazırlanma üsulu, istifadə olunan alətlər və tətbiq edilən texniki üsullar orijinal nümunələrin istehsal metodları ilə müqayisə edilir. Məsələn, qədim metal məmulatlarında əl işçiliyinin izləri və ya qravirovka üsulları xüsusi diqqət tələb edir. Orijinal əsərlərdə istifadə olunan boyalar, minerallar və digər komponentlər müəyyən dövrlərə xas olur ki, bu da material və piqment təhlili nəticəsində müəyyən olunur. Ekspertlər dizayn elementlərini, ornamentlərin spesifik xüsusiyyətlərini və onların dövrə, üsluba, eləcə də regional

xüsusiyyətlərə uyğunluğunu qiymətləndirirlər. Sənət formalarının incələnməsi zamanı isə müəyyən dövrə və ya mədəniyyətə xas xüsusiyyətlər diqqətlə araşdırılır, bu zaman orijinallığı təsdiq edən tarixi və üslubi xüsusiyyətlər ön plana çıxarılır. Digər tərəfdən, əsərin alt qatlarının və gizli elementlərinin aşkara çıxarılması üçün Rentgen və infraqırmızı görüntüləmə üsulu istifadə edilir ki, bunun vasitəsilə də ilkin eskizlər, dəyişikliklər və mümkün saxtalaşdırma üsulları araşdırılır. Bu üsullarla əldə edilən məlumatlar saxtakarlıq məqsədilə hazırlanan əsərlərdə ortaya çıxan texniki uyğunsuzluqlar və ya tarixi qeyri-dəqiqlikləri aşkar etməyə imkan yaradır. Beləliklə, vizual təhlillər obyektin təbii aşınma izləri, texniki icra xüsusiyyətləri və sənət tarixi kontekstindəki mövqeyini müəyyənləşdirmək üçün əvəzsiz bir vasitə kimi çıxış edir.



*Əşyaların vizual təsviri və analizi proseduru*

Müasir texnologiyaların tətbiqi, **elektron qeydiyyat və təhlil sistemləri** vasitəsilə saxta və orijinal əşyaların

fərqləndirilməsində mühüm rol oynayır. Hər bir eksponat üçün barkod və ya QR kodunun inteqrasiyası vasitəsilə unikal identifikasiya təmin edilir və bu kodlar vasitəsilə əşyaların müvafiq məlumatları mərkəzləşdirilmiş verilənlər bazasına daxil edilir. Verilənlər bazasında toplanmış məlumatlar eksponatların mənşəyi, hazırlanma texnikası, tarixi konteksti və digər spesifik xüsusiyyətləri ilə bağlı ətraflı məlumatların izlənməsinə imkan yaradır. Bu yanaşma eksponatların autentikliyini təsdiqləmək üçün zəruri olan müqayisə və təhlil proseslərini avtomatlaşdırır və daha sürətli həyata keçirilməsinə şərait yaradır. Beləliklə, müasir elektron sistemlər saxta əşyaların aşkar edilməsi və identifikasiyasında effektiv və dəqiq bir alət kimi çıxış edir.

Nəticə etibarilə, muzeylərin müasir standartlara tam uyğun şəkildə fəaliyyət göstərə bilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi və müasir tələblərə cavab verən infrastrukturların yaradılması zəruridir. Bu kontekstdə kolleksiyaların orijinallığının təsdiqi və saxta nümunələrin aşkarlanması məqsədilə müasir laboratoriyaların muzey strukturlarına inteqrasiyası strateji əhəmiyyət daşıyır. Belə laboratoriyalar eksponatların təhlilinin yüksək dəqiqliklə həyata keçirilməsinə, həmçinin saxta nümunələrin aşkarlanmasına imkan yaradır. Müasir texnologiyaların, o cümlədən izotop analizləri, radiokarbon testləri və digər elmi-tədqiqat üsullarının tətbiqi sayəsində eksponatların yaşını, mənşəyini və struktur xüsusiyyətlərini

müəyyən etmək mümkün olur ki, bu da muzey kolleksiyalarının elmi və tarixi dəyərinin qorunması baxımından vacibdir. Bununla yanaşı, belə laboratoriyalar həm də muzeylərin beynəlxalq standartlara uyğunluğunu artırmaqla yanaşı, onların elmi-tədqiqat mərkəzi kimi fəaliyyət göstərməsinə şərait yaradır. Odur ki, muzeylərin inkişafında texniki və elmi imkanların artırılması prioritet olmalı və bu istiqamətdə sistemli yanaşmalar tətbiq edilməlidir.

## 10.YENİ DAXİL OLMUŞ ƏŞYALARIN QEYDİYYAT PRİNSİPLƏRİ. KOMPLEKS MİKRO-ANALİTİK MÜHAFİZƏ. İNVENTARİZASİYA

Muzey kolleksiyasına **yeni daxil olan əşyaların qeydiyyatı** muzey idarəçiliyinin əsas funksiyalarından biri olmaqla, eksponatların elmi, tarixi və mədəni əhəmiyyətinin təsdiqlənməsi, onların idarə olunması və mühafizəsi üçün ilkin və zəruri mərhələdir. Bu proses çərçivəsində hər bir yeni əşya sistemli şəkildə sənədləşdirilir, onların mənşəyi, əldə edilməsi haqqında məlumatlar, fiziki vəziyyəti, texniki xüsusiyyətləri və mümkün dövri təsnifatları ətraflı şəkildə qeyd olunur. Qeydiyyat prosedurunun əsasında hər bir obyekt üçün unikal identifikasiya nömrəsi təyin edilir və bu nömrə vasitəsilə obyektin məlumatları mərkəzləşdirilmiş verilənlər bazasına daxil edilir. Bütün bu proseslər dürüst şəkildə həyata keçirilməlidir və müvafiq hüquqi aktla rəsmiləşdirilməlidir. Bu sənədlər əşyaların hüquqi statusunu

müəyyən edir və onların mühafizəsi üçün əsaslı hüquqi baza yaradır.

Muzeyə daxil olma zamanı qəbul-təhvil aktında qeyd olunması vacib olan punktlara qəbul tarixi, kimdən və haradan alınması, kimə və haraya təhvil verilməsi, kimin sərəncamı ilə qəbul-təhvili, daimi və ya müvəqqəti müddətə verilməsi, əşyaların adlarının ardıcıllıqla sıralanması, hər birinin təsvirinin ayrılıqda verilməsi, onların ölçüləri, material növləri, qiymətli olub-olmaması, vəziyyəti, qablaşdırma materialı, daşınma şərtləri, əşyanın əvvəlki nömrəsi və kodu, laborator analiz cavablarını əks etdirən akt nömrəsi, radioloji təhlükəsizliyini əks etdirən akt nömrəsi, əşya satın alınıbsa (yaxud bağışlanıbsa) onun alış-satış müqaviləsi və ya bağışlanma müqaviləsinin notarial təsdiq olunmuş surəti və müqavilə nömrəsi daxildir. Əgər xüsusi tarixçəsi olan əşyadırsa bu haqda qısa məlumat da aktda qeyd olunmalıdır. Qiymətli metallardan və daşlardan hazırlanmış əşyaların qəbul və təhvil prosesi respublikanın Mədəniyyət və Turizm Nazirliyinin müvafiq normativ tələbləri və təlimatlarına əsasən həyata keçirilir. Silahların qəbul və təhvil prosesi müvafiq yüksək səlahiyyətli qurumların və polis orqanlarının icazəsi ilə, müəyyən edilmiş hüquqi prosedurlara uyğun şəkildə həyata keçirilir. Mühafiz, qeydiyyat apararaq əşyaların siyahısı, fond-satınalma komissiyasının qərarı, həmçinin əşyaların sahibinə geri qaytarılması və ya elmi şöbələrə təqdim

edilməsi ilə bağlı məlumatları qeydiyyat kitabında yazır və onlar üçün xüsusi kartotekalar hazırlayır. Yalnız direktorun rəsmi imzası ilə əhatə olunmuş aktlar müvafiq olaraq möhürlənir. Bu rəsmiləşdirmə olmadan, yəni nə direktorun imzası, nə də muzeyin möhürü olmadan, aktlar icra edilməyə və qəbul olunmağa uyğun sayılmır. Daha sonra aktın bir nüsxəsi baş mühafizdə və ya fond müdirində qalır, digər bir nüsxəsi əşyanın mühafizəyə verildiyi şöbəyə verilir, başqa bir nüsxəsi isə əşyanı təhvil və qəbul edən şəxsə verilir. Əgər əşya müvəqqəti olaraq qeydiyyata alınıb təhvil verilirsə, bu zaman hər iki tərəf arasında, həm əşyanı təhvil verən, həm də təhvil alan arasında müqavilə bağlanır.

Qeydiyyatın bəzən qrup halında da aparılması mümkündür. Belə ki, eyni cinsdən olan və sayı çox olan əşyalar (metal sikkələr, fotomateriallar, qrafika kolleksiyaları və s.) müəyyən bir tarixdə muzeyə daxil ola bilir. Nümunə olaraq qeyd etmək olar ki, məsələn, əgər daxilolma kitabının sıra nömrəsi 310-dursa və daxil olan əşyaların sayı 912 ədəddirsə, daxilolma kitabında (DK) onun qeydiyyatı zamanı kitabın sıra nömrəsinə uyğun olaraq DK-310-912 şəklində kodlaşdırılmalıdır. Əşyaların qeydiyyatı zamanı muzeyin adı da qısa şəkildə baş hərfləri yazılaraq qeyd olunmalıdır. Məsələn, Arxeologiya və Antropologiya Muzeyi üçün bu kodlaşma AAM DK-310-912 kimi yazılmalıdır. Başqa bir nümunə: Təbiət Tarixi Muzeyinə 2022-ci ilin dekabr ayında bitki herbariləri kolleksiyası daxil

olub. Bu kolleksiya eyni növ (botaniki nümunələr) olduğuna görə qrup şəklində qeydiyyata alınır. Daxilolma kitabında bu məlumatlar aşağıdakı qaydada qeyd edilir:

Daxilolma kitabının sıra nömrəsi: 458

Daxil olan əşyaların (herbari vərəqlərinin) ümumi sayı: 276 ədəd

Belə halda kodlaşdırma aşağıdakı kimi yazılır:

TTM DK-458-276

Burada:

TTM – Təbiət Tarixi Muzeyi (muzeyin qısa adı),

DK – Daxilolma Kitabı,

458 – kitabın sıra nömrəsi,

276 – daxil olan əşyaların ümumi sayı.




*Yeni daxil olan əşyaların qrup halında kodlaşdırılması*

Numizmatik kolleksiyaların qeydiyyatı zamanı isə, məsələn, alternativ olaraq, əgər kolleksiyanın tərkibinə daxil olan obyektlərin miqdarı 20 ədəddirsə, daxilolma kitabının

nömrəsi 311-dirsə, qeydiyyat, obyektlərin sayına uyğunlaşdırılaraq drop xətti ilə DK-nın sıra nömrəsindən ayrılı və DK-311/1-20 şəkildə olur. Yalnız kolleksiyanın tərkibindəki əşyaların tam siyahısı əldə edildikdən sonra, kolleksiyanın hər bir elementinin qeydiyyat kitabına bu cür daxil edilməsi mümkün ola bilir. Belə tip qrup qeydiyyatı qiymətli metal və ya daşlardan düzəldilmiş əşyalar üçün keçərli deyil. Qiymətli daş-qaş və ya metal əşyalar digər kolleksiyalarla qarışdırıla bilməz.

Yeni daxil olan əşyaların qeydiyyatı və uçot nişanlarının kodlaşdırılması zamanı nəzərə alınmalı olan əsas prinsipləri aşağıdakı kimi qruplaşdırmaq olar.

1.Unikal olmalıdır. Kodlaşdırma sistemində hər bir əşya üçün unikal bir kod verilməlidir. Bu, kolleksiyanın hər bir obyektinin ayrılmasına və təsadüfi qarışıqlığın qarşısını almağa kömək edir. Kodların təkrarlanmaması vacibdir, çünki təkrarlanan kodlar eyni kodu daşıyan əşyaların qarışmasına səbəb ola bilər. Məsələn, Bir muzeydəki "Rəsm Kolleksiyası"nda bir neçə əşyaya eyni kod verilərsə (məsələn, "R001"), əşyaların qarışması və ya düzgün izlənməməsi mümkündür. Ona görə də, hər bir rəsm əsərinə unikal kod verilir, məsələn, "ART-001", "ART-002" və s. Bu kodlar yalnız həmin əsərə aid olmalı və təkrarlanmamalıdır.

2.Sadə və başa düşülən olmalıdır. Həm muzey əməkdaşları, həm də tədqiqatçılar üçün bu sistemin aydın olması vacibdir. Müxtəlif və qarışıq kodlardan

qaçınılmalıdır, çünki bu, əşyaların düzgün izlənməsini çətinləşdirə bilər. Məsələn, "A123456B" kimi uzun və qarışıq kodlar əvəzinə "Rəsm-01" və ya "R-001" kimi sadə və aydın kodlar istifadə edilə bilər. Bu kodlar həm muzey işçiləri, həm də sərgi ziyarətçiləri üçün daha asanlıqla anlaşıla bilər.

3.Kolleksiya üzrə uyğun identifikasiya göstərilməlidir. Məsələn, bir muzeydəki sənət əsərləri ilə arxeoloji əşyaların kodları fərqli olmalıdır ki, bu da əşyaların düzgün sıralanması və tapılmasını asanlaşdırar. Bu, həmçinin məlumatların düzgün şəkildə saxlanması və siniflǝndirilməsi üçün vacibdir. Məsələn, "001" kodu həm sənət əsəri, həm də arxeoloji əşya üçün istifadə edildikdə qarışıqlıq yarana bilər, əksinə, "ART-001" (sənət əsəri), "AR-001" (arxeoloji əşya) kimi doğru kodlaşdırma tətbiq olunarsa, hər bir kolleksiya üzrə aydınlıq yaranar. Bundan başqa, eyni kod altında həm qədim metal əşyalar, həm də müasir keramika əşyaları yerləşdirilsə, bu, əşyaların təhlilini və müqayisəsini çətinləşdirə bilər. Məsələn, "METAL-001" (metal əşya), "CERAMIC-001" (keramika əşyası) və s. kimi kodlaşma daha aydın və düzgün kodlaşdırma sayılır.

Kodlaşdırma qaydaları həm daxili, həm də beynəlxalq standartlara uyğun olmalıdır. Bu, yalnız bir muzeyin daxilində deyil, həmçinin müxtəlif muzeylər arasında məlumatların mübadiləsini asanlaşdırır. Zamanla yeni kolleksiyalar əlavə edilərkən uçot sisteminin də

davamlı yenilənməsi vacibdir. Bunun üçün əşyaların kodları həm fiziki, həm də rəqəmsal şəkildə qorunmalıdır.

Beləliklə, hər muzey özünəməxsus formada təyin etdiyi nömrələmə sistemi həyata keçirir. Hər hansı bir nömrələmə sistemi seçərkən yuxarıda da qeyd olunan əsas amillər nəzərə alınmalıdır. Məsələn, dünya muzeylərinin bir çoxunun şəxsi portallarında geniş tətbiq olunan "CatalogIt" muzey hesabı standart üçhissəli bir sistemə əsaslanır. Bu üç hissə: il, kolleksiya və obyekt nömrəsidir. Məsələn: 2021.3.1, 2021-ci ildə üçüncü kolleksiyadan alınan ilk (1-ci) obyekti göstərir. Bu sistem həm təşkilatlar, həm də özəl kolleksiya sahibləri üçün rahat bir şəkildə uyğunlaşdırıla bilər. Əgər bir və ya bir neçə əşya kodlaşdırılırsa, "il" ilə başlamaq olar – məsələn, 2021. İkinci nömrə əşyanın qəbul qrupunu göstərir – bir yerdə əldə etdiyiniz əşyaları qeyd etmək üçün istifadə edilə bilər. Üçüncü nömrə isə əşyanın nömrəsidir. Əgər yalnız bir əşya kodlaşdırılırsa, nömrə 2021.3.1 olmalıdır. Əgər bir neçə əşya kodlaşdırılırsa: 2021.3.1, 2021.3.2, 2021.3.3 və s. olaraq davam etməlidir. Bir əşyanın hissələrini göstərmək üçün hərf əlavə etmək də faydalıdır. Məsələn, bir çaydanlıq və onun qapağı: 2021.4.1.a (çaydanlıq) və 2021.4.1.b (qapaq). Bu şəkildə obyektin hissələrini asanlıqla təyin etmək olar. Hansı nömrələmə sisteminin seçilməsindən asılı olmayaraq, ardıcıllığı qorumaq əsasdır. Kolleksiyanın başqaları tərəfindən də asan

başa düşülməsi üçün qısa bir nömrələmə qaydası yaratmaq hər zaman faydalı hesab olunur.

**Kompleks mikro-analitik mühafizə** əşyaların qorunması və mühafizəsi sahəsində müasir elmi yanaşmaların birləşdirildiyi bir metodologiyadır. Bu, əşyaların kimyəvi, fiziki və struktural xüsusiyyətlərini təhlil edərək onların saxlanılması və qorunması üçün optimal şəraitin yaradılmasına imkan verir. Əşyaların mikromühafizəsi qaydaları aşağıdakı əsas prinsiplər üzrə qurulmuşdur.

Mikrostrukturun mühafizəsi: Mikrostruktur dedikdə əşyanın daxili quruluşu, onun materialının fiziki və kimyəvi xassələri nəzərdə tutulur. Əşyaların mikrostrukturunun qorunması üçün onların üzərində heç bir fiziki təsir və müdaxilə edilməməlidir. Hər bir əşya, onun material xüsusiyyətlərini pozmamaq şərti ilə mühafizə edilməlidir. Bu, mikrostrukturun dəyişməsi və əşyanın zamanla zədələnməsinin qarşısını alır. Belə ki, istənilən mexaniki təsir – istər təmizləmə, istər bərpaetmə prosesi zamanı tətbiq olunan fiziki müdaxilə – materialın ilkin xüsusiyyətlərini poza bilər. Xüsusilə qədim metal əşyalar, keramika nümunələri, parça və kağız məmulatları mexaniki təsirlər nəticəsində öz mikrostrukturunda deformasiyaya uğrayaraq dəyərini itirə bilər. Məsələn, arxeoloji qazıntılar zamanı tapılmış qədim mis sikkələrin təmizlənməsi prosesində kimyəvi reagentlərdən istifadə edilməsi misin oksidləşmiş

qatını tamamilə aradan qaldıra bilər. Bu halda sikkənin səthi parlaq görünsə də, onun mikrostrukturu zədələnmiş olur və nəticədə materialın davamlılığı azalır. Eyni zamanda, qədim kağız sənədlərinin bərpasında yanlış metodlardan istifadə edildikdə onların lifli strukturu zədələnə bilər ki, bu da sənədin fraqmentlərə ayrılmasına və hətta məhv olmasına səbəb ola bilər.

Kimyəvi qorunma: Əşyaların üzərində kimyəvi dəyişikliklər və reaksiyaların qarşısını almaq üçün xüsusi qoruyucu qatlar tətbiq oluna bilər. Bu proses, əsasən, əşyaların səthində baş verə biləcək kimyəvi reaksiyaların qarşısının alınması, korroziya və oksidləşmə kimi zərərverici təsirlərin minimallaşdırılması və ətraf mühitin neqativ təsirlərindən müdafiəni əhatə edir. Metal əşyalar, xüsusilə dəmir və mis əsaslı eksponatlar rütubət və oksigenin təsiri altında korroziyaya məruz qalır. Korroziya prosesi metalın səthində oksidlərin və hidroksidlərin yaranmasına səbəb olur ki, bu da materialın strukturunu zəiflədir. Bu cür təsirlərin qarşısını almaq üçün eksponatların üzərinə inhibitorlar (məsələn, benzotriazol kimi) və ya qoruyucu örtüklər (məsələn, mikrokristal mum və ya polimer əsaslı qoruyucu təbəqələr) tətbiq edilir. Müxtəlif materiallar, o cümlədən bürünc və gümüşdən hazırlanmış əşyalar zamanla oksigen və digər atmosfer komponentləri ilə reaksiyaya girərək oksidləşir. Gümüş əşyalar qaralır (sulfidləşmə prosesi), bürünc eksponatlar isə,

yaşıl patina ilə örtülə bilər. Bu prosesi ləngitmək üçün eksponatlar azot və ya arqon qazı ilə doldurulmuş mühafizə mühitlərində saxlanılır və ya səthlərinə antioksidant qoruyucu maddələr çəkilir. Muzeylərdə havada olan turşular, sulfidlər və digər kimyəvi çirkləndiricilər eksponatların strukturuna mənfi təsir göstərə bilər. Məsələn, havada olan kükürd dioksid kağız və parça materialları üçün təhlükəlidir, çünki sellülozanın deqradasiyasına səbəb olur. Bu təsirləri azaltmaq üçün müasir konservasiya laboratoriyalarında kimyəvi filtrasiya sistemlərindən istifadə edilir və eksponatlar xüsusi inert materiallardan hazırlanmış qutularda saxlanılır. Məsələn, Luvr Muzeyində saxlanılan qədim bronz heykəllər uzun illər ərzində atmosferdəki nəmlik və turşu yağışlarının təsirindən oksidləşmiş və korroziyaya uğramışdır. Onların qorunması üçün əvvəlcə kimyəvi analiz aparılmış, korroziya qatları xüsusi reagentlər vasitəsilə təmizlənmiş, daha sonra isə səthlərinə benzotriazol əsaslı qoruyucu qat tətbiq olunmuşdur. Bu üsul metalın gələcəkdə oksigen və rütubətlə təmasını minimuma endirərək onun daha uzun müddət qorunmasını təmin etmişdir.

Spektral analitik təhlil: Əşyaların orijinallığını müəyyən etmək və onların dəyişikliklərini izləmək üçün izotop analizləri və spektral təhlil metodları tətbiq olunur. Bu təhlillər əşyaların kimyəvi tərkibini müəyyən edir və onların hər hansı bir müdaxilədən sonra yaranan

fərqliliklərini ortaya çıxarır. Spektral analizlər vasitəsilə muzey eksponatlarının orijinallığı və mənşəyi haqqında dərin bilgilər əldə edilir. Məsələn, mis döyüş baltalarının izotop analizi onların filiz yataqlarına əsasən hansı bölgədə istehsal edildiyini müəyyən etməyə imkan verir. Əgər əşyanın izotop tərkibi gözlənilən dəyərlərdən fərqlənirsə, bu onun ya rekonstruksiya edildiyini, ya da saxtalaşdırıldığını göstərə bilər.

Mikroskopik mühafizə: Əşyaların mikrostrukturunun dəqiq şəkildə araşdırılması üçün mikroskopik yoxlamalar aparılır. Bu yoxlamalar muzey eksponatlarının səthində baş verən dəyişiklikləri, rənglərin deqradasiyasını, mikroçatları, korroziyanı və ya bioloji təsirləri (məsələn, kif, bakterial infeksiyalar) müəyyən etməyə imkan verir. Bu analizlər materialın morfoloji strukturu haqqında ətraflı məlumat əldə etməyə, həmçinin zədələnmənin ilkin mərhələlərində qarşısının alınmasına şərait yaradır. Mikroskopik mühafizə prosesi materialın fiziki və kimyəvi xüsusiyyətlərinin dəqiq müəyyən edilməsinə, onların dəyişikliklərinin izlənilməsinə və potensial zədələnmələrin vaxtında aşkarlanmasına imkan yaradır. Mikroskopik mühafizədə bir neçə müasir texnika tətbiq olunur: Optik Mikroskopiya – Əşyaların səthi strukturunu öyrənmək üçün istifadə olunur. Xüsusilə boya qatlarının, ipək və ya kağız kimi həssas materialların strukturunun tədqiqində əhəmiyyətlidir. Elektron Mikroskopiya (SEM – Scanning Electron Microscopy) –

Yüksək böyütmə və detallı analiz üçün istifadə olunur. Bu üsul vasitəsilə materialın tərkibi və mikroçatların miqyası müəyyən edilə bilər. Raman Spektroskopiyası və FTIS (Fourier-Transform Infrared Spectroscopy) – Əşyaların kimyəvi tərkibini araşdırmaq üçün tətbiq edilir. Rəng piqmentlərinin və orqanik komponentlərin analizi üçün geniş istifadə olunur. Məsələn, bir muzeydə qorunan qədim rəsm tablosu zamanla solğunlaşa bilir və boya qatlarında mikroçatlar əmələ gələ bilir. Optik mikroskopiya vasitəsilə əvvəlcə çatların dərinliyi və miqyası müəyyən edilir. Daha sonra Raman spektroskopiyası tətbiq olunaraq boya piqmentlərinin tərkibi öyrənilir. Nəticədə, rənglərin deqradasiyasına səbəb olan amillər aşkar edilir və uyğun mühafizə tədbirləri görülür.

Mühafizə şərtləri və temperatur rejimləri: Əşyaların saxlanma şərtləri mikromühafizənin əsas elementlərindən biridir. Temperatur, rütubət və işıq şərtləri düzgün tənzimlənməli, zərərli amillərin qarşısı alınmalıdır. Xüsusilə, quru və soyuq mühitdə saxlanma əşyaların materiallarını qorumaq üçün ideal şərait yaradır.

Qoruyucu qablaşdırma və mühafizə: Mikromühafizə, həmçinin əşyaların uyğun şəkildə qablaşdırılmasını da tələb edir. Keçiriciliyi və mikrostrukturu həssas və ya qeyri-həssas olan materiallar seçilməli və uyğun olaraq qablaşdırma zamanı tətbiq edilməlidir. Bu, əşyaların xarici təsirlərdən qorunmasına və onların struktural bütünlüyünün təmin

olunmasına yönəldilmişdir. Qablaşdırma materialları əşyaların xüsusiyyətlərinə uyğun seçilməlidir və onların uzun müddət saxlanılmasına imkan yaratmalıdır.

Zərərli faktorların izlənməsi: Əşyaların mühafizəsi zamanı atmosferin tərkibindəki zərərli maddələrin və mikroorqanizmlərin də əşyaların üzərində təsirinin izlənməsi vacibdir. Mikroorqanizm və ya kimyəvi tullantıların əşyaların üzərinə təsir etməsi onların vaxtından əvvəl zədələnməsinə səbəb ola bilər. Bu kontekstdə atmosferin kimyəvi tərkibi, mikrobioloji çirklənmə və digər ekoloji faktorların monitorinqi aparılmalıdır. Xüsusilə də kağız, parça, metal və taxta kimi materiallar bu cür təsirlər nəticəsində sürətlə zədələnə bilər. Məsələn, tarixi kağız materiallar rütubət və kif göbələklərinin təsiri nəticəsində saralır, dağılır və üzərində ləkələr əmələ gəlir. Taxta eksponatlar isə müəyyən bakterial və göbələk növləri tərəfindən məhv edilə bilər. Bununla yanaşı, metal əşyalar atmosferdəki rütubət və zərərli qazlarla reaksiyaya girərək oksidləşməyə (paslanmaya) məruz qalır. Məsələn, bürünc eksponatlar havadakı sulfidlərə məruz qaldıqda, üzərində yaşıl rəngli patina təbəqəsi yaranır ki, bu da materialın tədricən zədələnməsinə gətirib çıxarır. Qabaqlayıcı tədbirlər görülmədiyi təqdirdə, bənzərsiz tarixi və mədəni dəyərlər daimi deqradasiyaya məruz qala bilər.

**İnventarizasiya.** Muzey və digər təşkilatlarda əşyaların, varlıqların və materialların dəqiq siyahıya

alınması, qeydiyyata alınması və vəziyyətinin izlənməsi inventarizasiya adlanır. İnventarizasiya prosesi əşyaların mövcudluğunu, saxlanma şəraitini və onların idarə olunmasını təmin etməyə yönəlib. Muzeylərdə və digər sənət kolleksiyalarında inventarizasiya həm eksponatların qorunması, həm də hüquqi və təşkilati məqsədlərlə vacibdir. Bu proses əşyaların mülkiyyət hüququnu, vəziyyətini və onlarla bağlı bütün məlumatları sistemli şəkildə toplayır.



*Əşyaların inventarizasiya üçün hazırlanması*

İnventarizasiya prosesi ümumilikdə əşyaların qeydiyyatı, fiziki yoxlama və vəziyyətin təhlili, fotoşəkil çəkmək və sənədləşdirmək, əşyaların etiketlənməsi və kodlaşdırılması, əşyaların yerinin qeydiyyatı, inventar kitabı, elektron məlumat bazası və hesabat mərhələlərindən ibarətdir. İnventarizasiya prosesində əldə olunan muzey materiallarının düzgün bölüşdürülməsi mühüm əhəmiyyət kəsb edir. Bu mərhələdə bütün materiallar müvafiq kolleksiya bölmələri arasında düzgün şəkildə paylanır və hər bir bölməyə xüsusi bir şifrə təyin edilir. Bu şifrələr

əşyaların müvafiq olaraq müəyyən bir bölmə ilə əlaqələndirilməsinə və onların düzgün qeydiyyatının aparılmasına imkan yaradır. Məsələn, heykəltəraşlıq əsərləri üçün H şifrəsi, qrafika əsərləri üçün Q, boyakarlıq əsərləri üçün B şifrəsi verilir. Arxeoloji kolleksiyalar Arx, fotolar isə F şifrəsi ilə qeydiyyata alınır. Əlavə olaraq, ayrı-ayrı şöbələr üzrə kodlaşdırılan zaman əşyaların asanlıqla axtarılması və tapılması üçün həmin şöbənin baş hərflərini də koda daxil etmək lazımdır. Məsələn, Yaponiya İncəsənət şöbəsindən olan bir tabloya YİŞ/B kodu, İtaliya İncəsənət şöbəsindən olan bir heykəltəraşlıq əsərinə İİŞ/H kodu verilməlidir. Əgər əşya Türkiyə İncəsənət şöbəsinə aid bir qrafikadırsa, onun kodu TİŞ/Q, və yaxud bu muzey əşyası arxeoloji qazıntılardan aşkara çıxarılmış heykəltəraşlıq əsəridirsə, o zaman kodlaşma TİŞ/Arx-Q şəklində olacaq. Bu inventarizasiya sistemi əşyaların izləyişini təmin edərək, muzeyin fondlarının idarə edilməsini daha sistematik və şəffaf edir. Əgər əşya bir yox , bir neçə hissədən ibarətdirsə, onda əşyanın hər bir hissəsi də ayrılıqda nömrələnir. Məsələn, Arx-255 nömrəli arxeoloji qazıntıdan tapılan qapaqlı dolça üçün inventarizasiya kodlaşması onun qapağı üçün 255/1 və alt hissəsi üçün isə 255/2 olacaqdır. Dəst şəklində olan əşyaların tərkibinə daxil olan bütün hissələr ayrıca nömrələnməlidir. Fotoalbomların və ya rəsm albomlarının vərəqləri də ayrıca nömrələnməlidir. Hər bir vərəq vahid inventar nömrəsindən drop xətti ilə (/)

ayrılmalıdır. Rəsm albomunun vərəqləri ayrı-ayrı rəssamların əsərləri olarsa, bu halda onlar ayrılıqda inventarizə edilməlidir.

Muzey əşyalarının inventarlaşma prosesində cədvəl tərtib edilməsi və müvafiq qrafaların yaradılması əşyaların qeydiyyatını və idarə olunmasını sistematikləşdirən mühüm bir vasitədir. Bu cədvəl əşyaların identifikasiyası, təsnifatı və izləyişinin təmin olunması üçün zəruri məlumatları əks etdirməlidir. Cədvəldə yerləşdirilən qrafalar hər bir əşyanın fərdi xüsusiyyətlərini və hüquqi statusunu ətraflı təsvir edən məlumatları əks etdirmək üçün hazırlanır. Cədvələ daxil edilən qrafalar - *İnventar nömrəsi:* Hər bir əşyaya verilən unikal nömrə, onun digər əşyalardan fərqləndirilməsi üçün istifadə olunur. *Şifrə:* Əşyanın aid olduğu bölmə və ya kolleksiya haqqında məlumat verir. *Ad və təsvir:* Əşyanın adı, qısa təsviri, ölçüləri, materialı və texniki xüsusiyyətləri burada əks etdirilir. *Mənşəyi:* Əşyanın əldə edildiyi mənbə (hədiyyə, satınalma və ya qazıntılar) və onun tarixi haqqında məlumat bu qrafada göstərilir. *Daxilolma tarixi:* Əşyanın muzey fonduna daxil olduğu tarix qeyd olunur. *Saxlanma yeri:* Əşyanın muzey daxilində yerləşdirildiyi konkret bölmə, vitrin və ya saxlanma məkanı haqqında məlumat daxil edilir. *Qorunma vəziyyəti:* Əşyanın fiziki və estetik vəziyyəti, onun mühafizə dərəcəsi və ya bərpa ehtiyacı bu qrafada əks olunur. *Foto və ya digər vizual sənədlər:* Əşyaya dair çəkilmiş fotoşəkillər və ya skan edilmiş

sənədlərin mövcudluğu qeyd edilir. *Hüquqi status:* Əşyanın mülkiyyət hüququ, sərgilənmə və ya müvəqqəti təhvilvermə halları haqqında məlumat burada öz əksini tapır.

Bu cədvəl inventar kitabları ilə yanaşı, həm elektron, həm də kağız formatda saxlanmalı və müvafiq mühafizə tədbirləri ilə qorunmalıdır.

## 11.MUZEY FİLİALLARINDA FONDLARIN UÇOTU QAYDALARI. FONDLARIN RADİASİYA TƏHLÜKƏSİZLİYİ

Muzey filialı, adətən muzeyin əhatə dairəsini genişləndirmək, müxtəlif kolleksiyaları nümayiş etdirmək və ya müəyyən coğrafi və ya mədəni auditoriyaya xidmət göstərmək üçün yaradılan əsas muzeyin əlavə yeri və ya törəmə müəssisəsinə aiddir. Muzey filiallarının *əsas xüsusiyyətləri*, onların əsas muzeyin strukturuna inteqrasiya edilmiş, lakin müstəqil fəaliyyət imkanlarına malik olan təşkilati vahidlər kimi fəaliyyət göstərməsini müəyyən edir. Muzey filialları, adətən, müəyyən bir coğrafi bölgədə və ya spesifik bir tematik sahədə fəaliyyət göstərərək, mədəni irsin yerli kontekstdə tədqiqi, qorunması və təqdim olunmasına fokuslanır. Onların fəaliyyətində əsas məqsəd mərkəzi muzeyin missiyasını genişləndirmək və daha geniş auditoriyaya çatdırmaqdır. Bu filiallar öz yerli əhəmiyyətli kolleksiyaları və sərgiləri vasitəsilə mədəniyyətin müxtəlif aspektlərini əks etdirərək, regional mədəni irsin qorunmasına töhfə verir. Muzey filiallarının əsas

xüsusiyyətlərindən biri onların fondların saxlanması və idarə edilməsi üçün müvafiq infrastruktur və resurslara malik olmasıdır. Filiallar, adətən, müstəqil uçot və inventar sisteminə malikdir, lakin bu sistemlər mərkəzi muzeylə inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərir. Onların fəaliyyəti həm elmi-tədqiqat işlərini, həm də maarifləndirmə və təhsil proqramlarını əhatə edir. Bu qurumlar yerli icmalarla sıx əməkdaşlıq quraraq, onların mədəni iştirakçılığını artırır və mədəni irsin qorunmasında ictimai dəstəyi gücləndirir. Muzey filiallarının sərgilər və tədbirlər təşkil etmək qabiliyyəti onların əsas muzeylə əlaqəli layihələrdə iştirakını, həmçinin müstəqil sərgilərin və proqramların həyata keçirilməsini mümkün edir. Eyni zamanda, filiallar mərkəzi muzeyin resurslarını paylaşır və onun texniki, elmi və inzibati dəstəyindən faydalanır. Bəzi hallarda filiallar müəyyən tematik sahələrə və ya xüsusi kolleksiyalara həsr olunmuşdur ki, bu da onların unikal mövqeyini və ixtisaslaşma səviyyəsini artırır. Muzey filiallarının coğrafi və tematik müxtəlifliyi əsas muzeyə strateji əlavə dəyər qataraq, mədəni irsin qorunması və təbliği üzrə ümumi missiyanı genişləndirir.

Muzeylər kolleksiyalara bərabər girişin hər kəs üçün reallığa çevrilməsi üçün daha sıx əməkdaşlıq etməlidir. Muzeylər artıq bir çox sahələrdə birgə fəaliyyət göstərirlər. Dünya Muzeylər Assosiasiyası hesab edir ki, mövcud əlaqələrin rəsmi şəkildə qurulması və genişləndirilməsi

böyük faydalar gətirə bilər. Bu qurum, hər biri müəyyən bir mövzu sahəsi ilə məşğul olan bir sıra şəbəkələrin yaradılmasını təklif edir. Bununla bütün növ muzeylər, o cümlədən milli muzeylər bu şəbəkələrin bir hissəsi olmaq imkanı əldə edəcəklər. Bu şəbəkələr əlaqəli kolleksiyalara malik muzeyləri bir araya gətirəcək, resursları paylaşmağa, mütəxəssis biliklərini birləşdirməyə və milli kolleksiya anlayışını praktik bir reallığa çevirməyə kömək edəcəkdir. Muzeylərdə milli kolleksiya ideyasına tez-tez istinad edilir. Ən sadə şəkildə, bu, milli əhəmiyyət daşıyan obyektlərin ölkə üzrə muzeylərdə yayılması deməkdir. Təklif edilən şəbəkələrin muzey kolleksiyalarına müəyyən bir struktur gətirəcəyi güman edilir. Bu təklif üzrə maliyyələşdirmə seçimləri də detallı şəkildə araşdırılmalıdır. Şəbəkələr xüsusilə aşağıdakı sahələrə fokuslanacaqdır: əlaqə yaratmaq, kolleksiya toplamaq, kolleksiya idarəçiliyi və mütəxəssis biliklərinin paylaşılması. Bütün təkliflər muzeylərin kolleksiyalarına açıq və əməkdaşlıq prinsipləri əsasında yanaşmalarını tələb edəcək. Muzeylər kolleksiyalarını özlərinə aid deyil, ümumi bir resurs kimi qəbul etməlidir. Bu yanaşma ayrı-ayrı muzeylər üçün böyük faydalar gətirə bilər, lakin bu faydalar kolleksiyaları və resursları digər muzeylərlə və onların istifadəçiləri ilə sərbəst şəkildə paylaşmaq məsuliyyətini də özündə daşımalıdır. Muzeylər kolleksiyalarını gücləndirmək və genişləndirmək üçün birgə işləməlidirlər. Bu şəbəkələr

strateji yanaşma tətbiq edə bilər ki, muzey kolleksiyalarına daxil edilən və çıxarılan əşyalar artıq təsadüfi deyil, daha məqsədyönlü olsun. Onlar filiallarda, lazım gəldikdə, beynəlxalq miqyasda öz mövzu sahələrində kolleksiyaların mənzərəsini qurmalıdırlar. Muzey nümayəndələri birgə olaraq kolleksiya əldəetmə prioritetlərini razılaşdırmalıdılar ki, fərdi muzeylərin kolleksiya əlavələri yalnız öz kolleksiyalarındakı deyil, həm də daha geniş ictimai sahədə olan məlumatlarla tam şəkildə təmin edilsin.

*Muzey filiallarının qarşılaşdığı problemlər,* onların fəaliyyətində effektivliyin təmin olunmasına maneə yaradan müxtəlif idarəetmə, maliyyə, texniki və ictimai çətinliklərdən ibarətdir. Bu problemlər adətən filialların coğrafi yerləşməsi, resurs məhdudiyyətləri və təşkilati struktur ilə bağlı olur. İlk növbədə, maliyyə resurslarının məhdudluğu muzey filiallarının əsas problemlərindən biri kimi çıxış edir. Əksər hallarda filiallar əsas muzeydən ayrılmış büdcə vəsaitləri ilə məhdudlaşır ki, bu da onların fondların qorunması, yeni eksponatların əldə edilməsi, texnoloji yeniliklərin tətbiqi və təhsil proqramlarının genişləndirilməsi imkanlarını məhdudlaşdırır. Digər tərəfdən, filialların yerləşdiyi bölgələrin infrastrukturu və nəqliyyat imkanları onların ziyarətçi axını üçün əlçatanlığına mənfi təsir göstərir. Bu, filialların cəlbediciliyini və gəlirliliyini azaldaraq, onların davamlı fəaliyyəti üçün əlavə çətinliklər yaradır. Eyni zamanda,

filiallar bəzən müasir saxlanma və konservasiya texnologiyaları ilə təchiz olunmur, bu da onların kolleksiyalarının uzunmüddətli mühafizəsi üçün risk yaradır. Kadr çatışmazlığı da vacib problemlərdən biridir, belə ki, filiallar çox vaxt ixtisaslaşmış mütəxəssislərin cəlb edilməsi və saxlanması ilə bağlı çətinliklərlə üzləşir. İdarəetmə və koordinasiya məsələləri də filiallar üçün mühüm çağırışlar yaradır. Mərkəzi muzey ilə filiallar arasında kommunikasiya və resurs paylaşımı bəzən qeyri-effektiv ola bilər ki, bu da onların strateji məqsədlərinə çatmasını çətinləşdirir. Bundan əlavə, filialların yerli icmalarla qarşılıqlı əlaqəsinin zəif olması onların sosial əhəmiyyətini azaldır və ictimai dəstəyi zəiflədir. İqlim dəyişikliyi, rütubət, temperatur və digər ekoloji faktorlar da xüsusilə kövrək eksponatların saxlanması və mühafizəsində problemlər yaradır. Bu problemlərin həlli məqsədilə muzey filiallarının maliyyə dəstəyi artırılmalı, müasir texnologiyaların tətbiqi genişləndirilməli və yerli icmalarla əməkdaşlıq gücləndirilməlidir. Bununla yanaşı, filialların idarəetmə sistemlərinin optimallaşdırılması, mərkəzi muzeylə daha sıx əlaqələrin qurulması və peşəkar kadrların hazırlanması üçün xüsusi proqramlar həyata keçirilməlidir.

Muzey filialları adətən əsas muzeyin bir hissəsi kimi fəaliyyət göstərir, lakin fərqli bir məkanda yerləşərək xüsusi bir mövzuya, kolleksiyaya və ya xidmət sahəsinə diqqət yetirir. Bir neçə misal çəkmək olar: *Luvr Abu Dabi* Luvr

Muzeyinin (Paris, Fransa) beynəlxalq filialıdır. BƏƏ-də yerləşən bu muzey Fransa ilə əməkdaşlıq nəticəsində yaradılmış və qlobal mədəni irsi təqdim etməyə həsr olunmuşdur. Digər bir misal, *Qanqnam Samsung Muzeyi Filialı* Milli Koreya Muzeyinin bir hissəsi olaraq fəaliyyət göstərir və qədim sənət nümunələrinin nümayişi ilə yanaşı müasir sərgilərə də ev sahibliyi edir. *Met Breuer* Nyu Yorkdakı Metropoliten İncəsənət Muzeyinin filialıdır və əsasən müasir və müasir incəsənət əsərlərini nümayiş etdirir. *Hermitage Amsterdam* Sankt-Peterburqdakı Hermitage Muzeyinin filialıdır və Rusiya incəsənətini Avropada tanıtmaq məqsədini daşıyır. *Guggenheim Bilbao (İspaniya)* Nyu Yorkdakı məşhur Guggenheim Muzeyinin Avropa filialıdır və müasir sənətə həsr olunmuşdur. *Azərbaycan Tarixi Muzeyinin Quba Filialı* Azərbaycanın Quba rayonunda yerləşir və bu filial, regionun tarixini, mədəniyyətini əks etdirən materialların saxlanılması və nümayişi ilə məşğuldur. *Milli İncəsənət Muzeyinin Naxçıvan Filialı* Azərbaycan Milli İncəsənət Muzeyinin bir hissəsi olaraq Naxçıvan şəhərində fəaliyyət göstərir və bölgəyə aid incəsənət nümunələrini təqdim edir. *Qala Arxeoloji və Etnoqrafik Muzey Kompleksi* Bakıdan kənarda yerləşir və Azərbaycan İncəsənət Muzeyinin filialı kimi fəaliyyət göstərərək Azərbaycanın qədim tarixinə dair eksponatları nümayiş etdirir.

*Muzey filiallarında fondların uçotunun həyata keçirilməsi* muzey sərvətlərinin filiallarda da səmərəli idarə olunması

və mühafizəsi üçün vacib olan prosedurlardan ibarətdir. Filiallarda uçot prosesinin düzgün təşkili əsas fondların və köməkçi materialların dəqiq inventarlaşmasını, onların hüquqi və fiziki statusunun təyini üçün müvafiq sənədlərin hazırlanmasını və davamlı yenilənməsini nəzərdə tutur. Bu proses bəzi əsas prinsipləri əhatə edir. Nəzərdə tutulan qaydalar filiallarda saxlanılan eksponatların tam şəkildə sənədləşdirilməsini, onların identifikasiyasını, hüquqi statusunun dəqiqləşdirilməsini və müvafiq inventar sisteminə inteqrasiyasını nəzərdə tutur. Uçot prosesində hər bir əşyaya unikal inventar nömrəsi və aid olduğu fondun təsnifatına uyğun şifrə təyin edilir, əşyaların mənşəyi, fiziki vəziyyəti, ölçüləri və digər texniki xüsusiyyətləri ətraflı şəkildə qeyd olunur. Muzey əşyalarının uçotu müvafiq daxilolma kitablarında aparılır, bu kitablar nömrələnir, filialın rəhbəri və baş mühafiz tərəfindən imzalanır və möhürlənir. Müasir idarəetmə prinsiplərinə əsaslanaraq, uçot prosesi həm kağız daşıyıcılarda, həm də elektron məlumat bazalarında həyata keçirilir ki, bu da məlumatların təhlükəsizliyini və istifadəsini optimallaşdırır. Fondların təsnifatı əsas və köməkçi fondlar arasında aparılı. Əsas fondlara elmi və mədəni əhəmiyyətli eksponatlar, köməkçi fondlara isə tədqiqat və texniki məqsədli materiallar daxildir. Eyni zamanda, filiallarda saxlanılan materialların hüquqi vəziyyəti dəqiq sənədlərlə təsdiqlənir, bu, onların istifadəsi, sərgilənməsi və digər məqsədlərlə əlaqədar

hüquqi tənzimləməni təmin edir. Uçot prosesində müntəzəm inventarlaşma həyata keçirilir, bu zaman eksponatların fiziki vəziyyəti, saxlanma şəraiti və mövcud məlumatların dəqiqliyi yoxlanılır. Məlumatların mühafizəsi üçün təhlükəsizlik tədbirləri görülür, onların ehtiyat nüsxələri yaradılır və saxlanma sistemlərinin dayanıqlığı təmin edilir. Muzey filiallarında fondların uçotu qaydalarına riayət olunması muzey eksponatlarının elmi, tarixi və mədəni əhəmiyyətinin qorunmasını, onların şəffaf və dəqiq idarə edilməsini mümkün edir.

*Muzey fondlarının radiasiya təhlükəsizliyinin təmin olunması,* kolleksiyaların qorunması və işçilərin sağlamlığının mühafizəsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sahədə əsas məqsəd radiasiya mənbələrinin təyin edilməsi, təhlükəsizlik səviyyəsinin müəyyənləşdirilməsi və zərərli təsirlərin qarşısını almaq üçün müvafiq tədbirlərin həyata keçirilməsidir. Radiasiya təhlükəsizliyi ilə bağlı ilk addım muzey fondlarında saxlanılan əşyaların radioaktiv materiallar ehtiva edib-etmədiyini aşkar etməkdir. Bu məqsədlə xüsusi cihazlarla radiasiya səviyyəsinin ölçülməsi və potensial təhlükə mənbələrinin identifikasiyası həyata keçirilir. Əgər fond materialları arasında radioaktiv xüsusiyyətlərə malik əşyalar mövcuddursa, onların ayrıca saxlanması və müvafiq qoruma standartlarına riayət edilməsi tələb olunur. Radiasiyadan qorunma məqsədilə muzeylərdə monitorinq

və nəzarət tədbirləri, izolyasiya və saxlama şərtlərinə riayət, personal təhlükəsizliyinə nəzarət, havalandırma və şərtlərin tənzimlənməsi,  radiasiya icazələri və nəzarət mexanimləri daim həyata keçirilməlidir. Belə ki, müntəzəm olaraq radiasiya səviyyəsinin ölçülməsi və fond məkanlarında təhlükəsizlik normalarının yoxlanılması təmin edilməlidir, radioaktiv əşyalar xüsusi qoruyucu konteynerlərdə saxlanmalı və digər materiallarla təmasdan uzaq tutulmalıdır, muzey işçiləri üçün radiasiya təhlükəsizliyi təlimləri təşkil edilməli və zəruri hallarda qoruyucu avadanlıqlardan istifadə edilməlidir, fondların saxlanıldığı yerlərdə radiasiya səviyyəsini azaltmaq üçün effektiv havalandırma sistemi quraşdırılmalıdır, əgər muzeydə yüksək radiasiya riski daşıyan əşyalar varsa, onların saxlanılması və istifadəsi üçün xüsusi dövlət qurumlarından icazə alınmalı və müvafiq nəzarət mexanizmləri tətbiq olunmalıdır. Fondlarda, muzey binalarında, sərgi zallarında, arxiv şöbələrdə radiasiyanın və radionuklid səviyyəsinin ölçülməsi üçün Geiger sayğacı, İdentifinder2, Canberra alfa-beta-qamma detektor, İnSpector1000 cihazlarından istifadə edilə bilər.




*Fondlarda radioaktivliyi ölçmək üçün istifadə olunan daşınabilən dozimetrlər*

Əgər təhlükəli mənbə aşkarlanarsa, dərhal həmin əşyanın üzərinə xüsusi etiket yapışdırıb ərazidən uzaqlaşdırmalı və izolyasiya olunmuş xüsusi təyinat yerinə aparılmalıdır.

## 12.MUZEY SƏRVƏTLƏRİNİN TƏKRAR UÇOTA ALINMASI VƏ KODLAŞDIRILMASI. ƏŞYALARIN RƏQƏMSAL MƏLUMAT BAZASINDA YERLƏŞDİRİLMƏSİ

Muzeylərdə kolleksiyaların təkrarlanmış uçotunun aparılması əşyaların mövcudluğunun və onların mühafizə vəziyyətinin davamlı şəkildə yoxlanmasını təmin edən mühüm prosedur hesab olunur. Bu prosesin əsas məqsədi kolleksiyaların düzgün şəkildə idarə edilməsi, qorunması və

müvafiq uçot sənədləri ilə uyğunluğunun təmin olunmasıdır. Təkrar uçot muzeydəki əşyaların sistemli şəkildə qiymətləndirilməsini və onların vəziyyətinin dəqiq müəyyənləşdirilməsini mümkün edir. Bu təkrarlama prosesi əsasən əşyaların fiziki vəziyyətini yoxlamağa və onların saxlanılma şəraitini qiymətləndirməyə yönəldilmişdir. Əşyaların mövcudluğu, mühafizə vəziyyəti və saxlanılma şəraiti daxilolma kitabları, inventar kitabları, qəbul və təhvil aktları və digər müvafiq uçot sənədləri ilə qarşılaşdırılmalıdır. Bu şəkildə hər bir əşya üçün düzgün məlumat bazası yaradılaraq, zaman-zaman baş verən dəyişikliklər, itkilər və ya zədələnmələr qeyd edilir. Təkrarlanan uçot prosesi zamanı əldə edilən məlumatlar xüsusi bir aktda toplanmalı və əşyaların saxlanılması ilə bağlı mövcud vəziyyət barədə ətraflı hesabat hazırlanmalıdır. Bu akt kolleksiyaların vəziyyəti ilə bağlı olan məlumatları əks etdirməli və bütün müvafiq məlumatlar diqqətlə qeyd edilməlidir. Təkrarlanan uçotun nəticələri əşyaların mövcudluğu və saxlanılması barədə müvafiq qanunvericiliyə uyğun gəlməlidir. Nəticə olaraq, hazırlanan aktın rəsmi olaraq təsdiq edilməsi üçün o, muzeyin direktoru tərəfindən imzalanmalı və möhürlənməlidir. Bu prosedur, həmçinin mühafizə və təmir işləri ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün vacib bir rol oynayır. Əgər təkrarlanmış uçot nəticəsində əşyaların vəziyyətində qeyri-adi dəyişikliklər müşahidə olunursa,

həmin əşyalar əlavə diqqətə alınaraq mühafizə və konservasiya tədbirlərinə cəlb edilir.

Muzeylər zaman-zaman sərvətlərini yenidən qiymətləndirməli və uyğun şəkildə yenidən sıralamalıdırlar. Bu proses əvvəlki dövrlərdə daxil edilmiş materialların mövcud vəziyyətini, tarixi əhəmiyyətini və elmi dəyərini nəzərə alaraq həyata keçirilir. Bəzən köhnə sənədlər və qeydlər yenilənir, yoxlanılır və müasir dövrün tələblərinə uyğunlaşır. Bundan əlavə, təkrar uçot zamanı unudulmuş və ya nəzərə alınmamış kolleksiyalar da tapıla bilər. Muzeylər zamanla dəyişən tələblərə və texnoloji inkişaflara uyğunlaşmalıdır. Bu, kolleksiyaların düzgün qorunmasını təmin etmək üçün yeni təhlükəsizlik tədbirləri və texnologiyalarının tətbiqini ehtiva edir. Təkrar uçot zamanı sərvətlərin saxlanma şəraiti, qorunması və rəqəmsal mühafizəsi kimi məsələlər diqqətə alınır. Müasir texnologiyalar fiziki qoruma və sərvətlərin rəqəmsal olaraq sənədləşdirilməsi üçün yeni metodların tətbiqinə şərait yaradır. Muzeylər kolleksiyalarını təkrar uçota alaraq, bu sərvətləri tədqiqatçılar, tarixçilər, tələbələr və maraqlı şəxslər üçün daha əlçatan etmək məqsədini güdürlər. Kolleksiyaların düzgün sənədləşdirilməsi və sistemləşdirilməsi onların müvafiq baza və müasir verilənlər bazasında asanlıqla tapılmasını təmin edir. Bu həm də sərvətlərin digər muzeylər və tədqiqatçı qurumlarla mübadilə edilməsini asanlaşdırır. Təkrar uçot prosesində

muzeylər sərvətlərin tam siyahısını hazırlayır və hər bir əşyanın tək-tək identifikasiyasını edir. Bu, sərvətlərin hər hansı bir itkisini, oğurlanmasını və ya zədələnməsini izləməyə imkan yaradır. Yenilənmiş inventar həmçinin muzeylərin maliyyə və sığorta məsələlərini düzgün idarə etməsinə kömək edir, çünki hər bir əşya üçün dəqiq məlumat mövcud olmalıdır. Kolleksiyalar müəyyən müddət ərzində təbii səbəblərdən və ya insan müdaxiləsindən zədələnə bilər. Təkrar uçot zamanı bu zədələnmiş əşyalar müəyyən edilərək, bərpa və konservasiya işlərinə yönəldilir. Həmçinin, daha əvvəl qorunması lazımlı olan, amma vaxtında qayğı göstərilməyən əşyalar üzərində işlər görülür. Bu proses kolleksiyaların uzun müddət qorunub saxlanmasını təmin etmək üçün vacibdir. Muzeylər kolleksiyalarını yenidən qiymətləndirərək, gələcək inkişaf üçün planlar hazırlayır. Kolleksiya idarəetmə planları yaradılır, bu planlar sərvətlərin necə idarə ediləcəyi, saxlanacağı və təkmilləşdiriləcəyi barədə strategiyalar təqdim edir. Həmçinin, kolleksiyaların necə inkişaf etdirilməsi, hansı yeni əşyaların əlavə ediləcəyi və hansı əşyaların sərgidən çıxarılacağına dair qərarlar verilir.

*Uçot nişanları* muzey kolleksiyalarının idarə olunmasında və qorunmasında mühüm bir rol oynayır. Bu nişanlar kolleksiyaların hər bir elementini sistematik şəkildə qeyd etmək, təsnif etmək və izləmək üçün istifadə olunur. Uçot nişanlarının məqsədi muzeydə saxlanılan əşyaların

vəziyyətini, tarixini və yerini müəyyən etməkdir. Hər bir obyektə verilən uçot nişanı onun unikal identifikatorudur. Bu nişanlar vasitəsilə hər bir eksponatın kimliyi dəqiqliklə müəyyən edilir. Əgər eksponat itərsə və ya zədələnərsə, bu nişan sayəsində onu tapmaq və ya vəziyyətini qiymətləndirmək mümkündür. Muzey kolleksiyalarını təsnif etmək, müvafiq olaraq siniflərə bölmək və onların mövcudluğunu izləmək üçün uçot nişanları əhəmiyyətlidir. Muzeylərdə əşyaların mühafizəsi və uçotu üçün müasir texnologiyalar, məsələn, barkodlar, QR kodlar və ya RFID (Radio Frequency Identification) sistemləri istifadə olunur. Bu texnologiyalar vasitəsilə nişanlar daha asan izlənilə bilir, məlumatların dəqiqliyi və etibarlılığı artır. Bu barkodlar və ya QR kodlar müasir texnologiyalarla müvafiq məlumatları rəqəmsal formada saxlamağa imkan verir. Muzey işçiləri bu kodları oxuyaraq, əşyaların tarixi və vəziyyəti barədə dərhal məlumat əldə edə bilirlər. Bu gün muzeylər uçot məlumatlarını saxlayan və idarə edən rəqəmsal bazalar istifadə edir. Bu bazalar əşyaların məlumatlarını sistematik şəkildə qeyd edir, habelə muzeylərə asanlıqla məlumat bazasında axtarış etməyə imkan verir.

Yeni nişan əşyada olan əvvəlki etiketlərlə və ya şifrələrlə uyğun olmalıdır. Əşyada əvvəllər istifadə edilən etiketlər, şifrələr və nömrələr ləğv edilsə də, diqqət yetirilir ki, bu etiketlər tamamilə silinməsin. Bunun yerinə, üzərinə açıq rəngli tuş və ya qrafik karandaşla çarpaz xətt çəkilir.

Çarpaz xətlərin çox qalın və ya tünd olmaması vacibdir. Xətlər çox qalın və ya qaranlıq olarsa, əvvəlki yazıları oxumaq çətinləşə bilər. Çərçivəsi olan rəsm əsərlərində şifrə və nömrələr çərçivənin yuxarı və ya aşağı hissəsinin sol küncündə yerləşdirilir. Çərçivəsiz rəsm əsərlərində, şifrə və nömrələr əsərin arxa tərəfində, kətanın haşiyəsinin aşağı hissəsindəki sol küncdə yerləşdirilir. Bu, rəsm əsərinin üz tərəfində heç bir iz qoymamaq və vizual estetikaya zərər verməmək üçün edilir. Böyük həcmli rəsm əsərlərində, şifrə və nömrələrin yalnız bir yerdə yerləşdirilməsi çətin ola bilər. Buna görə də, bu cür əsərlərdə uçot nişanları iki fərqli yerdə yerləşdirilir: biri yuxarı hissədə, digəri isə aşağı hissədə. Şifrə və nömrələrin boyalarla yazılması məqsədəuyğun hesab olunur ki, bu da onların davamlı və uzunömürlü olmasına şərait yaradır. Açılıb-bağlanan əşyaların, xüsusilə də qutular və qablar kimi predmetlərin düzgün izlənməsi üçün uçot nömrəsi və şifrə qabın daxilində yerləşdirilir. Parçaların astar üzünə hazırlanmış və üzərinə ştamp və nömrə vurulmuş etiketlər əşyaların iç hissəsində və ya əşyaların çıxarıla bilməyən hissələrində yerləşdirilir. Torpaq nümunələrinin saxlanıldığı konteynerlərdə, məsələn, yeşiklərdə, bankalarda və ya qutularda etiketlər yeşiyin divarına bərkidilir və bu məlumatların asanlıqla oxunması üçün əlçatan olur. Uçot nişanlarının kodlaşdırılması üçün müxtəlif sistemlər istifadə olunur. Ən geniş yayılanlar aşağıdakılardır:

a)Numerik Sistemlər. Ən sadə və çox istifadə edilən kodlaşdırma üsullarından biri nömrələrdən istifadə etməkdir. Hər bir əşyaya unikal bir nömrə verilir və bu nömrə hər bir əşya üçün qeydiyyatda saxlanılır. Bu, əşyanın müəyyənləşdirilməsi və izlənməsi üçün asanlıqla istifadə olunur. Məsələn: 001, 002, 003 və s.

b)Alfa-numerik kodlar. Daha inkişaf etmiş sistemlərdə hərf və rəqəmlərin kombinasiyasından istifadə edilir. Bu üsul həm əşyaların müəyyən bir kateqoriyaya aid olduğunu göstərir, həm də onları təkrarlanmadan identifikasiya etməyə imkan verir. Məsələn: ART-001 (sənət əsəri), AR-001 (arxeoloji əşya), R01-001 (rəsm kolleksiyası).

c)Yerli Kodu. Hər bir muzey və ya kolleksiya idarəetmə sistemi özünə məxsus xüsusi kodlaşdırma sistemi tətbiq edə bilər. Bu sistemdə muzeyin adını və ya müəyyən bir kolleksiyanı təmsil edən bir hissə əlavə edilə bilər. Məsələn: TR-ART-001 (Türkiyə sənət əsəri), UK-AR-009 (Böyük Britaniya arxeoloji əşyası).

d)QR Kodları və Rəqəmsal Sistemlər. Son illərdə əşyaların izlənməsi üçün daha müasir texnologiyalar da tətbiq olunur. QR kodları və ya RFID (Radio Frequency Identification) etiketləri əşyaların üzərinə yerləşdirilərək əşyanın məlumatlarına sürətli daxil olmaq mümkündür. Bu, xüsusilə geniş kolleksiyalar və ya böyük sərgilərdə effektivdir.

*Köməkçi uçot sistemlərinə* "kartoçka"ları, köməkçi qeydləri, məlumat kitabçasını aid etmək olar. Bu sistemlər hüquqi sənədləri əvəz etməsə də, əşyaların təhlili və tədqiqi üçün yararlı sayılır. "Kartoçka"lar hər bir əşya və ya eksponat haqqında ətraflı məlumatın qeyd olunduğu kartlardır. Kartda əşyanın adı, janrı, ölçüləri, materialı, əşyaların tarixi, mənbəyi, yaranma ili, təmir və bərpa məlumatları, müəllifi (əgər məlumdursa) və ya istifadə edildiyi yer və s. müvafiq xüsusiyyətlər qeyd edilir. "Kartoçka"lar, əsasən fiziki kartlar olaraq saxlanılır və qovluqlarda, kartotekalarda, şkaflarda və ya kataloqlarda təşkil edilir. Köməkçi qeydlər və ya yazılar əsasən məlumat kitabçasında cəmləşir. Bu məlumat kitabçası məlumatların yığcam və görünüşü asan olması üçün mətbəə üsulu ilə çap edilir və 10 minə qədər əşyaya dair məlumatlar bu kitabçaya daxil edilə bilər.

**Muzey obyektlərinin 3D modellərinin və rəqəmsal eskizlərinin yaradılması** onların müasir texnologiyaların imkanlarından istifadə etməklə rəqəmsal məlumat bazasına daxil edilməsini nəzərdə tutur və bu proses bir neçə əsas mərhələni əhatə edir. İlk növbədə, obyektlərin müasir 3D skanerlər və ya fotoqrammetrik metodlarla rəqəmsal təsviri hazırlanır ki, bu da onların ölçü, forma və teksturalarını dəqiq şəkildə əks etdirir. Daha sonra yaradılmış 3D modellər xüsusi proqram təminatlarında təhlil olunur, lazım gələrsə, onların üzərində təkmilləşdirmə və optimizasiya

işləri aparılır. Muzey əşyalarının üçölçülü skanerlərlə skan edilməsi onların rəqəmsal surətinin yaradılmasına imkan verir. Bu texnologiya əşyaların vəziyyətinin izlənməsi, dəqiq ölçülərin və strukturun təmin edilməsi üçün istifadə olunur. Məsələn, qədim bir heykəl 3D skan edilərək virtual bir model yaradılır və bu model təmir və qorunma işlərinin planlaşdırılması üçün istifadə olunur. Bundan əlavə, müasir dövrdə süni intellekt alqoritmləri muzey əşyalarının qorunma səviyyəsini qiymətləndirmək və konservasiya ehtiyaclarını öncədən müəyyən etmək üçün istifadə edilir. Rəqəmsal eskizlər obyektlərin detallı qrafik təsvirini təmin edərək, onların vizual xüsusiyyətlərini ətraflı təsvir etməyə imkan verir. Bu modellər və eskizlər rəqəmsal məlumat bazasına inteqrasiya edilmədən əvvəl metadata ilə zənginləşdirilir, belə ki, obyektlərin tarixi, mənşəyi, istifadə məqsədi və digər əlaqəli məlumatlar qeyd edilir.






*Obyektin skan edilməsi və eskizlərin rəqəmsal məlumat bazasına yerləşdirilməsi*



*3D modelləşdirmə və eskizlərin rəqəmsal məlumat bazasına yerləşdirilməsi*

Rəqəmsal məlumat bazasının yaradılması bir neçə addımı əhatə edir: 1) *Muzey obyektlərinin 3D modelləşdirilməsi*. Muzey obyektlərinin rəqəmsal mühitdə tam dəqiqliklə təsviri üçün 3D modelləşdirmə texnologiyalarından istifadə olunur. 3D modelləşdirmə bir obyektin fiziki ölçülərini və formasını rəqəmsal mühitdə dəqiq şəkildə əks etdirməklə yanaşı, onun görünüşünü, teksturasını, rənglərini və hətta fiziki xüsusiyyətlərini də təmsil edir. Bu prosesin əsasında dijitallaşdırma, skanerləmə və rəqəmsal dizayn kimi texnologiyalar dayanır. Bu texnologiyalar vasitəsilə muzey əşyalarının hər detalı üçölçülü mühitdə yenidən yaradılır və istənilən kəsik və ya böyütmə əməliyyatları ilə dərindən araşdırıla bilir. Beləliklə, bu mərhələ ilkin olaraq obyektlərin təhlili və ölçülərinin dəqiq qeydə alınması ilə başlayır. Daha sonra xüsusi 3D skanerlər və ya fotoqrammetriya texnikası vasitəsilə obyektlərin üçölçülü təsvirləri hazırlanır.

2) *Rəqəmsal eskizlərin hazırlanması*. 3D modelləşdirmə ilə yanaşı, bəzi obyektlərin ətraflı eskizləri hazırlanır. Rəssamlar və ya rəqəmsal dizaynerlər obyektlərin cizgilərini yaradır, onların strukturlarını, naxışlarını və digər dekorativ elementlərini vurğulamaq üçün müasir qrafik proqram təminatından istifadə edirlər. 3) *Yaradılmış 3D modellərin redaktəsi və təkmilləşdirilməsi*. Skaner və ya fotoqrammetriya ilə yaradılmış ilkin 3D modellər texniki və vizual təkmilləşdirməyə ehtiyac duyur. Bu mərhələdə mütəxəssislər modelin qüsurlarını düzəldir, detallarını dəqiqləşdirir və rəng, tekstur kimi əlavə elementləri daxil edirlər. Bu addım obyektlərin daha dəqiq və estetik təsvirini təmin edir. 4) *Rəqəmsal məlumat bazasına yerləşdirmə*. Rəqəmsal məlumat bazalarının yaradılması muzeylərin kolleksiyalarını sistemli və strukturlaşdırılmış şəkildə saxlamağa imkan verir. Bu, fiziki mühitdə baş verən itkilər, zədələnmələr və ya təbii fəlakətlər zamanı obyektlərin qorunmasına kömək edir. Rəqəmsal məlumat bazaları eyni zamanda obyektlərə dair məlumatların mühafizəsini təmin edir və müasir dövrün tələblərinə cavab verir. Hazırlanmış 3D modellər və rəqəmsal eskizlər xüsusi məlumat bazalarına inteqrasiya edilir. Bu bazalar obyektlər haqqında hərtərəfli məlumatları, o cümlədən onların 3D təsvirləri, eskizləri, istehsal tarixləri, müəllifləri, ölçüləri və digər mühüm məlumatları ehtiva edir. Məlumat bazasına yerləşdirilən obyektlər yüksək təhlükəsizliklə qorunur və

onlayn platformalarda istifadəçilər üçün əlçatan olur. Muzeylərdə məlumatların düzgün şəkildə təşkil edilməsi və idarə olunmasını təmin edən sistemlər toplusu adətən SQL (Structured Query Language) və ya NoSQL məlumat bazası idarəetmə sistemləri vasitəsilə qurulur. Hər bir obyekt üçün onun adı, mənşəyi, yaradılma tarixi, materialı, ölçüləri və digər müvafiq məlumatlar qeyd edilir. Bu məlumatların bir araya gətirilməsi ilə obyektlər əlavə atributlarla zənginləşdirilir. Məsələn, bir heykəlin rəqəmsal məlumat bazasında aşağıdakı kimi məlumatlar təqdim edilə bilər:

**Adı**: "At heykəli"

**Yaradıcısı**: "Qədim Yunan heykəltəraşı"

**Yaradıcılıq dövrü**: E.Ə. 400-350

**Material**: Mərmər

**Ölçüləri**: Hündürlüyü 2,5 metr

**Saxlanma yeri**: Roma

**Tarixçə**: At heykəli ilk dəfə E.Ə. IV əsrdə Yunanıstanda yaradılıb və bir neçə il sonra Roma İmperatorluğuna aparılıb.

Muzey obyektlərinin məlumatlarının sinxronizasiyası fərqli müəssisələr arasında məlumatların mübadiləsini və əlaqələndirilməsini asanlaşdırır. Bu baxımdan, müxtəlif muzeylər və mədəniyyət mərkəzləri arasında məlumat bazalarının əlaqələndirilməsi beynəlxalq səviyyədə informasiya paylaşımına təşviq edir. Bununla yanaşı, açıq mənbə məlumat bazaları və Vikipediya kimi platformalarla

inteqrasiya daha geniş kütləyə çatmağa imkan verir. Məsələn, "Europeana" layihəsi müxtəlif Avropa ölkələrindəki mədəni irs obyektlərinin rəqəmsal şəkildə toplanması və birləşdirilməsini təmin edir. Bu platforma vasitəsilə istifadəçilər müxtəlif muzeylərdə saxlanılan minlərlə rəqəmsal obyektə asanlıqla daxil ola bilərlər.

## 13.ƏŞYALARIN MATERİALLAR ÜZRƏ KOMPLEKTLƏŞDİRİLMƏSİ VƏ MÜHAFİZƏ REJİMLƏRİ. UÇOT VƏ MÜHAFİZƏ İŞİNDƏ SƏNƏDLƏŞMƏ

Əşyaların materiallar üzrə komplektləşdirilməsi, ilk növbədə əşyaların istehsalında istifadə olunan müxtəlif materialların sistematik şəkildə təsnifatını tələb edir. Bu proses hər bir əşyanın maddi təbiətinin və onun istehsalında istifadə edilən materialların müəyyən bir sistematik çərçivədə təsnif edilməsini təmin edir. Hər bir əşyanın hazırlanmasında istifadə olunan maddi komponentlər - metal, daş, ağac, keramika, şüşə, parça və digər təbii və süni materiallar təhlil olunur. Bu mərhələdə materialın növü, keyfiyyəti və istifadə məqsədi müəyyən edilir. Məsələn, qədim dövrlərə aid metal əşyaların tərkibindəki metal növləri, keramika əşyalarının əridilmə temperaturu və boyaların tərkibi kimi məlumatlar əhəmiyyətlidir. Bu analiz, həm də materialların texnoloji xüsusiyyətlərini və zamanla necə dəyişdiyini başa düşmək üçün vacibdir. Komplektləşdirmə prosesində əşyalar yalnız tək bir material

üzrə deyil, həm də bir neçə materialın birləşməsi ilə təşkil edilə bilər. Bu mərhələdə müxtəlif materiallardan hazırlanmış əşyalar bir-birinə uyğun olaraq qruplaşdırılır. Məsələn, metal və daşdan hazırlanmış döyüş alətləri, ağac və tekstildən ibarət olan gündəlik həyatda istifadə olunan əşyaların material uyğunluğu nəzərə alınır. Müxtəlif materialların seçimi və istifadəsi müəyyən bir zamanın iqtisadi və sosial şəraitini əks etdirir. Məsələn, qədim Misir mədəniyyətində keramikanın xüsusi bir yerə malik olması və ya Roma İmperiyasının metal emalı texnologiyalarında əldə etdiyi nailiyyətlər bu dövrlərin mədəni səviyyəsini göstərir. Müxtəlif materiallardan ibarət olan əşyaların hər biri özünəməxsus qorunma və konservasiya metodlarına da ehtiyac duyur. Məsələn, metal əşyalar paslanmağa qarşı xüsusi kimyəvi müalicə tələb edir, keramika isə qırılma və çatlamaya qarşı xüsusi qayğıya ehtiyac duyur.

Əşyaların materiallarına görə komplektləşdirilməsi adətən aşağıdakı əsas qruplara bölünür: *Daş materiallara* heykəllər, alətlər, yazılar, memarlıq elementləri, dəfn nişanları, mərmər, əhəngdaşı, qumdaşı, bazalt, qranit aiddir. Məsələn, Michelangelo'nun məşhur əsəri olan "David" heykəli, Qədim Misir və Mesopotamiyada daşdan hazırlanan yazılı abidələr, Roma İmperiyasının "Pantheon" məbədi, Roma dövründə ölümlə bağlı mərasimlərdə istifadə olunan daş məzar daşları və s. *Metal materiallara* sikkələr, silahlar, alətlər, zinət əşyaları, heykəllər, zirehlər, bürünc,

dəmir, qızıl, gümüş, mis, alüminium aiddir. Məsələn, As (bürünc Roma sikkəsi), qızıl aureus sikkələri, Denar –gümüş sikkə, misdən hazırlanmış xətt ölçü alətləri və maldar alətləri, dəmir dırnaqlar və darılar, qızıl bilərziklər, mis qolbaqlar və mis boyunbağılar, qızıl tanrı heykəlləri, Yunan və Roma dövrlərində döyüşçülər tərəfindən istifadə olunan bürünc döyüş zirehləri, alüminium zireh, dəmir zirehli köynəklər və s. Metallar korroziyaya qarşı həssas olduğu üçün onların olduğu mühitdə nəmliyə diqqət yetirilməlidir. *Taxta materiallara* mebel, heykəllər, musiqi alətləri, alətlər, tekstil məmulatları və memarlıq əşyaları aiddir. Məsələn, akustik gitara və digər simli musiqi alətləri, ağacdan hazırlanan xətkeşlər və ya döymə alətləri, fırça tutacağı, çəkicləyici əşyalar və s. Taxta temperatur və rütubətdəki dəyişikliklərə həssasdır, bu da çatlamağa, əyilmələrə və həşəratların onları zədələməsinə səbəb ola bilər. *Keramika və dulusçuluq materiallarına* saxsı qablar, heykəlciklər, plitələr, fincanlar, saxlama qabları aiddir. Keramika kövrəkdir və asanlıqla qırıla bilər. Zərərdən və ətraf mühitin təsirindən qorumaq üçün xüsusi saxlama üsulları ilə diqqətlə işlənməlidirlər. *Şüşə materiallara* butulkalar, pəncərələr, dekorativ parçalar, vazalar, muncuqlar aiddir. Şüşə çox kövrəkdir və təzyiq və ya təsir altında qırılmaması və ya çatlamaması üçün ehtiyatlı davranılmalıdır. *Tekstil materiallarına* geyimlər, bannerlər, yorğanlar, toxunmuş əşyalar və xalçalar daxildir. Tekstil məmulatları

zərərvericilər, işığa məruz qalma və rütubətin dəyişməsi səbəbindən aşınmaya və zədələnməyə məruz qala bilər. Onlar işıqdan uzaq və iqlimə nəzarət edilən mühitlərdə saxlanmalıdır. *Kağız materiallara* əlyazmalar, kitablar, xəritələr, məktublar aiddir. Kağız əsaslı əşyalar işıq, rütubət və çirkləndiricilərlə zədələnə bildiyi üçün daim diqqətli rəftar tələb edir. *Fosil materiallara* fosilləşmiş bitkilər, sümüklər, qabıqlar, ağac, dinozavr sümükləri, ammonitlər və s. aiddir. *Dəri materiallara* zirehlər, ayaqqabılar, əlyazmalar, çantalar və geyimlər, inək dərisi, quzu dərisi, sürünən dərisi aiddir. Dəri zamanla çatlamağa, qurumağa və rəngini itirməyə meyillidir. Onun bütövlüyünü qorumaq üçün müntəzəm kondisioner və nəzarət olunan saxlama şəraiti lazımdır. *Kompozit materiallara* plastik, qatran, fiberglas, sintetik parçalar aid edilə bilər. Kompozitlər fərdi komponentlərindən asılı olaraq xarab olurlar (məsələn, işığa və istiyə məruz qaldıqda).

Muzeylərdəki əşyaların qorunması, onların fiziki və məruz qaldığı müxtəlif amillərin təsirindən qorunmasını təmin etmək üçün müəyyən **iqlim-mühafizə rejimləri** tətbiq edilir. Bu rejimlər əşyaların uzunmüddətli qorunmasını və sağlam vəziyyətdə qalmasını təmin edir. Ətraf mühit şəraitləri bu mühafizə rejimlərinin effektivliyinə birbaşa təsir edir, çünki mühitin fiziki şərtləri (temperatur, rütubət, işıq) əşyaların vəziyyətinə ciddi təsir göstərir. Müəyyən temperatur və rütubət həddində saxlanılmayan əşyalar

zamanla öz strukturunu itirə, çürüyə, qırılaraq zəifləyə bilər. Muzeydəki əşyaların qorunması üçün ideal temperatur adətən 18-22°C, rütubət nisbəti 40%-60% arasında olmalıdır. Yüksək rütubət əşyaların üzərindəki materialların şişməsinə, qoxusunun dəyişməsinə və təbii materialların çürüməsinə səbəb ola bilər. Aşağı rütubət isə materialların qurumasına və çatlamasına yol açar. Sərinlətmə-isitmə sistemləri və havalandırma bu iki amilin ideal səviyyələrdə saxlanmasına kömək edir. Rütubətin azaldılması üçün isə quruducu cihazlar tətbiq edilir. Muzeylərdə müxtəlif materiallardan hazırlanmış eksponatların uzunmüddətli qorunması üçün optimal temperatur-rütubət rejiminin saxlanması vacibdir. Ümumi halda kondisionerlərlə təchiz olunmuş muzeylərdə nisbi rütubət 55%±5% olmalıdır. Əgər kondisioner yoxdursa, təhlükəsiz nisbi rütubət 50-60% aralığında saxlanılır. Muzey binasında fərqli otaqlarda temperatur və rütubət rejimi müxtəlifdirsə, fondların yerləşdirilməsində həmin materialların xüsusiyyətlərini nəzərə almaq lazımdır. Məsələn, mikroiqlimi stabil olan sahələrdə üzvi materiallardan ibarət kolleksiyalar, boyakarlıq və qrafika əsərləri, parçalar, ağac, dəri, zooloji və bioloji kolleksiyalar yerləşdirilir. Rütubət yüksək olduqda daş materiallar (mərmər, əhəng-daş və s.), keramika və çini məmulatlarının saxlanmasına icazə verilir. Əksinə, rütubət aşağıdırsa, metal, gips və şüşə materialların qorunması məqsədəuyğun hesab edilir. Bəzi materiallar isə xüsusi

temperatur və rütubət rejimi tələb edir. Məsələn, xlorid tərkibli korroziyalı arxeoloji tapıntılar üçün xüsusi quru şərait lazımdır, mis ərintilərindən hazırlanmış əşyalar isə 37% nisbi rütubətdə stabil qalır. Kükürdlü minerallar və duzlar az rütubətli yerlərdə, əsasən şüşə qapaqlı bankalarda saxlanmalıdır. Fotomaterialların qorunması üçün isə temperatur ağ-qara materiallarda +12°C-dən, rəngli materiallarda isə +5°C-dən yuxarı olmamalı, nisbi rütubət isə 40-50% aralığında saxlanmalıdır. Əgər fotomateriallar adi otaqlarda saxlanılırsa, rütubət 53%-dən çox, temperatur isə +20°C-dən yüksək olmamalıdır. Bu rejim fotomaterialların kiflənmədən və solğunlaşmadan qorunmasına kömək edir. Qalaydan hazırlanmış əşyaların və formalin preparatlarının saxlanıldığı yerlərdə temperatur +18°C-dən aşağı düşməməlidir, çünki +18°C-dən aşağı olduqda qalay "qalay vəbası" adlanan xəstəliyə tutulur, nəticədə əşyalar zədələnir. Belə əşyalar təcili şəkildə +20°C və daha yüksək temperaturda saxlanılan yerlərə köçürülməlidir. Mum və plastilindən hazırlanmış əşyalar isə +16°C-dən aşağı və +25°C-dən yuxarı temperaturda saxlanmamalıdır. Qiymətli və yarımqiymətli daşlardan və kəhrəbadan hazırlanmış əşyalar qızdırılmayan yerlərdə və 0°C-dən aşağı temperaturda saxlanılmamalıdır. Temperatur və rütubət rejiminin sabit olmaması, mövsümi və gündəlik dəyişmələr muzey eksponatlarının tez köhnəlməsinə səbəb olur. Temperatur dəyişkənliyi xüsusilə üzvi materiallara

zərər verir, arxeoloji tapıntılar isə daha tez dağılıb xarab olur. Rütubət dəyişkənliyi keramika və yumşaq daş süxurlarda duzların kristallaşmasına və onların sonradan dekristallaşmasına gətirib çıxarır ki, bu da materialların tamamilə zədələnməsi ilə nəticələnir. Ümumiyyətlə, temperatur-rütubət rejiminin normadan kənara çıxması materiallarda ciddi dəyişikliklərə səbəb olur. Rütubət çox olduqda metallarda korroziya, dərilərdə və herbarilərdə kif, şüşədə cadarlanma, mərmərdə qırmızı ləkələr, keramikada cızıqlar yaranır. Fotomateriallarda emulsiyanın köpüklənməsi və qırışlar baş verir, boyakarlıq əsərlərində və kağız materiallarda isə yapışqan qabarır və çürüyür. Rütubət 50%-dən aşağı olduqda isə dəri, ağac, kağız, parça kimi hidroskopik materiallar elastikliyini itirir, qabarıb çatlayır, üzərlərində qatlar əmələ gəlir. Çox materiallardan hazırlanmış əşyalar (məsələn, faner üzərinə inkrustasiya edilmiş mebellər və ya rəng astarlı heykəllər) bu halda xüsusilə zədələnir. Arxeoloji sümük əşyalarında da təbəqələnmə və çatlamalar baş verir, boruşəkilli sümüklərin və dişlərin ucları daha tez sıradan çıxır.

Kondisioner sistemləri olmayan muzeylərdə temperatur və rütubət dəyişmələrinin iki əsas forması olur: mövsümi dəyişmələr (ilin fəsilləri və isitmə dövrü ilə bağlı) və gündəlik dəyişmələr (xarici hava şəraiti və tamaşaçı axını ilə bağlı). Mövsümi dəyişmələrin tənzimlənməsi və temperaturun tədricən dəyişməsi çox vacibdir. Gündəlik

rütubət dəyişməsi isə 5%-dən artıq olmamalıdır. Temperatur və rütubətin qeydə alınması üçün hər bir saxlanc yerində və ekspozisiya zalında psixrometr, termometr, avtomatik termoqraflar qoyulmalıdır. Bu cihazlarla temperatur və rütubət göstəriciləri gündə iki dəfə – səhər və axşam eyni vaxtda xüsusi dəftərə qeyd edilir. Psixrometrlər və hiqroqraflar isə ayda bir dəfə aspirasiya psixrometri ilə yoxlanmalı və sazlanmalıdır. Daşınma zamanı temperatur və rütubət dəyişmələri minimuma endirilməlidir.

İşıq muzey əşyaları üçün digər bir təhlükə mənbəyidir. Həm təbii işıq, həm də süni işıq əşyaların materiallarını zədələyə bilər. Uzun müddət işıq altında qalan əşyalar solur, rəngini itirir, strukturunda dəyişikliklər baş verir. UV (ultrabənövşəyi) işığı və yüksək intensivlikli işıq əşyaların üzərində zərərli təsir yaradır. UV işığı, xüsusən kağız, parça və rəngli materialların tez tükənməsinə və solmasına səbəb ola bilər. Muzeylərdə işıq səviyyəsi adətən 50 lüks olaraq götürülür. UV işığının qarşısını almaq üçün işıq mənbələri UV filtrli olmalıdır. İşıq muzey eksponatlarına həm görünən, həm də görünməyən şəkildə təsir edir. Görünən dəyişikliklər rənglərin solması, bozarması şəklində özünü göstərir. Görünməyən dəyişikliklər isə eksponatın hazırlanmış olduğu materialın daxili quruluşunun pozulması və möhkəmliyini itirməsi ilə nəticələnir.

Xüsusilə qrafika əsərləri, kitablar, əlyazmalar, fotomateriallar, parçalar, botaniki və zooloji kolleksiyalar, dərilər kimi materiallar işığın təsirinə daha həssasdır. Bu səbəblə, bu cür əşyaların saxlandığı muzey sahələrində işıqlandırma 50-75 lüks arasında olmalıdır. Digər eksponatlar üçün isə işıqlandırma səviyyəsi 75 lüksü keçməməlidir. Təbii işığın təsirindən qorunmaq üçün muzey pəncərələri pərdələrlə bağlanmalıdır. İki növ pərdə istifadə olunur: tünd rəngli və qalın parçadan tikilmiş ön pərdələr, nazik və açıq rəngli daxili pərdələr. Tünd pərdələr ekspozisiya zalları bağlandıqda çəkilir, açıq rəngli pərdələr isə günəş şüalarının birbaşa əşyalara düşməsinin qarşısını almaq üçün daim asılı qalır. Həssas materialların saxlandığı yerlərdə pərdələr tünd rəngdə və qalın parça ilə hazırlanmalıdır. Təbii işıqla işıqlandırılan zallarda işığa həssas eksponatlar (məsələn, akvarel, sənəd, parça və s.) əlavə olaraq işıq keçirməyən materialdan hazırlanmış dekorativ örtüklərlə qorunmalıdır. Yeni tikilən və təmir olunan muzey binalarında pəncərələrə xüsusi qoruyucu rəngli şüşələr qoyulması, həmçinin nazik taxtadan pəncərə örtüklərinin olması da tövsiyə olunur. Yağlı boya texnikası ilə çəkilmiş rəsmlər, sümükdən hazırlanmış əşyalar isə gündüzlər müntəzəm işıqlandırılmalıdır. Əks halda, zəif işıq səbəbindən rəsmlərin üst qatında qaralma, sümük materiallarında isə, saralma müşahidə edilir. Süni işıq mənbəyi kimi közərmə lampaları istifadə edilərkən, onların

istiliyinin eksponatların səthinə təsir etməməsi üçün kifayət qədər məsafədə yerləşdirilməsi vacibdir. Muzeydə kino çəkilişi, televiziya verilişi və foto çəkilişləri zamanı istiliyə həssas eksponatların zərər görməməsi üçün xüsusi tədbirlər görülməlidir. İşıq mənbələri eksponatlardan ən azı 4 metr uzaqda yerləşdirilməli, işıq maksimum 3-5 dəqiqə müddətində açıq qalmalıdır. Çəkiliş zamanı yerləşgənin temperaturunun 2°C-dən çox artmamasına diqqət edilməlidir.

Muzey eksponatlarının köhnəlməsi və zədələnməsi təkcə temperatur, rütubət və işığın deyil, həm də havadakı çirkləndiricilərin təsiri ilə baş verir. Toz, his, xloridlər, müxtəlif qaz tullantıları (hidrogen-sulfid, ammonyak, kükürd qazı) və ozon eksponatların səthinə ziyan vurur. Bu səbəbdən muzey binasının ətrafının təmiz saxlanması vacibdir. Yaxınlıqdakı sənaye müəssisələrinin havaya buraxdığı tullantılar nəzarətdə saxlanılmalıdır. Muzey avadanlıqlarında rezin ara qatların və kazein boyaların (tez quruyan və suda həll olan boyalar) istifadəsi olmaz, çünki köhnəldikdə zərərli maddələr ifraz edirlər. Eksponatların üzərinə yığılan toz onların köhnəlməsini sürətləndirir, səthlərini çirkləndirir və rütubət çəkərək materialın dağılmasına səbəb ola bilər. Buna görə yerləşgələr tozsoranla və ya yaş əski ilə təmizlənməlidir. Pəncərələr və avadanlıqlar müntəzəm silinməlidir. Ziyarətçilər muzeydən çıxdıqdan sonra mebellər, heykəllər, keramik əşyalar və

digər eksponatlar çexolla örtülməlidir. Gips heykəllərin çexolla örtülməsi xüsusilə vacibdir. Saxlanma yerlərindəki açıq eksponatlar da daim çexolla qorunmalıdır. Parket döşəmələrin qorunması üçün ziyarətçilərə yumşaq baxıllar geydirilməlidir. Muzeyin tam təmizliyi üçün ayda bir dəfə sanitariya günü keçirilməsi məqsədəuyğundur.

Muzey əşyalarının üzərində ən çox mikroorqanizmlər, xüsusən də bakteriyalar və göbələklər zərərli təsir göstərə bilir. Bu mikroorqanizmlər əşyaların üzərindəki üzvi maddələri (kağız, parça, ağac, sümük, boyama materialları və s.) zəiflədərək zamanla onların məhv olmasına səbəb olurlar. Göbələklərin meydana gəlməsinin əsas səbəbi nisbi rütubətin 70%-dən çox olması faktı ola bilər. Kiflər isə +20°C - +25°C temperatur aralığında və havanın nisbi rütubəti 70%-dən yüksək olduqda sürətlə inkişaf edir. Belə şəraitlər, xüsusilə sulu və quru mövsümlərdə, göbələklərin çoxalması üçün əlverişli olur. Bundan əlavə, qeyd olunmalıdır ki, həşəratların muzey əşyalarına təsir etməsinin qarşısını almaq üçün xüsusi pestisidlər və antimikrobial maddələrdən istifadə edilməlidir. Muzeydə, xüsusilə kağız, parça, taxta, sümük və boya kimi üzvi materiallardan hazırlanmış əşyalar mikroorqanizmlərin təsirinə məruz qalır. Temperatur tez-tez aşağı düşdükdə, əşyaların səthində rütubət toplanır və bu, kif göbələklərinin inkişafına səbəb olur. Eyni zamanda, əşyaların çirklənməsi mikroorqanizmlər üçün əlverişli şərait

yaradır. Üzvi materiallardan hazırlanmış əşyaların saxlandığı yerlərdə kif əmələ gəlməsin deyə, onları mütəmadi olaraq 2%-li formaldehid spirt məhlulu ilə silmək lazımdır. Əgər kif yaranıbsa, həmin əşyalar dərhal quru və izolyasiya olunmuş otağa köçürülməlidir. Muzey kolleksiyalarına həşəratlar da ziyan vurur. Ağacdan hazırlanmış məmulatlara ağacovan, uzunbığ böcəklər, ağacyeyən qurdlar, güvələr və digər həşəratlar zərər verir. Həşəratlar əsasən açıq qapı-pəncərələrdən və ya zədələnmiş əşyalar vasitəsilə muzeyə daxil olur. Əgər yeni qəbul olunan əşyaların gəldiyi yerdə həşərat varsa, bu barədə muzey sənədində qeyd edilməlidir. Ağac əşyalarına dəyən zərəri aradan qaldırmaq üçün mütəxəssislə məsləhətləşmək vacibdir. Yun, xəz, dəri və digər üzvi materiallar pambıq, ipək və kətan materiallardan ayrı saxlanmalıdır. İpək məmulatlara adətən güvə düşmür. Güvəni aşkar etmək üçün əşyaların qaranlıq və az görünən hissələri diqqətlə yoxlanmalıdır. Güvə ilə mübarizə üçün əşyaları yayda açıq havada ən az 4 saat havalandırmaq lazımdır. Havalandırmadan sonra paltarlar silkələnməli, dolablar isə təmizlənməlidir. Dolablara güvədən qoruyan naftalin və kamfora torbacıqları qoyulur. Bu vasitələr ildə iki dəfə yoxlanmalıdır. Naftalin və digər repelentlər güvələri öldürmür, sadəcə onları uzaqlaşdırır. Lakin gümüş əşyaların yanında naftalin istifadə olunmamalıdır. Güvədən qorumaq üçün lavanda yağı, yovşan, qoz yarpağı kimi təbii vasitələr

də istifadə edilə bilər. Xalçaların və şpalerlərin arasına ağ neft və skipidar qarışığı hopdurulmuş kağız qoyulur, sonra onlar bükülüb bağlanır. Mebel və paltar güvələrini məhv etmək üçün onları mənfi 15-20°C temperaturda 10 saat saxlamaq olar. Ancaq bəzi güvə növləri bu üsulla məhv olmur. Həşəratlara qarşı istifadə olunan kimyəvi maddələr insan sağlamlığı üçün təhlükəli ola bilər, buna görə xüsusi geyim, əlcək, respirator və eynəkdən istifadə etmək vacibdir. Dezinfeksiya işləri yalnız təcrübəli mütəxəssislər tərəfindən aparılmalıdır. Dezinfeksiya olunan əşyalarla işlədikdən sonra əllər və üz sabunla yuyulmalıdır.

Muzeylərdə əşyaların **uçotu və mühafizəsi işində sənədləşmə** əşyaların vəziyyətinin izlənməsi, qorunması, bərpası və hər hansı bir dəyişikliklərin qeydə alınması üçün mühüm rol oynayır. Muzey materiallarının qorunması yalnız texniki tədbirlər toplusu deyil, həm də mədəni və elmi məsuliyyət daşıyan sistemli fəaliyyətdir.

Muzey materiallarının qorunması prosesi üç səviyyədə təqdim edilir:

1.Profilaktik mühafizə – əşyaların zədələnməsinin qarşısının alınması;

2.Konservasiya – əşyanın mövcud vəziyyətinin sabitləşdirilməsi;

3.Bərpa (restavrasiya) – zədələnmiş obyektin tarixi və estetik bütövlüyünün qismən bərpası.

Profilaktik mühafizə uzunmüddətli baxımdan bərpa işlərindən daha qənaətlidir. Konservasiya materialları (yapışdırıcılar, laklar və təmizləyicilər) yalnız neytral pH səviyyəli və arxiv standartlı olmalıdır. Əks halda, əşyalarla reaksiyaya girərək onların strukturuna zərər vura bilər.

Əşyaların uçotu üçün istifadə olunan sənədlərdən biri *əşya qeydiyyat vərəqəlari*dir. Bu sənəd hər bir əşyanın təfərrüatlı məlumatlarını əks etdirir və muzeyin kolleksiyasının əsas uçotunu təmin edir. Əşya qeydiyyat vərəqəsi adətən aşağıdakı məlumatları əhatə edir: Əşyanın adı, mənbə (məhsulun gəlməsi, alışı, bağışlanması və s.), əşyaların növü və texniki xüsusiyyətləri, əşyaların materialı, tarix və yer (əsərin meydana gəlmə vaxtı və coğrafi yeri), istifadə məqsədi (nə üçün istifadə olunduğu) , qorunma vəziyyəti (təhlükə altında olub-olmaması). *Bərpa və konservasiya kartları*, əşyaların qorunması və bərpası ilə bağlı bütün məlumatların qeyd edildiyi sənədlərdir. Bu sənədlər əşyaların təmir və bərpası ilə əlaqəli işləri izləmək üçün vacibdir. Bərpa edilmiş əşyanın adı və nömrəsi, təmir və konservasiya işlərinin növü (kimyəvi müalicə, struktur dəyişikliklər, boyama və s.), bərpa tarixləri (hər bir işin başlanğıcı və bitişi), istifadə olunan materiallar (kimyəvi maddələr, alətlər və s.), əşyanın əvvəlki və sonrakı vəziyyəti (fotoşəkillər və təsvirlər) bu sənəd növündə qeyd olunur. Bundan başqa əşyaların müntəzəm olaraq yoxlanılması və qorunma vəziyyətinin təhlil edilməsi üçün *qorunma vəziyyəti*

*hesabatları* da hazırlanmalıdır. Hesabatda əşyanın adı, zədə növü, qoruma təklifi və vəziyyəti qeyd olunur. Əlavə olaraq *inventarlaşdırma cədvəlləri* və *radioloji təhlükəsizlik sənədləri* də kolleksiyaların uçotu və mühafizəsi üçün vaxtaşırı işlənib hazırlanır.

## 14.MUZEY SƏRVƏTLƏRİNİN RADİOLOJİ-TƏHLÜKƏSİZ QABLAŞDIRILMASI VƏ ÜMUMİ DAŞINMA QAYDALARI

Muzey sərvətlərinin, xüsusən də radioloji təhlükəsizliyi sual altında olan sərvətlərin daşınması və qablaşdırılması həm artefaktların, həm də insanları potensial radiasiyaya məruz qalmaqdan qorumaq üçün xüsusi qaydalar və təlimatlar tələb edir. Bu proseslər müvafiq təhlükəsizlik protokollarına riayət edilməsi ilə həyata keçirilməli və hər bir addımda diqqətlə planlanmalıdır. Bəzi muzey artefaktlarında radioaktiv materiallar (məsələn, uran şüşəsi, radiumla boyanmış əşyalar və ya radioaktivliyi olan qalıqlar) ola bilər. Bu cür əşyalar, xüsusən də tarixi dövrlərdə, radiasiya təhlükəsi yarada bilər. Obyektin fon səviyyələrindən yuxarı radiasiya yaydığını müəyyən etmək üçün müvafiq radiasiya detektorları istifadə edilməlidir. Qablaşdırma zamanı isə qoruma üçün qurğuşunla örtülmüş qablardan və ya digər sıx materiallardan istifadə edilməlidir. Qoruyucu radiasiyaya məruz qalma təhlükəsiz səviyyələrə (tənzimləyici hədlərdən aşağı) azaldılmalıdır və qeyri-reaktiv materiallardan istifadə edilməlidir (məsələn, yüksək

keyfiyyətli köpük və ya turşusuz toxuma materialı). İkiqat mühafizə daxili paketin pozulması halında sızmanın qarşısını alır. Paketlər radiasiya xəbərdarlığı simvolları ilə aydın şəkildə etiketlənməli və ehtiyat tədbirləri görülməlidir. Daşınma zamanı səth radiasiyası yoxlanmalıdır. Qablaşdırmanın və obyektin səthində radiasiya səviyyəsi müəyyən edilməli və limitlərə (məsələn, səthdə <2 mSv/saat) uyğunluğu təmin edilməlidir. Daşınma boyunca radiasiya səviyyəsi daşıma limitlərinə uyğun olmalıdır ki, ətraf mühitə və insanlara təhlükə yaranmasın. Radioaktiv materialların daşınması zamanı qablaşdırmanın açılmasının qarşısını almaq üçün təmiz və etibarlı möhürlər istifadə edilməlidir. Bu möhürlər daşınma zamanı obyektin təhlükəsizliyini təmin edir və mümkün olan müdaxilələrin qarşısını alır. Qablaşdırma radiasiyanı keçirməyən materiallardan (məsələn, qurğuşun və ya plumbum, bəzi hallarda qalın beton və xüsusi şüşə, alüminium və paslanmayan polad qablar, xüsusi plastik qablar) hazırlanmalıdır. Radioaktiv materialların daşınma müddəti də minimuma endirilməlidir. Daşınma zamanı hər hansı bir qəza və ya radiasiya sızması halında, dərhal tətbiq olunacaq fövqəladə hallar planı mövcud olmalıdır. Daşınma sənədlərində, fövqəladə vəziyyətlərdə təhlükəsizlik protokolları, təcili yardım və radiasiya təmizləmə proseslərinə dair təlimatlar yer almalıdır. Daşınacaq muzey sərvətlərində ilkin yerində ölçmə zamanı radioaktiv

elementlər aşkarlanıbsa , bu zaman daşınma hüquq-mühafizə orqanları və dövlət qurumlarının müşayiəti ilə həyata keçirilir.

Sərvətlərin radioloji-təhlükəsiz qablaşdırılması və daşınması prosedurundan öncə onların ilkin qablaşdırılmasını həyata keçirtmək və daşınmağa hazır vəziyyətə gətirmək lazımdır. Belə ki, ilkin qablaşdırmadan sonra , əşyaları artıq yuxarıda qeyd olunan xüsusi qoruyucu izolyasiya materialları ilə paketləmək olar. İlkin qablaşdırma zamanı diqqət yetirilməli olan məqamlardan biri əşyaların materialına, ölçüsünə, həssasiyyətinə və digər xüsusiyyətlərinə görə uyğun qablaşdırma materiallarının seçilməsidir. Hər bir artefaktın unikal təbiəti nəzərə alınaraq, qablaşdırma materiallarının düzgün seçimi, onun fiziki və kimyəvi xüsusiyyətlərini qorumağa kömək edir. Burada diqqət yetirməli olan faktorlardan ən əsası odur ki, fərqli materiallar müxtəlif təhlükələrə və təsirlərə məruz qala bilir. İlkin qablaşdırma zamanı materiallara görə təsnifat aşağıdakı kimi qruplaşdırıla bilər:

a) Orqanik materiallar (ağac,pambıq,kağız və s.). Bu materiallar tez deformasiyaya uğrayan və bioloji olaraq çürüyə bilən maddələrdir. Məsələn, qədim kağız sənət əsərləri və tekstil məhsulları xüsusi diqqət tələb edir. Bu halda, antibakterial və antimikrobial xüsusiyyətləri olan qablaşdırma materialları, məsələn, pH-təsirli kağız və ya korroziyaya davamlı örtüklər seçilə bilər. Kağız və sənət

əşyaları üçün turşusuz kağız (bu material ağır ionların səbəb olduğu kimyəvi reaksiyaların qarşısını alır), karton və polietilen torbalar uyğundur. Bu cür əşyalar yüngül, lakin zərbəyə dayanıqlı qablaşdırma materiallarında daşınmalıdır. Onlar birbaşa təzyiqdən və zərbələrdən qorunmalıdır. Kağız əsərlərinin daşınması və saxlanması zamanı sabit temperatur və rütubət şəraiti təmin edilməlidir (optimal şərait 18-22°C və rütubət 45-55%-dir).

Parça və tekstil əşyalarını qorumaq üçün pambıq parça və ya yüngül və nəfəs alan materiallar istifadə olunur. Parça əşyaları polietilen torbalara yerləşdirərək onlardan zərərli toz və nəm hissəciklərinin də qarşısını almaq mümkündür. Parça əsərləri hərəkət etməyəcək şəkildə bükülməli və ya yığılmalıdır.

b) Mineral materiallar (daş, keramika və s.). Daş və keramika kimi daha möhkəm materiallar sarsıntıya və fiziki təzyiqlərə qarşı daha dözümlüdür. Lakin, bu tip artefaktlar çox həssas ola bilər və zərər görməsi üçün kiçik bir təsir kifayətdir. Bu növ artefaktlar üçün daha çox polietilen köpük və ya xüsusi formada hazırlanmış sərt qablaşdırma materialları istifadə edilir. Sümük və diş materiallarını yumşaq pambıq parçalarla bükmək lazımdır və yüngül, lakin güclü qablaşdırma materiallarında daşımaq lazımdır ki, onlara təzyiq tətbiq olunmasın.

c) Metallar (bürünc, mis, dəmir və s.). Metal materiallar zamanla oksidləşə bilər. Buna görə də metal

